Xalqın qəzeti!

# Xalq qəzeti

№ 28 (30722) 8 fevral 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycanın paytaxtı gözəlləşir, müasirləşir

## Prezident İlham Əliyev Bakıda metronun “Gənclik” stansiyası yaxınlığında yaradılan parkın açılışında

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda metronun “Gənclik” stansiyasının yaxınlığında “Antena” sahəsi adlanan ərazidə yeni yaradılan parkın açılışında iştirak ediblər.**



Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov yeni parkda yaradılan şərait barədə ətraflı məlumat verdi. Paytaxtımızın daha da müasirləşdirilməsi, abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin 2023-cü il 18 avqust və 2024-cü il 13 yanvar tarixli sərəncamlarına əsasən Nərimanov rayonunda - metronun “Gənclik” stansiyasının yaxınlığında, Vaqif prospekti, Ceyhun Hacıbəyli, Şəmsi Rəhimov və Nəsib bəy Yusifbəyli küçələrinin kəsişməsində salınan yeni parkdır.

Dövlətimizin başçısı və birinci xanım parkda yaradılan şəraitlə tanış oldular.

“Antena” sahəsi kimi tanınan bu ərazidə yararsız vəziyyətdə olan bəzi tikililər sökülüb. Söküntü işlərindən sonra parkın ərazisi daha da genişləndirilib və 19 hektara çatdırılıb.

Parkın ərazisindəki mövcud tarixi inzibati bina saxlanılıb və binada bərpa işləri aparılıb.

Yeni salınan parkda sakinlərin və qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün qısa müddətdə gözəl şərait yaradılıb. Belə ki, burada müasir tələblərə cavab verən iki restoran inşa olunub. Burada fəvvarə də quraşdırılıb. Bu da istirahət məkanına əlavə gözəllik verir.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycanda iqtisadi yüksəliş davamlı və sürətlidir

*10 ildə ÜDM 72 milyard manat artaraq 126,3 milyard manata çatıb*



**Ölkədə həyata keçirilən uğurlu islahatlar nəticəsində ötən il iqtisadiyyatın neftdən asılılığı minimuma endirilib və sahibkarlığın inkişafını şərtləndirən rəqabətqabiliyyətli milli iqtisadiyyatda yeni mərhələnin əsası qoyulub. Biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət tənzimləməsi, o cümlədən inzibati qayda və prosedurların təkmilləşdirilməsi kimi məsələlər də diqqətdə saxlanılıb. Bütün bunların nəticəsində hesabat dövründə iqtisadi sektorda yüksək göstəricilər əldə olunub.**

Dövlət Statistika Komitəsindən aldığımız məlumata əsasən, ötən il ölkədə 126,3 milyard manatlıq ümumi daxili məhsul (əvvəlki illə müqayisədə 4,1faiz və ya 3,3 milyard manat çox) istehsal edilib. Belə ki, 2023-cü ildə respublikada ÜDM istehsalı 123 milyard manat dəyərində qeydə alınıb. Bununla yanaşı, ötən il əhalinin hər nəfərinə düşən ÜDM 12,4 min manata bərabər (illik müqayisədə 0,3 min manat, yaxud da 2,2 faiz çox) olub. 2023-cü ildə əhalinin hər nəfərinə düşən ÜDM istehsalı isə 12,1 min manata yüksəlib.

*(ardı 7-ci səhifədə)*

## Qarabağ avantürasından sonra “erməni soyqırımı”

**Ermənistan baş naziri Nikol Paşinyan ABŞ-da yerli erməni icmasının təmsilçiləri ilə görüşündə bir müddət əvvəl İsveçrədəki erməni diasporunun nümayəndələri ilə təması zamanı səsləndirdiyi fikirlərə aydınlıq gətirib. Qeyd edək ki, Nikolun İsveçrədə dilə gətirdiklərindən belə çıxmışdı ki, “erməni soyqırımı” gerçək mahiyyət daşımayan “oyun”dur.**





Baş nazir Vaşinqtonda da, demək olar ki, eyni düşüncəni bölüşdü. Bundan təəccüblənənlərdən biri isə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovadır. Zaxarova nə deyib, bu barədə söz açacağıq. Ancaq əvvəlcə onu bildirək ki, XİN rəsmisinin reaksiyası Rusiya Prezidenti Vladimir Putinin vaxtilə ifadə etdiyi təəccübü xatırlatdı.

*

Məlum olduğu kimi, N.Paşinyan 2022-ci ilin oktyabrında Praqada Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan etmişdi. O, 2023-cü ilin mayında bunu bir qədər də əhatəli formada dilə gətirdi və dedi ki, rəsmi İrəvan Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Nikolun fikirləri manipulyativ mahiyyət daşıyırdı və sonra yaşanan proseslər də bunu göstərdi.

Məsələn, Paşinyan 2023-cü ilin sentyabrında bildirdi ki, Qarabağın özünün seçkili hakimiyyəti var. Yəni Ermənistanın bölgədəki separatçı quruluşla hansısa əlaqəsi yoxdur. Nikol bu fikri elə-belədən dilə gətirməmişdi. O, prinsipcə, Qarabağdakı rejimi müdafiə etməli tərəfin Ermənistan olmadığını vurğulamışdı. Paşinyanın düşüncəsinə görə, müdafiə missiyası Rusiyaya məxsusdur.

*(ardı 4-cü səhifədə)*

## Qarşılıqlı hörmət və dürüstlük

*Bunlar mübahisələrin ədalətli həllində əsas şərtlər olmalıdır*

**Təkcə qonşular arasında deyil, ailə daxilində də hərdən incikliyə gətirib çıxaran söz-söhbət yaranır. Bu zaman baş verənləri soyuq başla qəbul eləmək, səbəbləri üzə çıxarmaq, amma şişirtməmək, qarışqanı filə çevirməmək və ən önəmlisi, körpüləri yandırmamaq üçün anlayış göstərmək, güzəştə getmək lazım gəlir.**

Söhbət iki qonşu ölkə arasındakı münasibətlərin soyumasından gedəndə isə bu müstəvidə şəffaf, ədalətli, qarşılıqlı hörmətə və səmimiyyətə söykənən yanaşma ön plana çıxmalıdır. İstər insani, istərsə də diplomatik baxımdan axıra qədər dürüst və səmimi olmaq münasibətlərin sınaqdan uğurla çıxmasını, bundan sonrakı əməkdaşlığın zərər görməməsini şərtləndirən amildir.

Son vaxtlar Rusiya–Azərbaycan münasibətlərində müəyyən soyumaların müşahidə edildiyi danılmaz faktdır.

*(ardı 5-ci səhifədə)*




## Təkqütblü dünya düzəninin iflası



Səhifə ⇨ 11

## Sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlərdə təqsirləndirilən erməniəsilli şəxslərin məhkəməsi davam etdirilir



Səhifə ⇨ 6

## Demokratiya və hüququn əks tərəfində




Səhifə ⇨ 8

## “Cib” medialarının çöküşü başlandı

Səhifə ⇨ 4

## Azərbaycandan Ukraynaya növbəti humanitar yardım göndərilib

Səhifə ⇨ 6

# Prezident İlham Əliyev Bakıda metronun “Gənclik” stansiyası yaxınlığında yaradılan parkın açılışında



(əvvəli 1-ci səhifədə)

Müasir istirahət kompleksinin ərazisinin 14 hektarında yaşıllıq sahələri salınıb, 20 mindən çox ağac və kol əkilib. Parkda avtomat suvarma sistemi, su və yanğın çənləri, nasosxana, təhlükəsizlik müşahidə kameraları quraşdırılıb. Həmçinin işıqlandırma sistemi yeni layihə əsasında ən müasir standartlara uyğun şəkildə qurulub. Parkda piyada və velosiped yolları çəkilib, uşaq-əyləncə və açıq hava şəraitində müasir məşq qurğuları ilə təchiz edilmiş idman meydançaları yaradılıb.

Yeni parkla yaxınlıqdakı “Dədə Qorqud” parkını əlaqələndirən yeraltı keçid də inşa olunub. Bu da sakinlərin təhlükəsiz və rahat hərəkətinə şərait yaradır.

Son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınıb, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulub. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır.

Yeni istifadəyə verilən park da paytaxtımızın daha da gözəlləşməsi, şəhərdə yaşıl guşələrin sayının artırılması və insanların səmərəli istirahəti baxımından mühüm əhəmiyyət daşıyır.

**AZƏRTAC**



## Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında” 2016-cı il 6 oktyabr tarixli 1066 nömrəli Fərmanında və “Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında” 1997-ci il 30 aprel tarixli 560 nömrəli, “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” 2016-cı il 13 iyul tarixli 2199 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** “Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 oktyabr tarixli 1066 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1625 (Cild I) 1-ci hissəsində “Əli Əhmədov” sözləri “Samir Şərifov” sözləri ilə əvəz edilsin.

**2.** “Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 30 aprel tarixli 560 nömrəli Sərəncamının 1-ci hissəsində “Əli Əhmədov” sözləri “Samir Şərifov” sözləri ilə əvəz edilsin.

**3** “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1288 (Cild I) 1-ci hissəsində “Azərbaycan Respublikası Baş nazirinin birinci müavini” sözləri “Samir Şərifov – Azərbaycan Respublikası Baş nazirinin müavini” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 fevral 2025-ci il**

## “Qarabağ Universitetinin Klinikası” publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Qarabağ Universitetinin tabeliyində “Qarabağ Universitetinin Klinikası” publik hüquqi şəxs (bundan sonra – Klinika) yaradılsın.

**2.** Müəyyən edilsin ki, Klinika Qarabağ Universitetində tibb ixtisasları üzrə təhsil alan tələbələrin peşəkar kadr kimi hazırlanmasını təmin edən, tibb sahəsində elmi tədqiqatlar aparan, regionda əhalinin sağlamlığının qorunmasında iştirak edən publik hüquqi şəxsdir.

**3** Klinikanın təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Klinikanın yenidən təşkili və ləğv edilməsi;

3.2. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə:

3.2.1. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi:

5.1. Klinikanın nizamnaməsini iki ay müddətində təsdiq etsin;

5.2. Klinikanın dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

5.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli ilə bağlı zəruri tədbirlər görsün.

**6** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

6.1. Klinikanın 2025-ci ildə saxlanılma xərclərinin maliyyələşdirilməsi üçün “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının 1.5.5.7-ci (Səhiyyə sahəsi üzrə sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) abzasında nəzərdə tutulmuş vəsaitdən 5 (beş) milyon manatı Qarabağ Universitetinə ayırsın;

6.2. Klinika mərhələlərlə tam özünümaliyyələşdirmə səviyyəsinə çatanadək növbəti illərin dövlət büdcəsinin layihələrində Qarabağ Universitetinin fəaliyyətinin maliyyələşdirilməsinə ayrılacaq vəsaitlərdə Klinikanın saxlanılması xərcləri üçün zəruri maliyyə vəsaitinin nəzərdə tutulmasını təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 fevral 2025-ci il**

## A.R.Əliyevin Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Rəhim oğlu Əliyev Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 fevral 2025-ci il**

## A.R.Əliyevin Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Rəhim oğlu Əliyev Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 fevral 2025-ci il**

## Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev yeni vəzifəyə təyin olunmuş maliyyə nazirini kollektivə təqdim edib





**Fevralın 7-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev yeni vəzifəyə təyin olunmuş maliyyə naziri Sahil Babayevi kollektivə təqdim edib.**

Mərasimdə çıxış edən Samir Nuriyev müstəqil Azərbaycan Respublikasında müasir maliyyə sisteminin formalaşması və inkişafının ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. 1990-cı illərin əvvəllərində Ulu öndər yenidən hakimiyyətə qayıtdıqdan sonra bütün digər sahələrdə olduğu kimi, iqtisadiyyat və maliyyə sahəsində də sabitlik təmin edilib, həyata keçirilmiş ardıcıl və məqsədyönlü islahatlar nəticəsində dayanıqlı maliyyə sistemi yaradılıb.

Prezident Administrasiyasının rəhbəri deyib ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan böyük inkişaf yolu keçib, aparılan iqtisadi islahatlar, şəffaflığın təmin edilməsi, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində sürətli iqtisadi artıma və dövlət maliyyəsinin səmərəli idarə edilməsinə nail olunub.

Azərbaycan Respublikasında maliyyə siyasətini həyata keçirən və dövlət maliyyəsinin idarə olunmasını təşkil edən orqan kimi Maliyyə Nazirliyinin fəaliyyətinin daim Azərbaycan Prezidenti İlham Əliyevin nəzarətində olduğunu bildirən Samir Nuriyev qurumun qarşısında duran vəzifələrlə bağlı dövlət başçısının tapşırıqlarını diqqətə çatdırıb, həmin vəzifələrin icrası üçün bütün imkanların səfərbər olunacağına ümid etdiyini bildirib, bu işdə yeni təyin olunmuş maliyyə nazirinə və bütün kollektivə uğurlar arzulayıb.

***XQ***

## Hikmət Hacıyev Pakistan səfirini qəbul edib



**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Pakistanın Azərbaycandakı səfiri Qasım Mohiuddini qəbul edib. Bu barədə Qasım Mohiuddin “X” hesabında yazıb.**

“2025-ci ilə doğru irəliləyərkən Pakistan və Azərbaycan arasında qardaşlıq münasibətlərində daha böyük uğurlara nail olmaq üçün öz öhdəliyimizi qoruyuruq”- diplomat bildirib.

***XQ***

# "Cinayətkarlar yuvası" dağılmalı idi... Dağıldı

**USAID uzunmüddətli iqtisadi və sosial inkişafa yardım göstərmək adı ilə formalaşdırılmış təşkilat kimi yaradılsa da, bunu yalnız zahiri forma adlandırmaq olardı. Məsələnin pərdəarxası məqamları, əslində, başqa idi. Bu qurum yardım adı altında mümkün olan bütün çirkinliyə əl atmağa nail oldu. Müxtəlif dövlətlərin daxili işlərinə, xarici siyasətinə qarışmaq, vətəndaş qarşıdurması, qeyri-sabit mühit yaratmaq, onları çevriliş və xaos təhlükəsi ilə üz-üzə qoymaq və s.**



**Elnarə AKİMOVA,**
**Milli Məclisin deputatı,**
**filologiya elmləri doktoru**

Daxili əməl və niyyətini ört-basdır etməsi üçün müxtəlif regionlarda layihələr gerçəkləşdirməsi də ona qeyri-qanuni əməllərini gizləmək üçün lazım olurdu. USAID-in Ermənistana göstərdiyi xüsusi rəğbət, bu ölkəyə dəfələrlə maliyyə yardımları ayırması, buna əks olaraq isə Azərbaycana qarşı sərgilədiyi radikal mövqe, əsassız iddialarla çıxış etməsi, hay havadarlığından nəşət tapmış mövqeyin göstəricisi kimi ancaq təəssüf doğura bilərdi. Bu mənada, Azərbaycanın Prezidenti cənab İlham Əliyevin hər məsələdə olduğu kimi, burada da qətiyyətli mövqeyi, ayıq-sayıq davranışı bu gün həm də uzaqgörən bir siyasətin çalarları kimi təqdir olunmalıdır.

ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) fəaliyyətinin dayandırılması ilin başlanğıcı üçün sevindirici xəbər sayıla bilər. Sevinmək amilini öz ölkəmiz, Azərbaycana münasibətlə bağlı səsləndirmirəm. Onsuz da Azərbaycan ötən ilin fevralından USAID ilə müqavilənin müddətini uzatmağı mənasız saymış, ondan imtina etmişdir. Bunu daha qlobal mənada, uğur adlandırmaq mümkündür. Çünki USAID-in səpdiyi şər toxumlarının arealı böyükdür, yaratdığı xaos və disharmoniya xalqlar, ölkələr arasında nifaq, təfriqə yaratmağa hesablanmış əməl göstəriciləridir. Ukraynada "narıncı", Gürcüstanda "məxməri", Qırğızıstanda isə "zanbaq" inqilablarının ssenarilərində USAID-in oynadığı rol yaxın və çağdaş tariximizin məşum səhifələrindəndir. Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodin USAID-in illik büdcəsinin 50-60 milyard dollar olan şəbəkəyə çevrildiyini təsadüfən söyləməyib. Gürcüstanın Baş naziri İrakli Kobaxidze isə bu qurumun öz maliyyəsindən ancaq digər ölkələrdə təfriqə və xaos yaratmaq üçün istifadə etdiyini vurğulayıb. İlon Mask USAID-i "məhvə məhkum qurum" və "cinayətkarlar yuvası" adlandırıb.

Bu gün bu təşkilata qarşı səslənən əsaslı ittihamlara nəzər yetirmək kifayətdir ki, hansı əməllərin daşıyıcısı olduğu görünsün: bioloji silahların hazırlanmasını maliyyələşdirmək, Əfqanıstanda narkotik məhsulların istehsalını maliyyələşdirmək, ciddi korrupsiyaya yol vermək, xalqların ənənəvi dəyərlərinə qarşı dağıdıcılıq faktoru, qəsbkar ölkələrin maliyyəsinə dəstək... və sair və ilaxır. Amma hər şeyin, xüsusilə şərin sonu mütləq gəlir. Artıq ABŞ Prezidenti Donald Tramp USAID rəhbərliyində ifrat radikalların olduğunu bildirib, Ağ ev təşkilatı maliyyələşdirməkdən imtina edib.

Buna bir az da ilahi ədalət prizmasından baxmalıyıq. İllərlə Azərbaycanın haqq davasına qarşı tutduğu əks – mövqe, düşmən ölkənin militarizasiyasına verdiyi dəstək, ölkəmizin dəyərlərinə, suverenliyinə etinasizlıq və s. hər biri bu qurumun əsl mahiyyətini göstərmək üçün yetərli amillərdir. USAID-in təhlükəli və dağıdıcı siyasətinin sonu mütləq gəlməli idi. Gəldi. Hazırda təşkilat yenidən qurulma prosesindədir. Ümid edirik ki, yenidən formalaşdırılacaq USAID olanlardan nəticə çıxarmağı bacaracaq, başqa xalqların dəyərlərinə, milli maraqlarına rəğbətlə yanaşmağa çalışacaqdır.

---

**İran hesab edir ki, Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiyası və demarkasiyası sülhə nail olmaq yolunda yeni addımdır, proses Alma-Ata Bəyannaməsinə və beynəlxalq qaydalara əsaslanır. Bu fikri İranın Ermənistandakı fövqəladə və səlahiyyətli səfiri Mehdi Sobhani İrəvanda keçirilmiş mətbuat konfransında dilə gətirib. Cənab Sobhaninin başqa nələri bildirməsinə diqqət yetirəcəyik. Ancaq əvvəlcə bir məqamın üzərində dayanaq.**

# İran və Alma-Ata Bəyannaməsi

## *Səfir Sobhaninin bildirdiklərinə sözardı*





Bəli, İran səfirinin bildirdikləri yenilik deyil. Çünki Tehranın mövqeyi onsuz da bəllidir. Görünür, hazırda İran üçün 1991-ci ilin Alma-Ata Bəyannaməsinə söykənən vurğulayır ki, sərhədlərin delimitasiyası və demarkasiyası Azərbaycanla Ermənistan arasında sülhə nail olmaq yolunda yeni və ən əsası mühüm addımdır. Ancaq prosesin çox ləng getdiyinə dair təsəvvür var. Bu məntiq də var. Qeyd edək ki, İran tərəfi ilk dəfədir sənədə istinadın zəruriliyinə dair açıqlama verir. Olsun, etirazımız yoxdur. İran böyük dövlətdir, cənub qonşumuzdur. Amma...

1991-ci ilin Alma-Ata Bəyannaməsi keçmiş SSRİ-yə daxil olan respublikaların bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımalarını əsas tuturdu. Ancaq Ermənistan nə etdi? Azərbaycan torpaqlarını işğala məruz qoydu. İşğal otuz ilə yaxın müddətdə davam etdi.

Onu da bildirək ki, İrana ikinci Xocalı faciəsinin yaşanmaması üçün minnətdarlıq borcumuz var. Əgər Zəngilan sakinləri Araz çayı üzərindən bu ölkəyə keçməsəydilər, kim bilir hansı böyük faciə baş verəcəkdi və bunlar İran dairələrinə da yaxşı bəllidir. Yəni söhbət Ermənistanın sözügedən sənədi tamamilə heçə saymasından gedir və məsələ Alma-Ata Bəyannaməsini əsas götürməkdədirsə, gərək bütün detallar nəzərə alınsın.

Nəzərə alınsın ki, Ermənistan təcavüzkar siyasət yürütməklə, nəinki Alma-Ata Bəyannaməsini, eləcə də Sobhaninin barəsində ümumi söz açdığı beynəlxalq prinsipləri pozub. Həmin prinsiplərdən yalnız birini diqqətə çatdıraq və deyək ki, cənab səfirin BMT-nin Azərbaycan ərazilərində işğala son qoyulmasına dair dörd qətnaməsninin mövcudluğundan xəbərsizliyi mümkünsüzdür. İrəvan həmin qətnamələri lazımsız kağız parçasına çevirmişdi. Artıq soruşmayacağıq ki, rəsmi Tehran nə üçün buna laqeyd yanaşmışdı. Çünki işğal başa çatıb. Hərçənd, yaddaşımız yerindədir.

İranın Ermənistandakı səfiri çox doğru liyin və əminamanlığın təmin olunmasına töhfə verəcəyini vurğulayan M.Sobhani bilavasitə İranla Ermənistan arasındakı sərhəddən söz açıb. Məlumdur ki, Ermənistan Azərbaycanın Zəngəzur dəhlizi təşəbbüsünə qarşı çıxır və bu mövqe həm də ölkənin İranla sərhəd xəttinin aradan qalxmasının yolverilməzliyi prizmasında dəyərləndirilir. Mövcud dəyərləndirmədə başlıca xətt, guya, Bakının təcavüzkar siyasət yürütməsidir. Halbuki, məsələnin belə qoyuluşu kökündən yanlışdır. Çünki Azərbaycan rəhbərliyi, xüsusən Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Zəngəzur dəhlizi, heç bir halda, Ermənistana qarşı ərazi iddiası, ölkənin suveren hüquqlarının məhdudlaşdırılması anlamına gələ bilməz. Cənab Sobhani isə bildirib ki, "Ermənistan və Azərbaycan arasında beynəlxalq səviyyədə tanınmış sərhədlərin dəqiqləşdirilməsi ilə bağlı aparılan danışıqların Ermənistan–İran sərhədinə heç bir təsiri ola bilməz".

Bu gün Ermənistan sülhdən yayınmaq, regiona aid olmayan dövlətləri Cənubi Qafqazda maraq sahibinə çevirməkdə israrlıdır. Sülh prosesinin ləngliyi də məhz bununla bağlıdır.

Belə bir durumda İran, doğrudan da, bögədə barış mühitinin qərarlaşmasında maraqlıdırsa, gərək, İrəvana da Qərbin məkrli planlarında yer almamaqla bağlı ismarıclarını çatdırsın. Bəlkə də çatdırır, çünki ara-sıra İslam respublikasının ayrı-ayrı rəsmilərinin regiona kənar müdaxilənin yolverilməzliyinə dair açıqlamalarını eşidirik. Yeri gəlmişkən, Azərbaycan "Region region ölkələri üçündür!" şüarı ilə çıxış edir ki, bu, cənub qonşumuzun maraq və mənafeləri ilə uzlaşan haldır.

Kənar müdaxilədən söz düşmüşkən isə deyək ki, Ermənistan Avropa İttifaqının Azərbaycan-Ermənistan şərti sərhədinin öz tərəfində lövbər salmış mülki müşahidə missiyasının səlahiyyət müddətini artırıb. O missiyanın ki, tərkibi alman polislərindən və fransız jandarmlarından ibarətdir və təsisatın gələcəkdə NATO missiyasına çevrilməsi ehtimalı böyükdür. Görəsən, İranın məsələyə dair reaksiyası necədir? Yoxsa, ölkə yenə hesab edir ki, Aİ-nin müşahidəçiləri bölgədə olması heç bir təhlükə deyil? Hər halda, bu qənaətə gələrkən, Ermənistanın hazırda sürətli silahlanma xətti seçdiyi barədə ciddi düşünmək lazımdır. Ümid edək ki, cənub qonşumuz bütün təfərrüatları hesaba alır.

Əlqərəz, sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin beynəlxalq normalara və Alma-Ata Bəyannaməsinə uyğun aparılmasının regionda təhlükəsizliyin və əminamanlığın təmin olunmasına töhfə verəcəyini vurğulayan M.Sobhani...

Əlbəttə, cənab səfir də haqlıdır. İzah etdik ki, Azərbaycan Ermənistanın ərazi bütövlüyünün pozulmasını istəmir. Amma ölkəmiz Zəngəzur dəhlizində, yəni Naxçıvana quru yolunda israrlıdır. Rəsmi Bakı 43 kilometrlik yolda İrəvan tərəfindən hansısa sərhəd və gömrük nəzarətinin tətbiqi ilə razılaşmır və məsələ prinsipial əhəmiyyət daşıyır.

Dövlətimiz qarşı tərəfin bununla razılaşmayacağı təqdirdə, İran variantına üstünlük veriləcəyini açıqlayıb. O zaman, gəlin, düşünək görək Ermənistanın xaricdəki havadarları bununla razılaşırmı? Onlar ölkəmizi tutduğu yoldan döndərmək üçün İrəvanı təxribatçı addımlar atmağa sövq etməyəcəklər ki? Əgər Ermənistan sülhə zidd mövqe tutub Azərbaycanla hərbi eskalasiya yaratmağa çalışsa, Tehranın məsələyə münasibəti necə olacaq? Bu kimi suallar çoxdur və onlara ən yaxşı cavabı zaman verəcək.

***Ə.RÜSTƏMOV***
***XQ***

# "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir"

## *Çoxcildliyin təkrar nəşrinin 4-cü kitabı*




Kitabda yer alan materiallar 1994-cü il avqustun 11-dən oktyabrın 3-dək olan dövrü əhatə edir. Nəşrə ulu öndər Heydər Əliyevin çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibləri, məktubları daxil edilib.

Materiallarda Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, hüquqi dövlət quruculuğu, demokratik yeniləşmə, iqtisadi islahatların aparılması, respublikamızın ərazi bütövlüyünün təmin olunması, daxili və xarici siyasətin başlıca istiqamətləri əksini tapıb. Həmin dövrdə Azərbaycanın iqtisadiyyatı keçid mərhələsini yaşayırdı, bu sahədə mövcud imkanlardan lazımınca istifadə edilmədiyi üçün irəliləyiş müşahidə olunmurdu.

1994-cü il avqustun 11-də respublika iqtisadiyyatının vəziyyətinə həsr olunmuş geniş müşavirədə nitq söyləyən ulu öndər Heydər Əliyev ölkənin iqtisadi potensialından səmərəli istifadə edilməsi ilə yaxşı nəticələrə nail olmağın mümkünlüyünü bildirərək deyib: "Azərbaycan Respublikasının iqtisadi potensialı, təbii sərvətləri, sənaye potensialı, infrastrukturu və digər imkanları çox zəngin, çox güclü, çox yüksək səviyyədədir. Əgər biz bütün bunlardan səmərəli istifadə etsək, yaxşı nəticələrə nail olarıq. Bu, bizim strateji yolumuzdur. Biz bu yolla getməliyik. Amma biz hər gün, hər ay, hər rüb və hər il yorulmadan çalışaraq respublikamızın iqtisadiyyatını inkişaf etdirməli və eyni zamanda, adamları işlə təmin etməliyik, bunun nəticəsində maliyyə vəziyyətimizi yaxşılaşdırmalıyıq, vətəndaşlarımızın tələblərini, heç olmasa minimum tələblərini ödəməliyik və Azərbaycanı tədricən böhran vəziyyətindən çıxarmalıyıq".

Ulu öndər Heydər Əliyev xalqımızın dini dəyərlərini yüksək qiymətləndirirdi. 1994-cü il avqustun 26-da Mövlud bayramı münasibətilə Bakıda məsciddəki mərasimdə çıxış edən Ümummilli lider deyib: "İslam dini əsrlərboyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir. Qurani-Kərimin kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir. Biz bu yolla gedirik və bundan sonra da gedəcəyik".

Ümummilli lider Heydər Əliyevin çıxışları o dövrdə Azərbaycanın vəziyyəti haqqında dolğun təsəvvür yaradır: "Azərbaycan müharibə şəraitindədir. Müharibəni Azərbaycan başlamamışdır. Azərbaycanın torpaqlarına, onun suverenliyinə, ərazi bütövlüyünə Ermənistan təcavüz etmişdir. Beləliklə də Azərbaycan müharibəyə cəlb olunmuşdur. Təəssüflər olsun ki, 6 il davam edən müharibədə, müəyyən obyektiv və subyektiv səbəblərə görə, torpaqlarımızın bir qismi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, 1 milyondan artıq həmvətənimiz qaçqın vəziyyətinə düşmüşdür. Şübhəsiz ki, bu, Azərbaycanın sosial-iqtisadi vəziyyətinə ağır zərbə vurur. Ona görə də sənayemizdə görüləcək işlərin bir çoxunu vaxtında həyata keçirmək mümkün olmur, yaxud da sənaye istehsalında əldə edilən vəsaitin bir hissəsi onun inkişafına deyil, respublikanın müdafiəsinə yönəldilir. Bu da təbiidir. Biz Azərbaycanın müstəqilliyini, torpaqlarımızı qorumalı, respublikamızın ərazi bütövlüyünə nail olmalıyıq. Ona görə də müharibənin əzab-əziyyətinə dözməliyik".

Müasir müstəqil Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin əsasının qoyulması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi rəhbər, gənclərlə, o cümlədən ali məktəblərə qəbul olmuş birinci kurs tələbələri ilə görüşür, onlara tövsiyələrini verirdi. O, çıxışlarında gənc nəslin Azərbaycanın gələcəyi olmasını vurğulayaraq deyirdi: "Gənc nəsil gəlir. Bu, Azərbaycanın gələcəyidir. Ali məktəblərə daxil olan gənclər Azərbaycanın elmini, mədəniyyətini, iqtisadiyyatını, ictimai-sosial həyatını inkişaf etdirəcək yeni nəslin bir dəstəsidir. Bu gənclərin qeydinə qalmaq, onlara qayğıkeş münasibət göstərmək, başlıcası isə yaxşı təhsil vermək, ali məktəblərdə mənəvi mühiti möhkəmləndirmək, gənclərimizi gələcəkdə müstəqil həyatda sərbəst və layiqincə çalışmağa hazırlamaq – bunlar ali məktəblərin professor və müəllim heyətinin, bütün ali məktəb işçilərinin müqəddəs vəzifəsidir".

Oxucu bütün bu çıxışların mətnləri ilə çoxcildliyin 4-cü kitabında tanış ola bilər.

Kitabın buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.

***AZƏRTAC***

# Baş prokuror Şirvan bölgəsində

**Fevralın 7-də Baş prokuror Kamran Əliyev Zərdab rayon prokurorluğunun inzibati binasında Zərdab, Ucar, Kürdəmir, Ağdaş, Ağcabədi, Bərdə rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**



Müraciəti dinlənilən 46 nəfər vətəndaşın qeyd etdiyi konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, eləcə də "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olub.

*

Həmin gün Baş prokuror Kamran Əliyev Kürdəmir rayon prokurorluğunun yeni inzibati binasının açılış mərasimində iştirak edib.

Digər dövlət və hüquq mühafizə orqanlarının əməkdaşlarının qatıldığı tədbiri giriş sözü ilə açan Baş prokuror Kamran Əliyev qeyd edib ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi altında başlanan və Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən hüquq islahatları və hərtərəfli dövlət dəstəyi nəticəsində milli prokurorluq orqanlarının bu gün dünya standartlarına uyğun fəaliyyəti təşkil olunub.

Yeni binanın istifadəyə verilməsini prokurorluq əməkdaşlarının əməyinə verilən yüksək qiymət kimi dəyərləndirən Baş prokuror Azərbaycan dövlətinin inkişafı naminə bundan sonra da böyük səylə çalışacaqlarını bildirərək kollektivə uğurlar arzu edib.

Sonra iştirakçılar binada yaradılan şəraitlə tanış olublar.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Qarabağ avantürasından sonra “erməni soyqırımı”

(əvvəli 1-ci səhifədə)

Təkcə Paşinyan deyil, ümumiyyətlə, Ermənistan, hətta, dünya erməniliyi də hesab edirdi ki, Qarabağı məhz Rusiya qorumalı, bölgədə Azərbaycanın yurisdiksiyasının qərarlaşmasına imkan verməməli idi. Qarabağın erməni varlığına sahiblənməli tərəf kimi də Rusiya ön planda dayanırdı.

Ancaq Paşinyan iqtidarının məsələ ilə bağlı mövqeyi ikincilərdən fərqli təsir bağışlayırdı. Anti-Rusiya ovqatına köklənmiş Nikol təxminən onu deyirdi ki, Moskva Qarabağı Ermənistanda saxlaya bilirsə, saxlasın, ölkəsi bu işdə ona hansısa kömək göstərməyəcək.

Bəli, Ermənistansız Qarabağı siyasi oyun predmetinə çevirmək mümkün deyildi. Cənab Putin məhz bu səbəbdən Paşinyanın Praqada səsləndirdiyi və yuxarıda haqqında söz açdığımız bəyanatdan təəccübləndiyini vurğulamışdı. Özü də Kreml rəhbərinin təəccübünü nə vaxt ifadə etdiyinə diqqət yetirək. Putin lokal xarakterli anti-terror tədbirlərindən və Qarabağda Azərbaycanın suverenliyi tam bərpa olunandan sonra dilə gəlmişdi. Bəs necə oldu ki, o, Paşinyanın vaxtilə verdiyi bəyanata həmin bəyanatın səslənməsinin üzərindən aylar keçdikdən sonra toxundu? Cavab sadədir – 2022-ci ilin oktyabrından sonrakı bir ilədək müddətdə Qarabağda erməni separatizmi saxlanılırdı və belə bir şəraitdə Putin deməzdi ki, erməni baş nazir Praqada səhvə yol verdi.

Məsələyə başqa rakursdan da baxaraq vurğulayaq ki, Ermənistanda Qarabağ itkisinə görə Rusiyanı qınayanlar olmasaydı, çox güman, Kreml rəhbəri, necə deyərlər, “sandığı açıb pambığı tökməyəcəkdi”. Ancaq erməni tərəfin Moskvanı günahlandırmaması mümkünsüz idi. Ən azı ona görə ki, Paşinyan iqtidarı özünü buna köklənmişdi və yenə eyni ampluadadır.

V.Putinin ittihamlara cavab olaraq dəfələrlə səsləndirdiyi fikirlərdən, apardığı izahatlardan hasil olan qənaət budur ki, Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini şübhə altına alan mahiyyət daşıyıb. Deməli, Paşinyan 2022-ci və 2023-cü illərdə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımaqla, Qarabağ uğrundakı davadan geri çəkilib. Hər halda, rəsmi Moskvanın mövqeyinin məhz bu tezisə söykəndiyi şübhəsizdir.

Əlbəttə, Rusiyanın Qarabağ ilə bağlı qurduğu oyuna sahib çıxması üçün Ermənistana ehtiyac duyulurdu. Rəsmi İrəvanın baxışı isə tam başqa idi. Paşinyan Qarabağ avantürasının davamı üçün fərqli “ssenari” müəyyənləşdirmişdi ki, istəkləri gerçəkləşmədi. Görünür, Putin əvvəlcədən durumun belə hala gələcəyini düşünübmüş. Ona görə onun təəccüblənmədiyini, daha çox qəzəb və hiddət hissi keçirdiyini söyləmək yerinə düşər. M.Zaxarovanın fikirləri də, əslində, təəccübdən yox, məhz qəzəb və hiddətdən qaynaqlanırdı.





*

N.Paşinyan Vaşinqtonda bildirib ki, “soyqırımı” illərində dəqiq nəyin baş verdiyini, ümumən, “genosid” təsəvvürünün niyə və kimlər vasitəsilə formalaşdığını anlamaq lazımdır. “Bizi idarə etmək istəyən, idarə edilən olmağımız üçün əsas aləti müstəqil şəkildə yaşaya bilməyəcəyimiz şəraiti yaratmaq olan qüvvələrin mövcud olub-olmadığını müəyyənləşdirməliyik”, – deyən baş nazirin subliminal şəkildə Rusiyanı günahlandırdığı aydındır. Qənaətimizin doğruluğunu sübut etmək üçün növbəti məqama diqqət yetirək.

Paşinyan İsveçrədə “erməni soyqırımı” məsələsinin ötən əsrin 30-cu illərində gündəmdən çıxdığını, yalnız 50-ci illərdən başlayaraq, dövriyyəyə daxil edildiyini vurğulamışdı. Səbəb çox sadədir. Türkiyə 1952-ci ildə NATO ölkəsinə çevrilmişdi. Sabiq SSRİ rəhbərliyi özünün sərhədləri yaxınlığında Alyans ölkəsinin mövcudluğuna qarşı ideoloji sipər formalaşdırmaq istəmişdi. Sovetlər İttifaqının Türkiyə ilə sərhədyanı bölgəsi Sovet Ermənistanı idi və “erməni soyqırımı” məsələsi Ankaraya qəzəb formalaşdırmaq, yaxud rəğbəti əngəlləmək naminə qaldırılmışdı. Nikolun aydınlaşdırmaq istədiyi də elə bu idi.

M.Zaxarova isə deyib: “Bilirsiniz, düzünü desəm, mən həyatımda heç vaxt gözləmirdim ki, bu məsələyə həm Ermənistan dövlətinin, həm Ermənistan xalqının, həm də bir etnik qrup kimi ermənilərin tarixən formalaşmış, tamamilə konsensus mövqeyindən fərqli yanaşılacaq. Mən heç vaxt düşünməmişdim ki, bir daha deyirəm, illər boyu formalaşmış bu möhkəm mövqe erməni icmasının daxilindən hansısa dəyişikliyə məruz qalacaq. Görürsünüz, son vaxtlar nə cür ifadələr eşidirik. Mən indi Davosdakı bəyanatlardan (Paşinyanın İsveçrədə erməni diasporunun təmsilçiləri ilə görüşü nəzərdə tutulur – red.) danışıram. Amma bu bizim üçün sual deyil. Ölkəmizin mövqeyi Dövlət Dumasının müvafiq bəyanatında (1995-ci il erməni “soyqırımının” tanınması ilə bağlı bəyanatda - red.) formalaşdırılıb ki, biz bundan mütəmadi olaraq sitat gətiririk”.

Təsəvvür edin, Ermənistanın baş naziri “erməni soyqırımı”nın qondarma mahiyyət daşıdığını bildirir, Rusiya XİN-in rəsmi nümayəndəsi isə ölkəsinin məsələ ilə bağlı mövqeyinin dəyişməyəcəyini vurğulayır. Gözlərimiz önündə hələlik Zaxarovanın baş rolda oynadığı Rusiyanın “absurd teatrı” canlanır. Məqsədimiz isə absurdizmi diqqətə çatdırmaq deyil. Durumu, müəyyən mənada, təbii qarşılayırıq. Rusiyanın erməni varlığı üçün uydurduğu Qarabağ milli identikliyi, indi isə “erməni soyqırımı” puça çıxırsa, Zaxarova başqa nə etməli, nə deməlidir? Zamanında V.Putin də Paşinyanın haqqında söz açdığımız Praqa tezislərini beləcə qarşılamışdı.

Əlbəttə, yüz fikir bir borcu ödəmədiyi kimi, indiki durumda təəccüblənmək də bir işə yaramır. Yaxşı olar ki, Rusiya yanaşmasını dəyişsin. Anlasın ki, Ermənistansız Qarabağ avantürası mövcud olmadığı kimi, “erməni soyqırımı” da mümkünsüzdür. Daha yaxşı olar ki, rəsmi Moskva Paşinyan administrasiyasının erməni varlığı üçün ortaya atdığı bütün məsələlərdən imtina yolu tutduğunu dərk etsin və erməni sevdasına son qoysun. Axı hazırda zaman da fərqlidir. Normal münasibətlərin saxlanılması üçün hansısa təfriqəçiliyə ehtiyac yoxdur.

Digər tərəfdən, həm Zaxarovanın, həm də Rusiya rəhbərliyində təmsil olunan digərlərinin, belə demək mümkünsə, rahatlıq tapmaları üçün onu da vurğulayaq ki, əslində, Paşinyan iqtidarı erməni avantürizmi baxımından aktual sayılan məsələlərdən imtina yolunu tutmur. Sadəcə, Nikol və tərəfdarları avantürizmin davamının Qərb trayektoriyasını müəyyənləşdirirlər. Kremldə bu trayektoriyanın daha həyasız mahiyyət daşıdığına da əmin ola bilərlər. Rusiyasız erməni həyasızlığı nə qədər uğur qazanacaq, ümumən uğur qazanacaqmı, hesab edirik ki, bu, tamam başqa söhbətin mövzusudur. Rusiyasız Ermənistan adlı qurama dövlətin mövcud olub-olmayacağı da həmçinin. Söhbət həm də avantürasız mövcudluqdan gedir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Separatçıların məhkəməsi beynəlxalq hüquqa uyğun keçirilir




**Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlərin törədilməsində təqsirləndirilən erməni əsilli şəxslərin məhkəməsi davam edir. Cinayət işində 15 nəfər ittiham olunur. Onlar İkinci Qarabağ müharibəsindən sonra ərazi bütövlüyümüzün təmin edilməsi zamanı həbs olunaraq istintaq təcridxanasına göndərilib. Əslində, bu, cinayət qanunvericiliyinə görə, cəzanın əsas məqsədlərindən birinə nail olmaq idi. Çünki cinayət törətmiş şəxs cəzalandırılmalı, sosial ədalət bərpa olunmalıdır. Onlar törətdikləri cinayət əməllərinə görə layiq olduqları cəzaları da alacaqlar.**

Məhkəmə isə beynəlxalq hüquqa uyğun keçirilir. Çünki Azərbaycan hüquqi dövlətdir. Ölkəmizin Konstitutsiyasına görə, Azərbaycanda hakimiyyətlərin bölgüsü prinsipi var, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri bir-birindən asılı olmayan, müstəqil şəkildə fəaliyyət göstərirlər. Odur ki, son qərarı da müstəqil fəaliyyət göstərən məhkəmələrimiz verəcəklər.

Qeyd edək ki, Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin, eləcə də Ruben Vardanyanın ölkədaxili qanunların və beynəlxalq konvensiyaların tələblərinə uyğun hüquqları təmin olunub. Onlar vəkil və tərcüməçi ilə təmin olunublar. Separatçıları Beynəlxalq Qırmızı Xaç Komitəsinin əməkdaşları vaxtaşırı ziyarət edirlər. Ailə üzvləri ilə telefon danışığına imkanlar yaradılır. Təcridxanada bütün qanunlara əməl olunur. Guya, onlara psixoloji təzyiq göstərilməsi və psixotrop dərmanların verilməsi barədə Ermənistan mətbuatının yaydığı məlumatlar isə reallıqdan uzaqdır. Bunu təqsirləndirilən şəxslərin özləri də etiraf edirlər. Məhkəmədə çıxış edən təqsirləndirilən şəxs Arayik Harutyunyan bildirib ki, hazırda baxılan cinayət işi üzrə ittiham olunan şəxslərə psixoloji təzyiq göstərilməsi və psixotrop dərmanların verilməsinə dair Ermənistan mediasında yayılan iddialar yalandır: “Nəzərə alsaq ki, təcridxanada bizim məlumat almaq, etiraz etmək imkanlarımız olub. Həmçinin Ermənistan mediasında və digər kütləvi informasiya vasitələrində bizim saxlanma şəraitimiz daim müzakirə olunur. Başa düşdüyüm qədərilə, Ermənistan Respublikasının baş naziri bəyan edib ki, bizə qarşı psixoloji təzyiq və həmçinin psixotrop dərmanlardan istifadə edilməsi barədə fikirlər var. Bu iddialar yalandır”.

Cinayət işi üzrə ittiham olunan Harutyunyan daha sonra deyib: “Mən ən çox bizim doğmalarımız, yaxınlarımız barədə narahatlıq keçirirəm. Bəyan etmək istəyirəm ki, mən saxlanma şəraitinə dair qanunla tanışam. Təcridxanada bütün qanunlara əməl olunur, Beynəlxalq Qırmızı Xaç Komitəsi vaxtaşırı olaraq bizi ziyarət edir. Bizim ailə üzvlərimizlə telefon danışığı imkanlarımız olur. Təcridxanada bizimlə qanuna müvafiq şəkildə davranırlar. İstintaq dövründə də müstəntiqlər tərəfindən hüquqlarımız təmin olunub. Vəkillər həmişə istintaqda iştirak ediblər. Xüsusilə qeyd etmək istəyirəm ki, bizə qarşı hər hansı bir təzyiq olmayıb. İstintaq zamanı bizimlə hər zaman qanun çərçivəsində davranıblar. Təşəkkür edirəm”.

Daha sonra təqsirləndirilən şəxs Davit Babayan məhkəmədə çıxış edib. Çıxışında xatırladıb ki, saxlanma şəraitindən razıdır, ona və digər təqsirləndirilən şəxslərə təzyiq göstərilməyib: “Mən öz adımdan demək istəyirəm ki, burada bizə qarşı heç bir təzyiq olmayıb. Bizimlə hörmətlə davranırlar... Bizim həqiqəti demək imkanımız, cəsarətimiz var. Həqiqət sərhəd tanımır. Burada saxlanma yerimiz də çox yaxşıdır”.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin sədri Fərid Şəfiyev bu məsələ ilə bağlı şərhində deyir: “Bu məhkəmənin bir neçə əsas məqamları var. Birincisi, məhkəmə ədalət baxımından önəmlidir. Azərbaycanın ərazilərinin bir hissəsi işğal altında olub. Həmin vaxtlar soyqırımı, etnik təmizləmə həyata keçirilib, dağıntılar törədilib. Bu cinayətlərə görə də konkret şəxslərə qarşı ittiham irəli sürülüb. İttihamda siyasi maddə yoxdur. Törədilən cinayətlərə görə, Cinayət Məcəlləsi çərçivəsində dəqiq maddələr var. Əsas məqsəd ədalətin bərpa olunması, təqsirləndirilən şəxslərin cinayətlərinin məhkəmə yolu ilə sübut edilməsidir. Bunlar milli hüquq çərçivəsində olan elementdir.

İkincisi, böyük cinayətlər törədildikdə iki təcrübə var: beynəlxalq məhkəmələr, tribunallar və milli qanunvericilik çərçivəsində məhkəmə. Biz ikinci yolu seçdik və kifayət qədər də sübutlarımız var.

Qeyd edim ki, üçüncü məqam çox vacibdir. Bu, Ermənistan dövlətinin məsuliyyəti ilə bağlıdır. İrəvan Birinci Qarabağ müharibəsi və ondan sonrakı dövrdə törədilən cinayətlərə görə məsuliyyət daşıyır. Avropa İnsan Hüquqları Məhkəməsi 2015-ci il iyunun 16-da "Çıraqov və başqaları Ermənistana qarşı" işi ilə bağlı qəbul etdiyi qərarında Ermənistanın işğal edilmiş Dağlıq Qarabağ və ətraf rayonlarda "effektiv nəzarətə" malik olduğunu vurğulayıb.

Şəfiyev daha sonra bildirdi ki, Ermənistanın Avropa İnsan Haqları Məhkəməsində dindirilməsi, ilk növbədə, işğalçılıq faktının bir daha təsdiqi deməkdi. “Avropa Məhkəməsinin qərarında nəinki Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi, Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasətinin aparılması göstərilib, həmçinin mövcud vəziyyəti qoruyub saxlamasına görə Ermənistanın cavabdeh olması müəyyən edilib. Münaqişədə yalnız iki tərəfin –Azərbaycan və Ermənistanın olması təsdiq edilib. Törədilən cinayətlərə görə də bu ölkələr məsuliyyət daşıyır.

İkinci Qarabağ müharibəsi zamanı da düşmən tərəfi bir sıra cinayətlər törədib. Gəncə, Bərdə, Tərtərdə dinc insanlar Ermənistan tərəfindən raket atəşinə tutulub, yüzlərlə mülki şəxs – qadınlar, qocalar, uşaqlar bu cinayətin qurbanı olublar”. Məsələn, Gəncə şəhərinə raket zərbələri endirməsi nəticəsində 26 dinc sakin həyatını itirib, azı 140 nəfər yaralanıb, 3 mindən çox obyektə isə ziyan dəyib. Bərdə rayonunun Qarayusifli kəndinə, sonra Bərdə şəhərinə olan raket hücumları nəticəsində 26-sı qadın, 72-si kişi, 14-ü azyaşlı olmaqla 112 nəfər xəsarət alıb, 29 nəfər isə həlak. Tərtərə edilən raket zərbələri nəticəsində 16 mülki şəxs həlak olub, 63 nəfər yaralanıb. Bu cinayətlər Ermənistan dövlətinin siyasi, hərbi, maddi və digər dəstəyi, Ermənistanın siyasi-hərbi rəhbərliyinin verdiyi göstəriş və təlimatları nəticəsində törədilib.

Onun sözlərinə görə, A. Harutyunyan və digər təqsirli şəxslər ifadələrində əmrin Ermənistanın siyasi-hərbi rəhbərliyi tərəfindən verildiyini təsdiqləyiblər: “Cinayət işində olan sübutlar tarixi faktlara əsaslanmaqla göstərir ki, törədilmiş cinayətlər ayrı-ayrılıqda təsadüfi hadisələr olmayıb, onlar ən yüksək səviyyədə mütəşəkkil qaydada planlaşdırılaraq qəddarlıqla və amansızlıqla törədilib”.

Qeyd edək ki, onlar Azərbaycan dövlətinə və xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən soyqırımı, əhalini məcburi köçürmə, təqib, işgəncə, hərbi soyğunçuluq, digər qanunsuz əməllərdə təqsirləndirilirlər.

Məhkəmə prosesi şəffaf gedir. Hər bir şəxs məhkəmədə iştirak edib təqsirləndirilən şəxslərin ifadələrinə qulaq asa bilər. Ortada konkret cinayətlər var. İnanırıq ki, bu cinayətlər məhkəmə prosesində sübut olunacaq. Bir daha göstərəcək ki, müharibə cinayətkarları üçün təhlükəsiz sığınacaq, məkan yoxdur və beynəlxalq münasibətlər güc və zorakılıqla deyil, hüquq və qanunla nizamlanmalıdır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Replika

**“Politico” qaranlıq otaqda qara pişik axtarışındadır. Buna uyğun Azərbaycan atalar sözü var: “Yalançını evinə qədər qovmaq lazımdır”.**

Bu kəlamı keçən ilin noyabrında ermənipərəst nəşrin diqqətinə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev “X” sosial platformasında çatdırmışdı. O zaman “Politico” Azərbaycanın, guya, Rusiyadan 141,6 milyon kubmetr qaz idxal etdiyi barəsına verdiyi hərtərəfli “informasiya dəstəyi” idi. Nəşr yazırdı ki, Bakı dünyanın hər tərəfindən gələcək on minlərlə qonağı qəbul etmək iqtidarında deyil. Guya, Bakının mehmanxanalarında o qədər qonağı yerləşdirmək üçün yer yoxdur. Bunun ardınca daha bir ağ yalan

# “Cib” medialarının çöküşü başlandı




də feyk-xəbər dərc etmişdi. Sonra üzə çıxdı ki, qeyd olunan məsələ idxal deyil, mübadilə əməliyyatıdır. Yəni qonşu dövlətlər arasında belə mövsümi mübadilələr baş verir və bu, normal sayılır.

Özünün anti–Azərbaycan çıxışları ilə tanınan, mübadilə və idxal arasında fərq qoymağı “unudan” “Politico”nun redaksiyasında hazırda ağlaşmadır. Qəzet layiq olduğu sonluğun acısını yaşamaqdadır. Buna səbəb İlon Maskın rəhbərlik etdiyi Hökumətin Effektivliyi Departamentinin “Politico” və USAID tərəfindən maliyyələşdirilən digər KİV-lərin maliyyələşdirilməsinin dayandırılması ilə bağlı qərarıdır. Bu barədə Ağ evin mətbuat katibi Karolin Levitt açıqlama verib. Bir neçə gün əvvəl Ağ ev rəsmisi “Politico” qəzetinin USAID-dən milyonlarla dollar qrant aldığını jurnalistlərin diqqətinə çatdırmışdı.

Trampın komandası “Politico”nu ona qarşı qərəzli olmaqda və 2020-ci il seçki kampaniyası zamanı ona qarşı irəli sürülən ittihamlara qarşı Hunter Baydeni müdafiə etməkdə ittiham edib. O zaman “Politico” Hunterə qarşı ittihamları “Rusiyanın dezinformasiyası” adlandırmışdı. İndi üzə çıxır ki, bu “cib” mediası Baydenin seçkiqabağı qanunsuzluqlarını ört-basdır etməyə məcbur edilib. Əlbəttə ki, böyük həcmdə “qonorar”ın müqabilində.

* * *

USAID-in çirkli pulları ilə “cib” mediasına çevrilən “Politico”nun anti–Azərbaycan fəaliyyəti barədə yazmışdıq. Bu üzdəniraq nəşrin bu yöndə ən “yaddaqalan” çıxışı BMT-nin iqlim dəyişikliyi ilə bağlı ən mötəbər beynəlxalq tədbiri ərəfəsində başda ermənipərəst kollektiv Qərb olmaqla, bədxahların ölkəmizə qarşı informasiya kampaniüfürürdü ki, əgər BMT mövcud reallıqdan xəbərdar olsaydı, bu halda COP29-un Azərbaycan paytaxtında keçirilməsinə razılıq verməzdi.

“Politico”nun Azərbaycanın ünvanına yağdırdığı uydurma ittihamlardan birini də yada salaq. COP29-a bir neçə gün qalmış Donald Trampın prezident seçiləcəyi təqdirdə Vaşinqtonun Bakıya rəsmi nümayəndə heyətini göndərməyəcəyi versiyasını tirajlayan nəşr bunun səbəbi kimi Trampın iqlim dəyişikliyi mövzusuna maraq göstərmədiyini, hətta ABŞ-ı Fransa Sazişindən çıxarmaq barədə qərar verəcəyi ehtimalını yazmışdı. Axırı necə oldu? Oğurluqla qədim peşə nümayəndələrinin aqibəti necə olursa, “Politico” və onun kimi satqın media subyektlərinin də son aqibəti elə oldu.

“Dezinformasiya ilə Mübarizə Təlimatı”. USAID tərəfindən bu adda hazırlanan təlimat barədə indi ABŞ Dövlət Departamenti bu qeydləri diqqətə çatdırıb: “Bu, mahiyyət etibarilə, dünyanın “müstəqil” və sosial media platformaları arasından saysız-hesabsız qrant yeyənlər üçün ictimai rəyi manipulyasiya etməkdən ötrü hazırlanmış təlimatdır”. Daha sonra qeyd olunur ki, həmin təlimatından “strateji susqunluq” kimi fəal şəkildə tətbiq olunan “saxta reallıq qurma” metodunu mənimsəmək olar.

İndi “yalançını evinə kimi qovmaqda” qətiyyətli görünən Donald Tramp Administrasiyası USAID-in maliyyələşdirdiyi “cib” medialarını – haypərəst nəşrləri layiq olduqları cəzaya məhkum etdi. Bundan sonra “qaranlıq otaqda qara pişiyi tapmaq” onların borcudur...

***İ.HƏSƏNQALA***
***XQ***

# Qarşılıqlı hörmət və dürüstlük

(əvvəli 1-ci səhifədə)

## Azərbaycan hər zaman səmimi olub

Rus pravoslav kilsəsinin fəaliyyəti ölkəmizdə həmişə dəstəklənib və dəstəklənir. Bu, dini mənsubiyyətindən asılı olmayaraq, əhalinin müxtəlif qruplarına olan qayğımızı bir daha nümayiş etdirir. Məsələn, 2025-ci il yanvarın 15-də Prezident İlham Əliyev Azərbaycanda dini qurumlara maliyyə yardımının göstərilməsi haqqında sərəncam imzalayıb. Bu sərəncam çərçivəsində Rus pravoslav kilsəsinin Bakı və Azərbaycan yeparxiyasına üç yüz əlli min manat vəsait ayrılıb. Eləcə də ölkəmizdə rus dilinin qorunub saxlanılması və inkişafı üçün hər cür şərait yaradılıb. Yəni Azərbaycan hakimiyyəti irqindən, dilindən və dinindən asılı olmayaraq, ərazimizdə yaşayan bütün insanlara öz vətəndaşı kimi daim qayğı ilə yanaşıb və bu zaman tolerantlığı əsas götürüb.

Bəs, bunun qarşılığında Şimal qonşumuz bizimlə necə davranıb? Bu barədə deməyə sözümüz çoxdur, amma qısa xatırlatmalarla kifayətlənəcəyik. Birinci Qarabağ müharibəsində Ermənistana bağışlanan milyard dollarlıq silahları, düşmən tərəfdən döyüşən pskovlu desantları, eləcə də İkinci Qarabağ savaşından sonra ərazimizdə müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının separatçılara dəstəyini necə unuda bilərik? İndi isə Qroznı üzərində sərnişin təyyarəmizin vurulması və Bakıda şübhəli fəaliyyətlə məşğul olan "Rus evi" ətrafında baş verənlər məyyən qənaətlərə gəlməyimizə əsaslar verir. 38 sərnişinin həlak olması ilə nəticələnən məlum təyyarə qəzasının başvermə səbəblərinə, bu faciədə günahkarların məsuliyyət dərəcəsinə, eləcə də digər nüanslara hələ tam aydınlıq gətirilmədiyindən oxucuların diqqətini ikinci məsələyə yönəltməyi doğru saydıq.




## Maksim Qorkidən Yevgeni Primakova qədər

Əvvəlcə "Rus evləri"nin maraqlı tarixçəsinə nəzər yetirməyimiz yerinə düşər. "Rus evi" "Rossotrudnichestvo"nun xarici ölkələrdəki nümayəndəliklərinin qeyri-rəsmi adıdır. Qurumun rəsmi səhifəsində yazılanlara görə, onun əsas missiyası dünyada Rusiya elm və mədəniyyətini yaymaq və onun humanitar təsirini gücləndirməkdir. Hazırda bu təşkilat 87 xarici nümayəndəliklə dünyanın 71 ölkəsində təmsil olunur. "Rossotrudniçestvo"nun sələfi 1925-ci ildə yaradılmış Xarici Ölkələrlə Mədəni Əlaqələr üzrə Ümumittifaq Cəmiyyəti (XÖMƏÜC) sayılır. Sonralar onun varislərinin əsas vəzifəsi xaricdə Sovet İttifaqının maraqlarına xidmət etmək olub. Təşkilatın birinci lideri proletar yazıçısı Maksim Qorkidir. 1958-ci ildə XÖMƏÜC-nin əsasında Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr üzrə Sovet Cəmiyyətləri İttifaqı (XÖDMSCİ) yaradılıb. SSRİ dağılana qədər onun rəhbəri kosmonavt Valentina Tereşkova idi.

Postsovet dövründə "Rossotrudniçestvo" beynəlxalq humanitar əməkdaşlıq sahəsində Rusiyanın dövlət siyasətinin həyata keçirilməsi ilə yanaşı, "xaricdə müasir Rusiyanın obyektiv ideyası"nı formalaşdırılmasına yardım edib. Bununla belə, təşkilatın faktiki fəaliyyəti bəzən bəyan etdiyi məqsədlərdən kəskin şəkildə fərqlənib. Bəzi ekspertlərin fikrincə, "Rus evləri" humanitar təşkilat adı altında Rusiya xüsusi xidmət orqanları ilə bağlı fəaliyyətlər həyata keçirirlər. Yəqin elə bu səbəbdən son 10 ildə Avropanın 6 ölkəsində – Rumıniya, Sloveniya, Slovakiya, Xorvatiya, Makedoniya və Monteneqroda "Rus ev"lərinin fəaliyyətinə qadağa qoyuldu. Bu faktı 2023-cü ildə təşkilatın rəhbəri Yevgeni Primakov özü etiraf edib.

Konkret misal: Danimarkanın "İnformasiya" qəzeti "Rossotrudniçestvo" adı altında bu ölkədə DTK zabitlərinin adlarını açıqlayıb: "Danimarkada elm və mədəniyyət mərkəzi kimi tanınan "Rus evi" uzun illər Rusiya kəşfiyyatının pərdəsi olub. Jurnalistlər orada keçirilən tədbirlərdə çəkilmiş foto və video materialları araşdırarkən qovulmuş casusların bəzilərini aşkar ediblər".

Necə deyərlər: Görünən dağa nə bələdçi?

## "Ev"in altından boylanan gizlinlər

İndi də gələk "Bakıdakı "Rus evi"nin üzərinə. Daha doğrusu, Yevgeni Primakovun bu "evi"nin anti-Azərbaycan fəaliyyəti ilə məşğul olmasına. Bunu, sadəcə, bir neçə nümunə əsasında diqqətə çatdıracağıq. 2021-ci il noyabrın 11-də "Rossotrudniçestvo"nun Moskva ofisində "Donbas uşaqları Qarabağ uşaqlarına" adlı sərgi keçirilib. Tədbirin press-relizindən bir parça: "Sərgidə döyüşlər zamanı həlak olan uşaqların ruhunu yad etdilər və sağ qalanlara necə kömək etmək barədə danışdılar. Sərginin məqsədi Donbas və Dağlıq Qarabağdan olan uşaqları dəstəkləmək, dünya ictimaiyyətinin diqqətini döyüş zonalarında uşaqların təhlükəsizliyinin təmin edilməsi probleminə cəlb etməkdir. Sərgi daha çox böyüklərin məsuliyyətindən bəhs edir".

Yəni tədbir dövlət səviyyəsində təşkil olunub və bundan məqsəd coğrafi və etnik baxımdan uzaq iki münaqişə bölgəsini "birləşdirmək" olub. O zaman "Rossotrud-




niçestvo"nun Donbas siyasətini Azərbaycanda tətbiq etmək cəhdini Bakı məharətlə dəf etdi. 2022-ci il martın 1-də Ermənistan Elmlər Akademiyasında İrəvandakı "Rus evi" tərəfindən hazırlanmış və üzərində Rusiya–İran və Rusiya–Türkiyə müharibələrinin tarixi irsinin abidələrinin qeyd olunduğu multimedia interaktiv xəritəsinin təqdimatı keçirilib. Yenə həmin Primakovun təşəbbüsü və iştirakı ilə.

İndi bütün bunlara əsaslanaraq desək ki, Rusiya XİN-in struktur bölməsinə çevrilmiş "Rossotrudniçestvo"nun aşkar görünən anti–Azərbaycan fəaliyyəti Yevgeni Aleksandroviçin ölkəmizə şəxsi münasibətinin təzahür formasıdır, orada yəqin, bizi qınayarlar. Axı, bu münasibəti "şərtləndirən" amillər göz qabağındadır. Yevgeninin babası Primakovun 1990-cı il Qara Yanvar faciəsinə görə Qorbaçov və Yazovla eyni məsuliyyəti daşıdığını Azərbaycanda unutmayıblar. Yeri gəlmişkən, baba Primakovun SSRİ-nin kəşfiyyat xidməti ilə sıx əlaqədə olması, İttifaq dağılana yaxın isə DTK-nın 1-ci Baş İdarəsinin rəisi, sonra Rusiya Xarici Kəşfiyyat Xidmətinin direktoru postlarında çalışması təsadüf deyildi.

## Münasibətləri korlamaq istəyənlər

"Rossotrudniçestvo"nun Bakı bölməsi burada özünü rahat hiss edirdi. Niyə etməsin ki? Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanda təhsilin rus bölməsi olan üç yüzdən çox orta məktəb var. Biz buna etiraz etmirik. Əksinə, bunun multikulturalizmin və tolerantlığın bir təzahürü olduğunu hər zaman vurğulamışıq. Amma... 2001-ci ildə ulu öndər Heydər Əliyevin birbaşa dəstəyi ilə Ümumrusiya Azərbaycanlıları Konqresi (ÜAK) yaradıldı. Fəqət, 2017-ci ildə Rusiya Ədliyyə Nazirliyinin iddiası əsasında Rusiya Ali Məhkəməsinin qərarı ilə onun fəaliyyətinə xitam verildi. Rəsmi səbəb kimi təşkilatın nizamnaməsinin, guya, Rusiya qanunvericiliyinə uyğunsuzluğu göstərildi. Yenidən qeydiyyatdan keçmək üçün çoxsaylı müraciətlərə və cəhdlərə baxmayaraq, ÜAK-ın fəaliyyəti hələ də bərpa olunmayıb. Yəni, ortada Rusiya–Azərbaycan münasibətlərini pozmaq, bu əlaqələri süni şəkildə korlamaq istəyən qüvvələr var. Burada Rusiyanın yazılı və elektron mediasına güclü təsir rıçaqlarına malik erməni oliqarxların adları tez-tez vurğulanır. Bu isə Rusiyanın daxili işidir.

**Milli Məclisinin deputatı, politoloq Rasim Musabəyov hesab edir ki, Azərbaycan da, qarşı tərəf də hər şey barədə məlumatlıdır:** "Sadəcə, Moskvanın



şəraitə adekvat davranmaq əvəzinə, Azərbaycana yuxarıdan-aşağı baxmaq, faktları ört-basdır eləmək, etirafdan boyun qaçırmaq cəhdləri, təbii ki, ikitərəfli münasibətlərə mənfi təsir göstərməyə bilməzdi. Doğrudur, "Rus evi" ətrafında baş verənlər təyyarə qəzası ilə bilavasitə bağlı deyil. Bir müddət əvvəl oxşar problemlə bizim Moskvadakı Ümumrusiya Azərbaycanlıları Konqresi üzləşmişdi. O zaman müxtəlif bəhanələrlə konqresin qeydiyyatı ləğv edilmiş, Bakının rəsmi müraciətlərinə müsbət cavab verilməmişdi. Bunun müqabilində Azərbaycan da həmin "Rus evi"ni qeydiyyata almadı. İntəhası, onun fəaliyyətinə maneçilik törədilmir, göz yumulurdu.

Müqayisə üçün onu da deyim ki, Moskvadakı Azərbaycan Mədəniyyət Mərkəzinin cəmi iki əməkdaşı var. Amma "Rus evi"ndə 20-dən çox insan çalışır və onlar müxtəlif fəaliyyətlə məşğul olurlar. Bu isə Azərbaycanın xüsusi xidmət orqanlarında müəyyən şübhələrin yaranmasına rəvac verdi. Azərbaycanda Rus Dram Teatrı, rusdilli media, telekanal var, 300-dən çox orta məktəbdə rus dili tədris olunur. O cümlədən Rusiyanın bir çox universitetlərinin filialları, özümüzün Slavyan Universitetmiz fəaliyyət göstərir. Yəni, burada rus mədəniyyətini təmsil edəcək hansısa evə, mərkəzə ehtiyac duyulmur. Ona görə Azərbaycan hökumətinin "Rus evi"nin fəaliyyətini dayandırması barədə qərarı tamamilə doğrudur. Əgər rəsmi Bakı milyardlarla büdcəyə malik USAID-in fəaliyyətini qapadırsa, "Rus evi" də bu qəbildəndir.

Amma onu da deməliyəm ki, Azərbaycan Rusiya ilə münasibətlərini süni şəkildə korlamaqda maraqlı deyil. Əksinə, Rusiyada ölkəmizlə münasibətlərin normal məcrada davam etməsinə marağı olan dairələr mövcuddur. Onlar Azərbaycanla enerji daşıyıcıları sahəsində əməkdaşlığa ciddi əhəmiyyət verirlər. Bu əməkdaşlıq qarşılıqlı hörmət əsasında qurulmalıdır. Ümid edirəm ki, Kreml rəsmiləri baş verən son olayları götür-qoy edəcək və Azərbaycanla ikitərəfli münasibətlərə dürüst, obyektiv yanaşacaqlar".

## Bu, "emosional" qərar deyil

Azərbaycan Xarici İşlər Nazirliyi Rusiyaya nota göndərərək onu Bakıda "Rus evi"nin hüquqi qeydiyyatı olmadığına görə fəaliyyətini dayandırmağa çağırıb. **"Rossotrudniçestvo"nun rəhbəri Yevgeni Primakov baş verənləri AZAL aviaşirkətinin təyyarəsinin qəzaya uğraması və bu faciə ilə bağlı yaranmış "emosiya" ilə əlaqələndirib.** O, "Rossiya 24" tele-



kanalının efirində bildirib ki, Azərbaycan tərəfi Rusiya Xarici İşlər Nazirliyinə "Rus evi"nin yerli qanunvericiliyə əsasən hüquqi şəxs kimi qeydiyyata alınmasının zəruriliyini bildirib: "Rusiyanın Azərbaycandakı səfirliyi, nümayəndəliyimiz və Xarici İşlər Nazirliyi bütün bu illər ərzində dəfələrlə Azərbaycan Ədliyyə Nazirliyinə və Xarici İşlər Nazirliyinə qeydiyyatdan keçməyə kömək xahişi ilə müraciət edib. Biz hər zaman buna hazır idik, amma zənglərimiz cavabsız qaldı".

Yuxarıda Y.Primakovun "emosiyaya" bağlamağa çalışdığı Azərbaycan XİN-in notasını əsaslandıran kifayət qədər fakt və arqument sadaladıq.

Rusiya Dövlət Dumasının MDB işləri üzrə komitəsinin sədrinin birinci müavini Konstantin Zatulin "RTVI" telekanalına müsahibəsində Azərbaycanın diplomatik davranışını "indi, bu, onlar üçün çox faydalıdır" şəklində izah edib. Onun sözlərinə görə, Azərbaycan qanunvericiliyində Rusiya informasiya və mədəniyyət mərkəzi olan "Rus evi"nin yerli hüquqi şəxs kimi qeydiyyatdan keçməsi üçün normativ baza yoxdur: "Azərbaycan hakimiyyətinin real siyasəti tamam başqadır. Onlar Türkiyənin müttəfiqidir və Xəzər dənizi, Mərkəzi Asiya və Qafqazda öz maraqları ilə yanaşı, Türkiyənin maraqlarını da irəli sürürlər".

Növbəti dəfə özünün zəhərli və avantürist anti-Azərbaycan ritorikasını işə salan Zatulin iki ölkə arasında münasibətləri korlamağa çalışan həmin qüvvələrin başında duranlardandır. Cidanı çuvalda gizlətməyə çalışan zatulinlər Rusiya–Azərbaycan münasibətlərinə xələl gətirməyə qadir deyillər. Hazırda başının üzərini seyrək duman bürümüş münasibətlərin bu sınaqdan da üzüağ çıxacağına, keçmişdə baş verənləri elə keçmişdə buraxaraq, yola birgə davam edəcəklərinə inam böyükdür.

*İmran BƏDİRXANLI*
*XQ*

# Daxili işlər nazirinin Qusarda vətəndaş qəbulu və sıra baxışı





**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov fevral ayının 6-da və 7-də Qusar Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Qusar rayonundakı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Qusar Rayon Polis Şöbəsində Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarından qəbula gələn 335 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Daxili işlər naziri, general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Vətən müharibəsinin 34 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 263 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# İtkinlərin taleyi ilə bağlı fikir mübadiləsi

**Fevralın 7-də Azərbaycan–Ermənistan dövlət sərhədində Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Ermənistan Respublikası Əsir düşmüş, saxlanılmış və itkin (yeri məlum olmayan) şəxslər üzrə idarələrarası komissiyasının nümayəndələri arasında görüş keçirilib.**

Komissiyadan bildiriblər ki, görüşdə itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsinə dair fikir mübadiləsi aparılıb və komissiyalar arasında ikitərəfli əsasda müzakirələrin davam etdirilməsi barədə razılıq əldə olunub.

*XQ*




# Azərbaycan–Slovakiya konsulluq əməkdaşlığı



**Bakı şəhərində Azərbaycanla Slovakiya arasında ilk konsulluq məsləhətləşmələri keçirilib.**

Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Emil Səfərov, Slovakiya nümayəndə heyətinə isə bu ölkənin Xarici və Avropa İşləri Nazirliyinin Konsulluq departamentinin direktoru Martin Barton rəhbərlik edib.

Məsləhətləşmələr zamanı konsulluq sahəsi üzrə iki ölkə arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri, bu sahədə ikitərəfli müqavilə-hüquq bazasının genişləndirilməsi imkanları müzakirə edilib. Bundan əlavə, hər iki ölkənin vətəndaşlarının hüquq və qanuni mənafelərinin qorunması istiqamətində effektiv və çevik konsulluq yardımın göstərilməsi sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərinə toxunulub, Slovakiyanın və Azərbaycanın viza siyasəti barəsində fikir mübadiləsi aparılıb.

Azərbaycan ilə Slovakiya arasında miqrasiya, əmək, sosial müdafiə və digər sahələrdə əməkdaşlığın inkişafı üçün bir sıra təkliflər müzakirə edilib, müvafiq istiqamətlər üzrə əlaqələrin genişləndirilməsi məqsədilə zəruri tədbirlərin görülməsinə dair razılıq ifadə olunub.

*XQ*

# Sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlərdə təqsirləndirilən erməniəsilli şəxslərin məhkəməsi davam etdirilib

**Fevralın 7-də Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesinin baxış iclası davam etdirilib.**



Bakı Məhkəmə Kompleksində yerləşən Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, habelə müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar, habelə Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak ediblər.

Məhkəmə prosesi dövlət ittihamını müdafiə edən prokurorlar tərəfindən cinayət işi üzrə ittiham aktının nəticəvi hissəsinin elanı ilə davam etdirilib.

Dövlət ittihamçıları Ermənistan dövlətinin, onun struktur qurumlarının yüksəkvəzifəli şəxslərinin rəhbərliyi, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi, bilavasitə iştirakı, eləcə də ciddi nəzarəti altında, habelə Ermənistanın hərbi qüvvələri və qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə Azərbaycana hərbi təcavüz etmək məqsədilə Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə yaradılmış cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibə nəticəsində Azərbaycan Respublikasının suveren ərazilərinin işğal olunması ilə bağlı cinayət əməlləri üzrə epizodları elan edib.



Dövlət ittihamçısı Təranə Məmmədova İttiham aktına əsasən elan edib ki, Ermənistan silahlı qüvvələrinin və qanunsuz silahlı birləşmələrinin apardığı təcavüzkar müharibə nəticəsində Azərbaycanın suveren əraziləri olan 12 şəhər, 18 qəsəbə, 895 kənd, ümumilikdə 925 yaşayış məntəqəsi işğal olunub və uzun illər ərzində işğal altında saxlanılıb, bununla da xüsusi və dövlət mülkiyyətində olmuş ümumilikdə 37 min 168 əmlak üzrə 19 milyard manatdan artıq maddi ziyan vurulub.

Dövlət ittihamçısı Fuad Musayev bildirib ki, Xankəndi şəhəri və onun Kərkicahan qəsəbəsinin işğal edilməsi nəticəsində 2944 dinc sakin didərgin salınıb, həmin şəxslərin xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 4579 əmlak üzrə 636 milyon manatdan artıq maddi ziyan vurulub.

Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Kərki kəndinin işğalı (hazırda Sədərək rayonunun Kərki kəndi) nəticəsində 461 dinc sakin didərgin salınıb, xüsusi mülkiyyətdə və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 54 əmlak üzrə 7 milyon manatdan artıq maddi ziyan vurulub.

Qazax rayonunun 7 kəndinin – Bağanis-Ayrım, Aşağı Əskipara, Xeyrimli, Barxudarlı, Sofulu, Qızılhacılı, Yuxarı Əskiparanın işğalı nəticəsində 3159 dinc sakin didərgin salınıb, xüsusi və dövlət mülkiyyətində olan ümumilikdə 896 əmlak üzrə 137 milyon manatdan artıq maddi ziyan vurulub.

Xocalı şəhəri və Əsgəran qəsəbəsinin də daxil olduğu, ümumilikdə 50 kənddən ibarət Xocalı rayonunun işğalı nəticəsində 7161 dinc sakinin xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 1067 əmlak üzrə 103 milyon manatdan artıq maddi ziyan vurulub.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev bildirib ki, Şuşa şəhəri, Turşsu qəsəbəsi və 37 kənddən ibarət Şuşa rayonunun işğal edilməsi nəticəsində 16 min 299 dinc sakin didərgin salınıb, həmin şəxslərin xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 2769 əmlak üzrə 391 milyon manatdan artıq maddi ziyan vurulub.

Xocavənd şəhəri, 2 qəsəbə (Qırmızı Bazar və Hadrut qəsəbələri) və 80 kənddən ibarət olan Xocavənd rayonunun işğalı nəticəsində 7451 azərbaycanlı sakini məcburi qaydada evlərindən didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 2607 əmlak üzrə cəmi 340 milyon manatdan artıq maddi ziyan vurulub.

Laçın şəhəri, Qayğı qəsəbəsi və 124 kənddən ibarət olan Laçın rayonunun işğal olunması nəticəsində 57 min 47 sakin məcburi qaydada evlərindən didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 15 min 459 əmlak üzrə cəmi 2,7 milyard manatdan artıq maddi ziyan vurulub.

Kəlbəcər şəhəri, İstisu qəsəbəsi və 147 kənddən ibarət Kəlbəcər rayonunun işğal olunması nəticəsində 48 min 847 dinc sakin didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 17 min 489 əmlak üzrə 2,2 milyard manatdan artıq maddi ziyan vurulub.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli elan edib ki, Tərtər rayonunun bir sıra kənd və yaşayış məntəqələrinin işğal olunması nəticəsində 899 dinc sakin didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 1127 əmlak üzrə 155 milyon manatdan artıq maddi ziyan vurulub.



Ağdam rayonunun böyük hissəsinin işğalı nəticəsində 100 min 574 dinc sakin didərgin salınmış, həmin şəxslərin xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 31 min 736 əmlak üzrə 3,7 milyard manatdan artıq maddi ziyan vurulub.

Füzuli rayonunun böyük hissəsinin işğal edilməsi nəticəsində 83 min 544 dinc sakin didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 22 min 635 əmlak üzrə 3,4 milyard manatdan artıq maddi ziyan vurulub.

Cəbrayıl şəhəri, Xələfli, Xudafərin, Qumlaq, Mahmudlu qəsəbələri və 92 kənddən ibarət Cəbrayıl rayonunun işğal edilməsi nəticəsində 52 min 141 dinc sakin didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 15 min 206 əmlak üzrə 2,1 milyard manatdan artıq maddi ziyan vurulub.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov qeyd edib ki, Zəngilan şəhəri, 5 qəsəbə və 79 kənddən ibarət Zəngilan rayonunun işğalı nəticəsində 32 min 775 dinc sakin didərgin salınmış xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 9679 əmlak üzrə 1,3 milyard manatdan artıq maddi ziyan vurulub.

Qubadlı şəhəri və 93 kənddən ibarət Qubadlı rayonunun işğalı nəticəsində 29 min 539 dinc sakin didərgin salınıb, onların xüsusi mülkiyyətində və Azərbaycan Respublikasının dövlət mülkiyyətində olmuş ümumilikdə 10 min 159 əmlak üzrə 1,8 milyard manatdan artıq maddi ziyan vurulub.

Bundan başqa, ittiham aktında qeyd edilib ki, təcavüzkar müharibə nəticəsində ümumilikdə Azərbaycan Respublikasının mədəni sərvətinə aid olmaqla dəymiş zərərin qiymətləndirilməsi mümkün olan ən azı 697 tarix və mədəniyyət abidəsi hücum obyektinə çevrilməklə, hərbi əməliyyatların dəstəklənməsi üçün istifadə edilməklə, qəsdən böyük həcmdə yandırılmaqla, artilleriya qurğularından atəşlər açıb partladılmaqla və sair fiziki üsullarla qismən və tamamilə dağıdılmaqla, eləcə də oğurluq, soyğunçuluq, vandalizm aktları törədilməklə Azərbaycan Respublikasına və Azərbaycan xalqına 906 milyon manatdan artıq maddi ziyan vurulub.

Eyni zamanda, Azərbaycan Respublikasının suveren ərazilərinin işğal olunması nəticəsində didərgin salınmış dinc sakinlərin sosial təminatı və maddi-məişət şəraitinin təmin edilməsinə sərf edilmiş vəsaitlər nəzərə alınmaqla Azərbaycan dövlətinə ümumilikdə 8,8 milyard manatdan artıq maddi ziyan vurulub.

Daha sonra dövlət ittihamçısı Vüsal Abdullayev təcavüzkar müharibə gedişində Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı, habelə soyqırımı əlamətləri olmadan əhalinin bütövlükdə və ya qismən məhv edilməsi faktlarını elan etməyə başlayıb.

Bildirilib ki, Xocalı rayonunun ərazisində yaşayan azərbaycanlı əhalini kütləvi şəkildə milli-etnik mənsubiyyətinə görə bir qrup kimi məhv etmək niyyəti ilə onları öldürmək, sağlamlığına ağır və əqli qabiliyyətinə ciddi zərər vurmaq məqsədi ilə Xocalı rayonuna və ətraf yaşayış məntəqələrinə silahlı basqınlar edilib, azərbaycanlıları baş dərisinin soyulması, qulaq, burun, cinsiyyət üzvlərinin kəsilməsi, gözlərinin çıxarılması, diri-diri yandırılması, cinayətkar fəaliyyətinin qarşısının alınması üçün zərərsizləşdirilmiş erməniəsilli şəxslərin qəbirləri üzərində başlarının qurbanlıq kimi kəsilməsi, qadına, qocaya və uşağa da fərq qoymadan qəddarlıqla müxtəlif işgəncələr verilməsi ilə ümumilikdə 613 şəxsin qəsdən öldürülüb məhv edilməklə Xocalı soyqırımı törədilib.

Məhkəmə fevralın 11-də davam etdiriləcək.

Xatırladaq ki, sözügedən cinayət işi üzrə 15 nəfər – Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beglaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiriyə qarşı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

**AZƏRTAC**

# XİN 2025-ci il üzrə prioritetlərini müzakirə edib



**Fevralın 7-də Xarici İşlər Nazirliyində nazir Ceyhun Bayramovun rəhbərliyi ilə geniştərkibli kollegiya iclası keçirilib.**

İclasda Xarici İşlər Nazirliyinin rəhbər heyəti və struktur bölmə rəhbərləri iştirak ediblər.

Kollegiyanın iclası zamanı Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi xarici siyasət xəttinə uyğun olaraq 2024-cü il üzrə Xarici İşlər Nazirliyi tərəfindən görülən işlər, 2025-ci il üzrə əsas prioritetlər, ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, iqtisadi, iqlim və humanitar diplomatiya, beynəlxalq yardım səyləri, postmünaqişə dövründə diplomatik fəaliyyət, xaricdə Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının qorunması üzrə işlər, eyni zamanda, Xarici İşlər Nazirliyinin fəaliyyətinin təşkili məsələləri müzakirə olunub, müvafiq tapşırıqlar verilib.

**XQ**

# Azərbaycandan Ukraynaya növbəti humanitar yardım göndərilib

**Fevralın 7-də Azərbaycandan Ukraynaya növbəti humanitar yardım göndərilib. Elektrik avadanlıqlarından ibarət yük Sumqayıt Texnologiyalar Parkının ərazisindən yola salınıb. Qeyd edək ki, bu məqsədlə Prezident İlham Əliyevin 2025-ci il 5 fevral tarixli Sərəncamına əsasən, Energetika Nazirliyinə 1 milyon ABŞ dollarının manat ekvivalentində vəsait ayrılıb.**

Energetika Nazirliyinin şöbə müdiri Ələsgər Həsənov jurnalistlərə açıqlamasında bildirib ki, bu vəsait çərçivəsində göndərilən ilkin humanitar yardım yükünə elektrik kabelləri, naqillər və transformatorlar daxildir. Ukrayna tərəfindən daxil olmuş müraciətə əsasən, qeyd edilən təchizat müharibədən zərər çəkmiş ərazilərin elektrik enerjisi ilə dayanıqlı təchizatının bərpası üçün nəzərdə tutulur.

Ukraynanın Azərbaycandakı səfirliyinin iqtisadi məsələlər üzrə müşaviri Oleq Klınçenko qeyd edib ki, Ukrayna xalqı Azərbaycana və Prezident İlham Əliyevə növbəti humanitar yardıma görə minnətdarlığını bildirir: “Bu humanitar yardım həqiqətən də ukraynalıların həyatını xilas edir. Bundan başqa, bu yaxınlarda Davos Forumunda Prezident Volodimir Zelenski və Prezident İlham Əliyev arasında görüş oldu. Bu görüş dövlətlərarası strateji əməkdaşlığımızın və münasibətlərimizin yüksək səviyyədə olduğunu göstərir”.




Xatırladaq ki, mövcud vəziyyətlə əlaqədar Azərbaycan tərəfindən Ukraynaya göstərilmiş yenidənqurma və humanitar məqsədli yardımların ümumi məbləği 40 milyon ABŞ dollarını keçib. 2025-ci ilədək elektrik avadanlıqları qismində 120-yə yaxın transformator və komplekt transformator məntəqəsi, 70-ə yaxın generator, habelə 3,3 milyon metrdən çox kabel və naqil Ukraynaya yola salınıb.

**XQ**

# Azərbaycanda iqtisadi yüksəliş davamlı və sürətlidir



**(əvvəli 1-ci səhifədə)**

Son 10 ildə isə ölkədə ÜDM istehsalı 72 milyard manat və ya 2,3 dəfə artıb. Belə ki, 2015-ci ildə Azərbaycanda ÜDM istehsalının həcmi 54,3 milyard manat təşkil edib. ÜDM-in 35,9 faizi sənaye, 10,7 faizi ticarət, 7 faizi nəqliyyat, 6,7 faizi tikinti, 5,7 faizi kənd təsərrüfatı, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə sahələrinin, 19,9 faizi digər sahələrin payına düşüb. Məhsula və idxala xalis vergilər ÜDM-in 9,8 faizini təşkil edib. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,3 faiz, qeyri-neft-qaz sektorunda isə 7 faiz artıb.

Azərbaycanın qeyri-neft-qaz sektorunun dinamik inkişafını ifadə edən rəqəmlərin əldə olunması iqtisadiyyatın bütün sahələrində ötən illərdəki artım dinamikasının qorunub saxlanılmasının məntiqi nəticəsidir. Başqa sözlə, belə bir uğur makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində nəzərdə tutulan tədbirlərin ardıcıl həyata keçirilməsi ilə şərtlənir.

Hesabat dövründə ÜDM istehsalının böyük bir hissəsinin sənayenin payına düşməsi isə ölkəmizdə uğurlu sənayeləşmə siyasəti sayəsində mümkün olub. Sənaye parklarının mövcud sahədəki fəaliyyəti, həmin zonalarda yeni sənaye sahələrinin yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü yeni məhsul istehsalının təşkili, bu işə investorların cəlb olunması kimi məsələlər hökumətin daim diqqət mərkəzində saxlanılıb və bu, müsbət göstəricilərlə müşahidə edilib.

Məhz bunun nəticəsidir ki, İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyindəki sənaye zonalarında investisiya portfeli 7,9 milyard manat olan 152 sahibkarlıq subyektinə rezidentlik, 10 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,9 milyard manat investisiya yatırılıb, 84 müəssisə fəaliyyətə başlayıb, 10 min 700-dən çox daimi iş yeri yaradılıb.

Hesabat ilində ölkənin maliyyə vəziyyəti də böyük dərəcədə yaxşılaşıb. Buna isə, ilk növbədə, maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük orqanlarında islahatların davam etdirilməsi, şəffaflığın təmin olunması kimi amillər sayəsində nail olunub.

Qeyd edək ki, yuxarıda diqqətə çatdırılan uğurlu göstəricilərin əldə olunması, ilk növbədə, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı istiqamətində genişmiqyaslı islahatların gerçəkləşdirilməsi fonunda aydın nəzərə çarpır. Ölkə rəhbəri ayrı-ayrı çıxışlarında məhz bu cəhəti qabardaraq qeyd edib ki, Azərbaycanın iqtisadi yüksəlişi bir çox ölkələrin iqtisadi inkişaf templərini üstələyir. Bu məsələdə xüsusi əhəmiyyət daşıyan məqam isə respublikada qeyri-neft sektorunun 7 faiz artmasıdır. Bu isə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan addımların və düşünülən islahatların öz bəhrəsini verdiyini göstərir.

Ölkədə davamlı iqtisadi uğurların qazanılmasının ən mühüm şərtlərindən biri də beynəlxaq təcrübədə özünü doğruldan prinsiplərin müəyyən plan və proqramlar əsasında gerçəkləşdirilməsi ilə bağlıdır. Bu fikrin təsdiqi olaraq deyə bilərik ki, ölkəmizin 2030-cu ilədək milli prioritetlərinə və 2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyasında qarşıya qoyulan vəzifələrə və sağlam prinsiplərə əsaslanmaqla gələcəkdə qeyri-neft ixracında daha yüksək göstəricilər əldə etmək, bununla da dünya iqtisadiyyatında respublikamızın mövqeyini gücləndirmək qarşıya mühüm vəzifə kimi qoyulur.

Respublikada uğurlu iqtisadi göstəricilərin əldə edilməsində dövlətimizin başçısının rəhbərliyi ilə ardıcıl və sistemli surətdə həyata keçirilən sənayenin inkişafına dair Dövlət Proqramı da əhəmiyyətli rol oynayır. Bu proqram ənənəvi sənaye sahələri ilə yanaşı, Azərbaycan iqtisadiyyatı üçün yeni olan kosmik, müdafiə, gəmiqayırma, alternativ enerji və digər sahələrin, həmçinin müasir istehsal infrastrukturuna malik sənaye zonalarının inkişafını sürətləndirir. Belə vəziyyət ölkənin ixrac qabiliyyətinin güclənməsinə, idxalı əvəz edən məhsulların istehsalının artırılmasına da əhəmiyyətli təsir göstərir.

Şübhəsiz ki, bu məsələdə qabaqcıl texnologiyalardan və idarəetmə təcrübəsindən səmərəli yararlanmaq böyük əhəmiyyətə malikdir. Bundan başqa, ölkədə hökm sürən siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici sərmayələr üçün ən cəlbedici dövlətlərdən biri kimi tanıdır.

Qeyri-neft sənayesində məhsul istehsalının artımına iqtisadiyyatın rəqəmsallaşması ilə bağlı layihələrin uğurla reallaşdırılması da müsbət təsir göstərir. Rəqəmsallaşma respublikamızın investisiya cəlbediciliyini şərtləndirən mühüm amillərdən biri olduğu üçün investorlar tərəfindən bu sahəyə aid infrastrukturun qurulması, eləcə də elektron ticarətin inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır. Məhz bunun nəticəsidir ki, Azərbaycanda təhlükəsiz rəqəmsal ödəniş həllərinin genişləndirilməsi, etibarlı logistik şəbəkələrin təkmilləşdirilməsi kimi güclü rəqəmsal infrastruktur yaradılmasına böyük maraq göstərilir və bu sahədə müsbət göstəricilər əldə olunur.

Qeyd edək ki, keçən il rəqəmsal transformasiya, startap ekosisteminin genişləndirilməsi və texnologiya parklarının fəaliyyətində mühüm nəticələr əldə edilib. Dövlət xidmətlərinin rəqəmsallaşdırılması çərçivəsində təqdim olunan yeni xidmətlər vətəndaşlar üçün daha əlçatan olub, "ASAN xidmət" və "e-Gov" platformaları üzərindən həyata keçirilən əməliyyatların sayı rekord səviyyəyə yüksəlib.

**Azərbaycanda Ağıllı Qaz Şəbəkəsinin İdarəetmə Sisteminin tətbiqinə 480 milyon ABŞ dolları həcmində vəsait yönəldiləcək. Bunu SOCAR prezidentinin müşaviri Elçin Ağakişiyev Bakıda keçirilən "IADC Drilling Caspian 2025" qazma konfransında bildirib. O, COP29 çərçivəsində imzalanmış "ağıllı şəbəkə"nin inkişafı ilə bağlı sazişi xatırladaraq deyib ki, SOCAR-ın ən böyük aktivlərindən biri olan "Azəriqaz" qazpaylayıcı şirkəti qaz sızmalarını azaltmaq üçün süni intellektdən istifadə edəcək.**

# Qazpaylayıcı şəbəkə "ağıllı" idarəetməyə keçir

*Bu məqsədlə 480 milyon dollar vəsait xərclənəcək*




Qeyd edək ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində SOCAR ilə "Esyasoft" holdinq və "Presight" şirkətinin birgə müəssisəsi olan "IntelliGrid" arasında "Azəriqaz" İstehsalat Birliyinin bütün xidmət zonasında ən müasir Ağıllı Qaz Şəbəkəsinin İdarəetmə Sisteminin tətbiqinə dair saziş imzalanıb. Sənədə əsasən, qazpaylayıcı şəbəkəyə data analizini, proqnozlaşdırıcı texniki xidməti və real vaxt monitorinqini inteqrasiya etmək üçün "IntelliGrid"in süni intellekt imkanlarından istifadə ediləcək. Bu, qaz istehlakını optimallaşdırmağa, itkiləri minimuma endirməyə və ümumi əməliyyat səmərəliliyini artırmağa imkan verəcək.

# Biznes kreditləri tikintidə canlanma yaradıb

**2024-cü ilin sonuna olan məlumata görə, ölkəmizdə fəaliyyət göstərən banklar tərəfindən tikinti sahəsinə 1 milyard 369 milyon biznes kreditləri verilib. Bu isə əvvəlki ilin sonu ilə müqayisədə 56,5 milyon manat və ya 4,3 faiz çoxdur. Belə ki, 2023-cü ilin sonunda Azərbaycan banklarının tikinti sahəsinə verdiiyi biznes kreditlərinin həcmi 1 milyard 312,5 milyon manat təşkil edib.**



Mərkəzi Bankın məlumatına əsasən, hesabat dövrdünə Azərbaycanda fəaliyyət göstərən bankların biznes kredit portfelinin həcmi 14 milyard 787 milyon manat təşkil edib. Bankların biznes kredit portfeli əvvəlki illə müqayisədə 17,2 faiz və ya 2 milyard 170 milyon manat artıb. 2023-cü ildə isə bankların biznes kredit portfelinin həcmi 12,6 milyard manat olub.

# Bu il AÇG-də 19 quyu qazılacaq

**Ötən il Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri–Çiraq–Günəşli" (AÇG) yataqlar blokunda 19 quyu qazılıb. Bunu jurnalistlərə açıqlamasında BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə quyular üzrə vitse-prezidenti Rassel Morris bildirib. Qeyd olunub ki, ötən il AÇG-də 18 quyunun qazılması planlaşdırılsa da, əlavə daha bir quyuda qazma işlərini bitirmək mümkün olub.**

Bu il də AÇG-də 19 quyunun qazılmasının planlaşdırıldığını diqqətə çatdıran BP rəsmisi deyib ki, il ərzində "Azəri Mərkəzi Şərqi" (ACE) platformasında 5 hasilat quyusu qazılacaq. Onun sözlərinə görə, ötən il ACE platformasından 3 quyu qazılıb və hazırda 4-cü quyunun qazılması aparılır.

BP şirkətinin Xəzərin Azərbaycan sektoruna investisiyaların artırılması imkanlarını nəzərdən keçirdiyini vurğulayan Rassel Morris, həmçinin bildirib ki, təmsil etdiyi qurum Xəzər dənizində layihələri yüksək iş tempi saxlanılmaqla fəal şəkildə inkişaf etdirməyə davam edir. "Hazırda AÇG yataqlar blokundan hasilatın təbii azalması müşahidə olunur, "Şahdəniz"in gücləri isə tam işə salınıb. Biz, həmçinin yeni layihələrə başlamağı planlaşdırırıq ki, bu da Azərbaycanın Xəzər regionuna investisiya imkanlarını genişləndirməyimizə imkan verəcək", – deyə o, bildirib.



# Ölkəmizdə dəniz daşımaları çoxalıb

**Ötən il ölkəmizdə dəniz nəqliyyatı vasitəsilə 2,6 milyard ABŞ dolları dəyərində 2,8 milyon ton yük daşınıb. Bu, 2023-cü ildəki göstəriciyə nisbətən dəyər ifadəsində 722,9 milyon dollar və ya 37,6 faiz həcm ifadəsində isə 205,1 min ton və ya 7,9 çoxdur.**

Dövlət Gömrük Komitəsinin məlumatına görə, hesabat dövründə dəniz nəqliyyat vasitəsilə Azərbaycandan 97,2 milyon dollar dəyərində 95,5 min ton yük ixrac edilib. Bu nəqliyyat növü ilə daşınmış yüklərin dəyəri əvvəlki illə müqayisədə 85,3 milyon dollar və ya 46,7 faiz azalsa da, həcm baxımından 16,6 min ton və ya 21,1 faiz artım qeydə alınıb.

Bununla yanaşı, ötən il dəniz nəqliyyatı vasitəsilə Azərbaycana 2,5 milyard ABŞ dolları dəyərində 2,7 milyon ton yük idxal edilib. Bu isə əvvəlki ilin göstəricisinə nisbətən dəyər ifadəsində 808,2 milyon dollar və ya 46,4 faiz, həcm baxımıdan isə 188,5 min ton və ya 7,5 faiz çoxdur.



# Ötən ay xaricə 44,7 milyon dollarlıq meyvə satılıb

**Cari ilin yanvar ayında Azərbaycan 43 min 261,3 ton meyvə ixrac edib. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə bu sahədə 23,5 faizlik artım qeydə alınıb. Bu barədə XQ-yə Kənd Təsərrüfatı Nazirliyindən məlumat verilib.**



Bildirilib ki, ölkəmizdə meyvə bağların sahəsinin genişlənməsi, ötən illərdə salınmış intensiv bağların bara düşməsi məhsul istehsalının və ixracının artmasında böyük rol oynayıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan ötən ay meyvə ixracından 44 milyon 710,1 min ABŞ dolları gəlir əldə edib. Bu isə 2024-cü ilin eyni dövrünə nisbətən 22,8 faiz çoxdur. Məlumatda qeyd olunur ki, ay ərzində ölkəmizdən xaricə ən çox şişburun xurma, alma, armud, heyva, nar, sitrus meyvələri göndərilib.

# Mərkəzi Bankın valyuta ehtiyatları 11 milyard dollara yüksəlib



**Azərbaycan Mərkəzi Bankının (AMB) məlumatına görə, bu il fevralın 1-nə maliyyə qurumunun sərəncamında olan rəsmi valyuta ehtiyatları 10 milyard 988,5 milyon dollar (ötən ilin müvafiq dövrü ilə müqayisədə 29 milyon dollar çox) təşkil edib.**

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Demokratiya və hüququn əks tərəfində




II MƏQALƏ

## USAID: gizlinlərin pərdəarxası

USAID-in fəaliyyəti o qədər qəlizdir ki, onu təhlil etmək son dərəcə çətin və mürəkkəb prosesdir. Bu qurumun yaradılmasının kökündə dayanan məqamlarda rəsmi ilə qeyri-rəsminin, hüquqi ilə hüquqsuzluğun, şəffaflıqla gizlinliyin nisbəti çox məhdud dairədən kənarda kimsəyə aydın olmamışdır. Belə bir qənaətə indi, USAID-in yaradılmasından 64 il sonra Donald Trampın cəsarəti sayəsində gəlmək mümkün olmuşdur. KİV-də yayılmış informasiyaların məntiqi təhlili nəinki agentliyin gerçək obrazı üzərindən buludları dağıdır, əksinə daha qatı qaranlıqlara baxmağı tələb edir. Hələlik buna informasiya imkanı yoxdur. Lakin bir sıra gizlinlərin də pərdəarxasına ümumi də olsa nəzər salmaq mümkündür.

## Tramp soruşur: Con Kennedini kimlər qətlə yetirmişlər?

ABŞ-ın sabiq prezidenti Con Kennedini 1963-cü il noyabrın 22-də Dallasda qətlə yetirmişlər. Yəni hadisənin üstündən 62 il keçmişdir. Ancaq indiki ABŞ-ın prezidenti sual verir ki, Kennedini kimlərin qətlə yetirdiyinin üstü açılmalıdır. Qəribədir, deyilmi? Dünyanın ən güclü hüquq-mühafizə orqanlarına, kəşfiyyat şəbəkəsinə, məhkəmə və vəkillik sisteminə malik olan Birləşmiş Ştatlar, prezidentlərindən birinin kimlər tərəfindən qətlə yetirldiyini yarım əsrdən çoxdur ki, dəqiq müəyyən edə bilmir.

D.Trampın sualı isə bu versiyanı istisna edir, yəni əslində, onu kimlərin qətlə yetirdiyini gözəl bilirlər. Lakin həqiqəti deməyə cəsarətləri çatmır. Bu nəticəyə C.Kennedinin hansı addımına görə aradan götürüldüyü sualına Trampın müəmmalı sualı fonunda cavab axtarmaqla gəlmək olar.

C.Kennedi USAID-i 1961-ci ildə yaratmışdır. Məqsədi həmin dönəmdə ABŞ-da mövcud olan bir neçə qanuni və ya qanunsuz yardım qurumlarını dövlətin nəzarəti altında vahid strukturda birləşdirərək, gözlənilən qanunsuz varlanmağın qarşısını almaq, dövlətə ola biləcək riskləri neytrallaşdırmaq və xarici yardımları ünvanlı etməkdən ibarət olmuşdur. Buna görə də USAID təsadüfən Dövlət Departamentinin və təhlükəsizlik qurumunun nəzarəti altına verilməmişdir. Hər zaman da onun rəhbərliyinə həmin qurumlardan biri təyin edilmişdir.

Ancaq indi ABŞ rəhbərliyinin USAID-lə məşğul olmağa davam etməsi göstərir ki, C.Kennedinin tədbiri formal olaraq məsələni həll etmişdir – gerçəklikdə oğurluq, qanunsuzluq və terrora dəstək kimi hallar agentlik üçün də xarakterik olmuşdur. Və hətta İlon Maskın USAID-in bioloji silah hazıranlmasına maliyyə dəstəyi verməsi haqda danışması daha qorxunc mənzərəni gün işığına çıxarır. Əslində, D.Tramp və İ.Mask bu məsələdə tək deyillər. Faktlara baxaq.

## Blumun "USAID fırtınası"

Amerikalı jurnalist və politoloq U. Blum keçən əsrin 60-cı illərində ABŞ Dövlət Departamentinin əməkdaşı olmuşdur. Onun fəaliyyəti kompüter texnologiyaları ilə bağlı idi. Arzu edərdi ki, Mərkəzi Kəşfiyyat İdarəsində (MKİ) çalışsın. Lakin Vyetnam müharibəsindən sonra ruhdan düşümüş və 1967-ci ildə Dövlət Departamentindəki işindən ayrılmışdır. Onun fəaliyyətində ən maraqlı dəyişiklik də bundan sonra başlamışdır. 1967-ci ildə "Free Press" nəşrini yaratmışdır. 1969-cu ildə MKİ-ni ciddi tənqid edən məqalə dərc etdirmişdir. 1972-1973-cü illərdə Çilidə jurnalist kimi çalışmışdır.

U.Blum jurnalist araşdırmalarında MKİ-nin başqa dövlətlərin daxili işlərinə qarışmasına və marağına uyğun olmayan tanınmış adamlara qarşı sui-qəsd planlarına çox diqqət yetirmişdir. U.Blum həmin bağlılıqda MKİ-nin Latın Amerikası ölkələrindəki fəaliyyətini də kəskin tənqid etmişdir. O cümlədən USAID-in həmin qitədəki fəaliyyəti təhlil obyekti olmuşdur. Bu araşdırmalar əks-səda doğurmuşdur və sanki USAID haqqında bir "fırtına" təəssüratı yaratmışdır.

U.Blum digər politoloqlar və jurnalist araşdırmaçılarla birgə MKİ və USAID-in Latın Amerikasında on illərdə dövlət çevrilişləri və sui-qəsdlər təşkil etdiyini vurğulamışdır. USAID müxalif kadrlar hazırlamış, onları radikal ideyalarla təmin etmiş, lazım olan texniki dəstəyi vermişlər. Agentlik hətta "yolüstü" bir sıra ölkələrdə güc strukturlarını "sağlamlaşdırır və modernləşdirirmiş". Əslində isə bu işin arxasında xüsusi agentura şəbəkəsi yaratmaq dayanmışdır. Həmin şəbəkə böhranlı situasiyalarda müxalifətə silahlı dəstək verməli və xaos yaratmalı idi. Bu cür əməliyyatlar üçün USAID-in xüsusi şöbəsi mövcuddur – OTİ. 2009-cu ildə ABŞ Konqresi OTİ-nin fəaliyyətinin siyasi və diplomatik xoşa gəlməyən hadisələr yaratdığını vurğulamışdır. Ancaq bu informasiyanın heç bir praktiki nəticəsi olmamışdır. Buna baxmayaraq, qurumun fəaliyyətinin fəsadları özünü göstərməyə başlamışdır. Bir neçə nümunə.

## Boliviya ssenarisi

Boliviyanın vitse-prezidenti A.Q.Liner 2010-cu ildə demişdi ki, bu ölkənin harasında münaqişə varsa, onun altından USAID və yaratdığı QHT-lər çıxır. Boliviyanın prezidenti Evo Morales də dəfələrlə USAID-i ölkənin daxili işlərinə qarışmaqda, xaos və gərginlik yaratmaqla mövcud hakimiyyəti legitimsizləşdirməkdə və son olaraq rejim dəyişikliyi etməyə cəhddə ittiham etmişdir. USAID bunu müxtəlif proqramlar vasitəsilə müxalif siyasi partiyalar, QHT-lər, ayrı-ayrı sosial şəbəkələrin əli ilə etməyə çalışmışdır. Nəhayət, 2013-cü ildə Boliviya rəsmi olaraq USAID-in ölkədəki fəaliyyətini dayandırdı və onu qovdu. Bu hadisəni Latın Amerikasında USAID-ə qarşı mübarizənin rəmzi adlandırırlar.

## Kuba qalmaqalı

Bu, Boliviyaya nisbətən daha mürəkkəb və dolayı həyata keçirilən bir proqram imiş. USAID-in hazırladığı gizli dağıdıcı planı "ZunZuneo" adlandırmışlar. Rəsmi sənədlərdə həmin proqramın Pakistan üçün nəzərdə tutulduğu qeyd olunmuşdur. Onu OTİ-nin hazırladığı bəyan edilmişdir. "ZunZuneo" haqqında qəzetlərdə informasiyalar dərc ediləndən sonra bir sıra konqresmenlər açıq şəkildə belə pozucu planlara USAID-in bulaşmasının çox zərərli olduğunu vurğulamışlar. Lakin 2009-cu ildə Konqresdə bununla əlaqədar aparılan müzakirələrin heç bir əməli nəticəsi olmamışdır.

2014-cü ildə Kuba məsələsi daha da böyümüşdür. Bu dəfə USAID bir qədər də irəli gedərək bir neçə kubalı reperi özləri də bilmədən hökumətə qarşı təbliğata cəlb etmişlər. Onları serbiyalılar yönəltmişlər. Serbləri də birbaşa USAID deyil, Amerikada (Vaşinqton) fəaliyyət göstərən "Creative Associates International" təşkilatı ələ almışdır. Maliyyə dəstəyi isə Panama və Lixtenşteyn üzərindən həyata keçirilmişdir. Bu işlərin üstünü Amerika bank sistemi açmışdır. Səbəbi isə Kubanın dərdi deyildi, banklar bu ölkəyə qoyulmuş maliyyə embarqosunun pozulduğuna görə, hesabları bloklamışlar. Bununla ABŞ-ın özünün daxili qaydaları USAID-in xaricdəki fəaliyyətlərindən birini təsadüfən blok etmişdir.

Biz agentliyin Əfqanıstan, Venesuela, Peru, Rusiya, Belarus, Ukrayna və digər ölkələrdəki fəaliyyətinə də baxa bilərik. Ancaq bununla həmin təşkilatın fəaliyyət prinsiplərində hər hansı keyfiyyət dəyişikliyi tapa bilmərik. Onlar öncədən konkret müəyyən olunmuş prinsiplər üzrə hərəkət etmişlər. Daha əhəmiyyətlisi USAID-in fəaliyyətinin ümumi cəhətlərini aydınlaşdırmaq və onun geosiyasi təsirlərini təhlil etməkdir. Burada, doğrudan bir neçə düşündürücü məqamları görmək mümkündür.

## "Demokratiya və inkişaf" şüarı

Bu şüar USAID-in fəaliyyətində ənənəvi tezisə çevrilmişdir. Guya, o, hara ayaq basırsa, demokratiya və inkişaf naminə bunu edir. Lakin politoloqlar sual edirlər: "USAID-in yardım göstərdiyi hansı zəif inkişaf etmiş ölkə davamlı inkişaf mərhələsinə keçmişdir və orada əsl demokratiya bərqərar olmuşdur"? Məsələn, Əfqanıstana 100 milyarddan çox pul xərclənmişdir, lakin indi hakimiyyətdə dini təşkilat olan "Taliban"dır. Hansı Qərb siyasi şüuru "Taliban"ı demokratiya nümunəsi kimi qəbul edir?

Bəlkə, Boliviya, Peru və ya Venesuelanı demokratik ölkə olaraq Qərbdə qəbul edirlər? Eyni sualı Rusiya və ya Belarus haqqında vermək olar. Ukrayna ilə bağlı isə Qərb politoloqları "neopatrimonalsit hakimiyyət" (ənənəvi avtokratiya və oliqarxiyanın demokratik qaydalarla süni birliyi) ifadəsini işlədirlər. Hazırda isə Ukraynada vəziyyət çox qarışıqdır.

Deməli, məsələ şüarda nəyi ifadə etməkdə deyil – gerçəklikdə USAID heç bir ölkənin iqtisadi və demokratik inkişafına qayğı göstərmir, ona üstünlük vermir. Bu təşkilatın əsas məqsədi ABŞ-ın maraqlarına uyğun qondarma rejimlər yaratmaqdır. Bunun üçün xarici ölkələrin siyasi sistemini özləri bildiyi kimi dəyişməyə çalışırlar və o da münaqişə, xaos yaradır. Nümunələr çoxdur.

## Çoxhakimiyyətlilik

Politologiyada ona "poliarxiya" deyirlər. Bu termin yunancadan tərcümədə "çoxhakimiyyətlilik", "çoxluğun hakimiyyəti" mənalarını verir. Yəni hər hansı ölkədə elə siyasi vəziyyət yaradırlar ki, orada bir neçə qrup hakimiyyət uğrunda daim çəkişir, mübarizə aparır. Bunun üçün isə əsas olaraq seçici uğrunda vuruşurlar.

Bu termini politologiyaya 1953-cü ildə Robert Dal daxil etmişdir. Ola bilsin ki, xoş niyyətlə bunu etmişdir. Çünki ilkin variantında poliarxiya liberal demokratiya üçün ümumi olan baza institutlarının yaradılmasını nəzərdə tuturdu. Həmin üsulla demokratiya təcrübəsi olan ölkələrdə mövcud siyasi sistemləri mənfiliklərdən "təmizləmək" mümkün ola bilərdi.

Ancaq təcrübə göstərdi ki, bu, nəzəriyyə kimi müsbət olan prosesi hətta Qərbdə həyata keçirmək mümkün deyildir. Onun elmi-nəzəri səbəbləri Qərb fəlsəfə və politologiyasında artıq dərin tədqiq edilmişdir. Üç nəzəri tədqiqata müraciət edək.

Fransız filosofu və elmşünası Edqar Moren mürəkkəblik paradiqması üzrə sanballı tədqiqatlar aparmışdır. Onun gəldiyi qənaət belədir ki, dərketmənin istənilən formasında subyekt situasiyanı özü şüurunda mürəkkəbləşdirir. Bu da bir-biri ilə sıx bağlı olan idraki situasiyalar yaradır ki, onların sintezi "şüur"un məzmununu formalaşdırır. Deməli, mürəkkəblik özlüyündə obyektiv gerçəklik adlandırılan varlığa aid deyildir – onun qaynağı insanın dərketmə üsulu, forması və məntiqidir.

Buradan çex filosof və metodoloqu Helqa Novotnı çox maraqlı yanaşma formalşdırmışdır. Ona "emercent interfeys zonası" deyirlər. Nəzəri dərinliyə getməyək: Qısa olaraq bu termin öz-özünə, öncədən proqnozlaşdırıla bilinməyən və dərketmədə vasitəçi rolu oynayan anlama sahəsinin mövcudluğunu ifadə edir. Yəni dərketmədə həmişə elə aralıq sfera vardır ki, bütövlükdə, idrakı mürəkkəbləşdirir. Çıxış yolu həmin mürəkkəbliyi sadələşdirməkdən ibarətdir.

Nəhayət, italyan sosioloq və politoloqu Danilo Zolo E.Moren və H.Novotnının ieyalarını Qərb anlamında "demokratiya"ya tətbiq edir. Belə qənaətə gəlir ki, demokratiya Qərb siyasi şüurunda nəinki daha da aydınlaşmışdır, əksinə xeyli dərəcədə mürəkkəbləşmiş və qeyri-müəyyən məmzunlu olmuşdur. İndi Qərbdə bu anlayışa birmənalı izah verə biləcək mütəxəssis yoxdur. Əsas səbəbi, D.Zoloya görə, Qərb siyasi sistemlərinin demokratiya məsələsində mövcud vəziyyəti daha da mürəkkəbləşdirmələri və bir sıra qondarma faktorları ora daxil etməyə çalışmalarıdır.

Aydındır ki, demokratiyanın "beşikləri"ndə onun nə olduğu qeyri-müəyyəndirsə, başqa siyasi rejimləri olan ölkələr haqqında nə demək olar? Və ora həmin qeyri-müəyyən demokratiya anlayışını hansı uğurla tətbiq etmək mümkündür? Məsələn, Boliviya və ya Əfqanıstan hara, demokratiya hara? Venesuela və demokratik təcrübə? Və ya başqa ölkələr olsun! Bu ölkələrdə demokratiya və liberalizm təvcrübəsi yoxdursa, USAID hansı ağılla poliarxiya sistemi yaratmağı düşünmüşdür? Məsələnin kökü də bu suala cavab axtarışındadır. Orada agentliyin əsas məqsədi gizlənmişdir.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# "Böyük manipulyator"

**Mark ENDEVELD**

*(əvvəli qəzetin ötən saylarında)*

Göründüyü kimi, seçki kampaniyası zamanı Makron heç kimdən və heç nədən qorxub-çəkinmədən, həyasızcasına, utanıb-qızarmadan hər şeyə əl atır. Bu iddialı gənc Fransanın cənub-qərb hissəsində də bu əməllərindən qalmır. Xüsusilə Lot departamentində yaxşı xal qazanacaq. 2015-ci ilin oktyabr ayında İqtisadiyyat naziri kimi Makron, departamentin Figeac şəhərində təşkil olunan "gələcəyin sənayesi" mövzuna həsr olunmuş dəyirmi stol arxasındakı görüşdə iştirak etmişdi. (Onu da qeyd edək ki, bu şəhərdə Airbus şirkətinin subpodratçısı olan "Figeac Aero" yerləşir). O, hələ bir neçə dəfə də bura gələcək – bir dəfə 2017-ci ilin fevral ayının sonunda prezidentlik kampaniyasının qızğın çağında, bir dəfə də 2019-cu ilin yanvarında bu bölgənin bələdiyyə idarələrinin başçıları ilə görüşmək üçün. Bu səfərlərin bir səbəbi də bu bölgədə Makronu dəstəkləyən ağır çəkili bir siyasət adamının olmasıdır. O da kim olsa, yaxşıdır? Keçmiş sosialist, 1998-2017-ci illər arasında millət vəkili olan, sonradan "Hərəkətdə!" hərəkatının kadrlarından birinə çevrilən Jan Lonay. Bu adam başqa bir baronun, Pas-de Calais departamentində boya-başa çatmış, əvvəllər Jak Şirakın çevrəsində olan Jan-Pol Delevoyun rəhbərlik etdiyi Milli Sərmayə Komissiyasının (CNI) üzvlərindən biridir. Jan Lonay Lot departamentinin kadrı olsa da, ölkədə çox geniş siyasi və iqtisadi şəbəkəyə malik bir nüfuzlu şəxsiyyətdir. Milli Assambleyanın keçmiş kvestoru (Kvestor – parlamentin məşvərət qrupunun üzvü) olan Lonay, vaxtilə dövlət Müdafiə büdcəsinin, eləcə də Fransanın Merlər Assosiasiyasının (AMF) xəzinədarı olub. Bundan başqa, o, Milli Su Komitəsinin prezidenti, eləcə də bu sektorun nəhəng fiqurları olan Süez və Veolia kimi çoxmillətli şirkətlər birliyinin həmsədridir.




2017-ci ilin iyul ayında bu Jan Lonay David Kolon ilə birlikdə İçməli su faktura və bölgü arasında başlığı altında bir kitab yazıb nəşr elətdirdi. (Faktura – beynəlxalq ticarət təcrübəsində satıcı tərəfindən alıcıya təqdim olunan mal və xidmətlərin siyahısı; onların miqdarı və alıcıya təhvil verildiyi qiymət; malların formal xüsusiyyətləri, rəngi çəkisi və s. olan sənəd.) David Kolon isə Veolia şirkətinin beynəlxalq əlaqələr şöbəsinin rəhbəri, başqa sözlə, lobbiçidir. Bu atributlar sayəsində, Lonay içməli su sahəsində beynəlxalq səviyyədə qərar qəbul edənlərə müdaxilə etməyə hüququ olan bir adamdır. 2017-ci ilin fevral ayında Emmanuel Makronun Lot departamentinə səfərindən bir neçə gün əvvəl, o, Seneqala səfərə getdi. Prezident seçildikdən sonra Makron ona su şəbəkələrinin yenilənməsi haqqında maliyyə planı qurmağı həvalə etdi. (Bu sahəyə gələcəkdə milyardlarla avro məbləğində investisiyalar tələb olunacaq.) Ona görə də,14 iyul 2018-ci ildə Fransanın Milli Bayramı münasibəti ilə Lot departamentinin kadrı Jan Lonayın, Baş nazir tərəfindən Fəxri Legion Ordeni ilə təltif edilməsi qətiyyən təəccüb doğurmur.

## Qocaların orta yaşlılardan qisası

Köhnə siyasətin, köhnə siyasətçilərin içində Makrona qoşulanların arasında, Kot-d'Or departamentindən olan senator Fransua Patriat da var. Vaxtilə Sosialist Partiyasında həmişə Dominik Stros Kanı dəstəkləyən bu adam, indi də Senatda Makronu dəstəkləyir. (!) Ona görə də tamamilə təbiidir ki, Fransua Patriat Milli Assambleyada LREM (Respublika Hərəkətdə Partiyası) qrupunun prezidenti olur. Kantal departamentində isə Makron, Radikal Sol Partiyasının (PRG) tanınmış fiquru Jak Mezardı da öz tərəfinə çəkir və bu adam, bir müddət onun Ərazi Birliyi naziri kimi fəaliyyət göstərir. Yeri gəlmişkən, Jak Mezard və onun PRG-dən (Radikal Sol Partiyası) olan dostları, əllərinə düşən bu gözlənilməz şansdan bacarıqla istifadə etdilər: Belə ki, öz partiyalarından olan Samuel Deqara adlı bir adamın "Hərəkətdə!" qrupunun Milli İnvestisiya Komissiyasının daxilində olmağından istifadə edib, ciddi bir namizədləri olmasa da, öz piyadalarından bir neçəsini müxtəlif seçki dairələrinə soxuşdurur.

Əyalətdə özünə lazım olan, ona dəstək ola biləcək adamları iyləyib tapan Makron, bu dəfə Val-d'Uaz departamentinin senatoru, sosialist, keçmiş Müdafiə naziri Alan Rişarddan yapışır. O, LREM (Respublika Hərəkətdə Partiyası) qrupunun bu kadrına yüksək səviyyəli dövlət məmuru Dominik Burla birlikdə, yerli orqanların vergi hesabatını aparmaq kimi çox məsuliyyətli bir iş tapşırır. Rişard, həmçinin konstitusiya islahatları ilə bağlı müzakirələrdə də iştirak edir.

"Hərəkətdə!" qrupunun bir çox üzvlərinin fikrincə, bu təvazökar senator, Makronun yaratdığı hərəkatda çox böyük rol oynayır. Bu adamın ölkənin seçki xəritəsindən çox yaxşı başı çıxdığını hiss edən Makron, istədiyi vaxt ona zəng vurub məsləhət almaqdan çəkinmir...

Bunu çox adam bilmir: Makron Sosialist Partiyasının üzdə olan fiqurlarından biri, uzun müddət Nord-Pa-dö-Kale departamentinin regional şurasının prezidenti olmuş Daniel Perşerona pərəstiş edir. Göründüyü kimi, prezidentin əyalət modelləri arasında qüdrəti və əzəməti ilə fərqlənən möhtəşəm bir baron var.

Bir şey çox qəribədir ki, "yeni dünya" qurmaq istəyən namizəd, bu istəyinə, hər şeydən əvvəl, yaşlı siyasətçilərin məskən saldıqları ərazilərində çatmaq istəyir. İstər, sağçı olsun, istər, solçu, istər, radikal partiyadan olsun, istər, mərkəzi partiyadan, bu adamların hamısının 60-dan yuxarı yaşları var, onlar Jiskar, Mitteran kimi prezidentlərin hakimiyyəti dövründə məsul vəzifələrdə çalışıblar. Buna baxmayaraq, bu Mitterançılardan ibarət solçular şəbəkəsinin və Jiskarçılardan ibarət sağçılar şəbəkəsinin gənc Makrona simpatiyaları var. Niyə? Çünki PS və LR (Sosialistlər və Respublikaçılar) kimi iki böyük ənənəvi partiyanı partladıb darmadağın etmək üçün Makron arxasını onlara söykəyir... onlar da bu iddialı gəncin sayəsində, yenidən qaynar siyasi həyata qayıdıb cavanlıqlarını yada salırlar. Bundan başqa, adlı-sanlı universitetləri, institutları bitirib, onların partiyasında qoçuluq edən, yaşlı nəslə hörmət etməyən, özündənrazı və eqoist orta yaşlı siyasətçilərə yaxşı dərs vermək istəyirlər. Makronla bu yaşlı nəslin ittifaqı sonralar daha çox bəhrə verəcək... Belə ki, sağçılar partiyasından olan ağır çəkili siyasətçi, keçmiş Baş nazir Jan-Pier Raffaran, prezident seçkilərinin iki turu arasında Emmanuel Makrona yaxınlaşacaq və Baş nazir olanda – çevrəsinə yığdığı nüfuzlu şəbəkəsindəki şəxslərin hamısını bu gənc və iddialı namizədə kömək etməyə çağıracaq. Onların arasında 2002-2004-cü illər arasında Raffaranın kabinet direktoru olan – hal hazırda indiki Baş nazir Eduard Filippin kabinet direktoru – Benua Ribado-Düma, eləcə də onun müşaviri Ksavier Şino kimi ağır çəkili siyasətçilər var. Sonralar JanPier Raffaranın bu keçmiş əməkdaşları, "yeni dünya" qurmaq istəyən 159 Makron tərəfindən yüksək vəzifələrə təyin olunacaqlar: Məsələn, Paris Aeroportunun Direktoru (ADP) Oqustan dö Romanet. (Jan Pier Raff aran Baş nazir olanda, onun kabinet direktorunun keçmiş müavini.) Bir sözlə, Makronun qurduğu "yeni dünyada" elə bir yenilik gözə dəymir. Orta yaşlılar tərəfindən kənara itələnən yaşlı nəsil, yenidən geri qayıdır. "Bu bir növ uduzanların qisasıdır", – deyə əvvəllər Sosialist Partiyasında olanlardan biri kinayə ilə qeyd edir.

## Aveyronun Makron sektoru

"Mən Aveyron departamentini çox sevirəm" – bu sözləri Makron Centre Presse (Aveyron departamentinin Rodez şəhərində çıxan gündəlik qəzet) qəzetinə verdiyi müsahibədə deyir. Makron özünü fransızlara sadə, xalq içindən çıxan, necə deyərlər bir "kəndçi" kimi göstərmək istəyir. O, əlindən gələni edir ki, ölkədə onu nə tək Rotşild bankının investisiya bankiri kimi, nə də Tuket şəhərinin küçələrində qısaqol köynəkdə gəzən bir gədə kimi yox, həm də Fransanın hər bir bölgəsində öz çevrəsi olan siyasətçi kimi tanısınlar. V Respublikada namizədin belə bir hərəkəti təəccüblü deyil, çünki lap əzəldən, bütün prezidentlər seçki kampaniyası zamanı uzaq bölgələrə baş çəkib, imiclərini artırmaq üçün sadə kənd adamları ilə birbaşa "dialoqa" girməyi özlərinə borc biliblər; ancaq onu da etiraf etmək lazımdır ki, heç bir siyasi təcrübəsi olmayan İqtisadiyyat naziri üçün bu çox riskli addımdır…

Yerli əhali ilə bu görüş, namizədin prezident seçkilərinin ikinci turundan əvvəl Rodez şəhərində təşkil olunan axırıncı görüşdür. Bu şəhərin meri Kristian Teyssed onun ilk dəstəkçilərindən biridir və bu prefekturanın 80% əhalisi ikinci turda "Hərəkətdə!" hərəkatının namizədinə səs verəcək. Yeri gəlmişkən, merin gənc kabinet direktoru Toma Moqaraey, LREM partiyasının (Respublika Hərəkətdə Partiyası) yerli referenti sayılır. Amma Makron Aveyronu tək buna görə sevmir: Məsələ burasındadır ki, onun mühafizə komandasındakı cangüdənlərin çoxu əslən bu bölgədəndirlər. Ümumiyyətlə, prezidentin komandası ilə Aveyron departamenti arasında əlaqələr çoxdur. Makronun İqtisadiyyat Nazirliyindəki keçmiş kabinet direktoru, eyni zamanda, onun yaxın dostlarından biri olan iqtisadçı Mark Ferraççinin həyat yoldaşı Sofi Ferraççi də əslən bu zonadandır. 2005-ci ildə Aveyron bölgəsinin Brommat adlı kiçik bir kəndində onların toyunda iştirak edən gündən Emmanuel Makron bu ərazilərə vurulub.

**(ardı var)**

Ataların yolu ilə

# Dövlətə, vətənə xidmət nümunəsi: 90 illik ömür yolu

**Azərbaycan ziyalılarının böyük əksəriyyəti kimi mən də Hidayət Bəşirovu Lerik rayonunun sayılıb-seçilən, hamının hörmət və ehtiram göstərdiyi ziyalılardan biri kimi tanıyıram. Fərq bircə ondadır ki, yaşca məndən xeyli böyük olmasına baxmayaraq, yaşının 90-cı ilini başa vurmuş bu insanla daha tez-tez ünsiyyətdə oluram. Dünyaya baxışı, cəmiyyətdə gedən proseslərə fərqli münasibəti, insani dəyərlər haqqında müdrik fikirləri mənimçün həmişə maraqlı olub.**



45 illik əmək fəaliyyətini dövlət qulluğunda keçirən Hidayət Bəşirovun həyat yolu heç də rahat və rəvan bir yol olmayıb. Bu yol müəyyən mənada onun yaşadığı dövrdən, cəmiyyətdən, qarşıda duran vəzifələrdən və nəhayət, Hidayət müəllimin özündən, iradəsindən, bacarığından və həyata baxışından asılı olub. Həyatı mübarizəsiz, zəhmətsiz təsəvvür etmədiyi üçün, özünü həmişə zəhmətə və gərgin əməyə hazırlayıb.

1935-ci ildə ucqar bir rayonda, Lerikin Zuvand bölgəsində dünayaya göz açsa da, uşaq yaşlarından bu dünyanı faciələr, fəlakətlərlə çalxalayan, özü ilə ölüm, səfalət və aclıq gətirən müharibənin acılarını yaşayıb. Elə erkən yaşlarından bu “müharibə uşağı” çətinliklərlə mübarizə aparmağı öyrənib. Uğur qazanmağın yolunu qətiyyətdə, mübarizədə görən Hidayət müəllim zaman-zaman çətinliklərə sinə gərib, zəhmət ətirli uğurlara imza atıb. Orta məktəbi əla qiymətlərlə bitirib, ali məktəbə qəbul olunub, həqiqi pedaqoq kimi formalaşıb. Beləcə həyatla mübarizədə ilk uğurlarını qazanıb və zaman-zaman arzularının ünvanına doğru addımlayıb.

**H.Bəşirov ucqar Siyov kəndində müəllimlik peşəsinin ilk “şagird imtahanında” qazandığı uğuru bu gün də həyəcanla xatırlayır:**

– Şagirdlər məsum baxışlarını üzümə dikib nə söylədiyimi, necə hərəkət etdiyimi diqqətlə izləyirdi – deyə, 1961-ci ilin ilk dərsini yada salır. – İnanın, ali məktəb müəllimləri qarşısında imtahan verəndə belə həyəcan keçirməmişdim. Dərsi izah etdikcə “Görəsən, razı qaldılarmı” deyib, öz-özümə sual verir və məni bu imtahandan qurtaracaq məktəb zənginin səsini gözləyirdim...

...Sonra çox vəzifələr, çox təyinatlar oldu. Pedaqoji fəaliyyətin müxtəlif pillələrində – istər kimya-biologiya müəllimi, istər təlim-tərbiyə işləri üzrə direktor müavini, istərsə də məktəb direktoru kimi 10 illik pedaqoji fəaliyyətdən sonra rayon rəhbərliyinin diqqətini çəkdi. Məktəb direktoru vəzifəsində çalışanda Hidayət müəllim artıq Lerik rayon sovetinin deputatı, həm də rayon Partiya Komitəsinin Plenumunun üzvü idi. 1971-ci ildən dövlət idarəçiliyi sahəsinə partiya komitəsinin təbliğat-təşviqat şöbəsinin müdiri vəzifəsinə təyin olundu. 4 il sonra yüksək təşkilatçılıq bacarığını nəzərə alıb rayon Xalq Maarifi Şöbəsinə müdir göndərdilər. Elə həmin il Rayon Partiya Komitəsinə - bu dəfə katib vəzifəsinə seçildi.

Bu təyinatla bağlı Hidayət müəllimin xatirəsindən əsla silinməyən və tez-tez söhbət saldığı unudulmaz bir görüş xatirəsi var. Söhbətimiz bu yerə çatanda baxışlarına təbəssüm qondu və çox mehriban bir səslə söhbətə başladı:

– O illərdə Mərkəzi Komitənin birinci katibi Heydər Əliyev yalnız rayonların birinci katiblərini təyinat zamanı şəxsən qəbul edirdi. İkinci katibləri, katibləri isə MK-nin ikinci katibi qəbul edirdi. İdeoloji katib vəzifəsinə təyin olunmaq üçün mənimlə bərabər daha dörd rayondan yoldaşlar Mərkəzi Komitəyə gəlmişdi. Bir neçə şöbədə sorğu-sualdan sonra təşkilat şöbəsinin müdirinin qəbuluna gəldik. O bildirdi ki, MK-nin ikinci katibi sizi qəbul edib sorğu-sual edəcək. Bu məqamda selektordan Heydər Əliyevin gur səsi eşidildi. Təşkilat şöbəsinin müdirindən soruşdu:

– Yoldaşlar gəlibmi? Onlarla görüşüb danışmısanmı?

Təşkilat şöbəsinin müdiri:

– Bəli yoldaş Əliyev. Yanımdadırlar.

– Mən də onları qəbul edəcəyəm.

Biz Heydər Əliyevin qəbuluna getdik, hər birimizlə ayrı-ayrılıqda əl verib görüşdü və uzun masada yer göstərib oturmağa dəvət etdi. Görəcəyimiz işlərin mahiyyəti haqqında müfəssəl məlumat verən Heydər Əliyev yerlərdə sadə, zəhmətkeş insanlarla səmimi münasibətlər qurmağı, vicdanlı və təmiz işləməyi, rayonun səmərəli idarə edilməsində yetkin olmağı tapşırdı.

Görüşümüz 10 dəqiqədən bir qədər artıq çəkdi. Müəyyən tövsiyə və tapşırıqlarını verəndən sonra hər birimizin əlini sıxıb təbrik etdi və uğurlar arzuladı. Bu görüş mənim ikiqat məsuliyyətimi artırdı.

Özünü fəxrlə Heydər Əliyev məktəbinin yetirməsi sayan Hidayət müəllimin əmək kitabçasındakı qeydlərə nəzər salanda maraqlı bir faktın şahidi oldum.

O, ümummilli lider Heydər Əliyev respublikaya rəhbər təyin olunandan cəmi iki il sonra dövlət qulluğuna təyinat alıb. Məhz həmin dövrdə - 1978-ci ildə Hidayət Bəşirov Vətən qarşısında xidmətlərinə görə “Şərəf nişanı” ordeninə layiq görülüb.

Pedaqoji fəaliyyət dövrünü ömrünün ən qiymətli anları hesab edən bu ağsaqqal üçün müəllimlikdən müqəddəs peşə yoxdur. Bunun nəticəsidir ki, o, dövlət qulluğunda müəyyən müddət çalışandan sonra yenidən öz doğma peşəsinə üz tutub. Yenidən məktəb direktoru, rayon təhsil şöbəsinin müdir müavini, Astara Pedaqoji Texnikumunun Lerik rayon şöbəsinin müdiri və nəhayət, uşaqların mühafizəsi üzrə məktəb inspektoru. Harada işləməsindən asılı olmayaraq, Hidayət müəllim özünə qarşı çox tələbkar olub. Necə deyərlər, həmişə formada olmağa çalışıb, hətta 2006-cı ildə təqaüdə çıxandan sonra da, əli işdən soyumayıb. Rayonda keçirilən bütün ictimai işlərdə yaxından iştirak edib.

2008-ci ildə Hidayət müəllimi Lerik rayon veteranlar təşkilatının sədri seçiblər. Bu vəzifəyə təyinat alanda yaşının 73-ü keçməsinə baxmayaraq, Hidayət müəllim yeni vəzifənin öhdəsindən də əvvəlki şövq və məsuliyyətlə gəlib. Rayonun bir veteranını belə yaddan çıxarmayıb, hər biri ilə şəxsən maraqlanıb. Amma yeni vəzifə onu xeyriyyəçilik və rayondakı tikinti-abadlıq işlərində pay sahibi olmaqdan kənarda qoymayıb.

Hidayət müəllimin Vətənə xidmət amalı ilə ərsəyə çatdırdığı övladları atalarının xeyriyyəçilik təkliflərinə həvəslə razılıq verərək 2010-cu ildən başlayaraq özləri bir çox xeyriyyəçilik təşəbbüsləri irəli sürüb və həyata keçiriblər, Lerik rayonunun tikinti-abadlıq işlərində çox aktiv iştirak ediblər. Bütün bu işlərin həyata keçirilməsinə isə Hidayət müəllim şəxsən özü rəhbərlik edib.

Hidayət müəllimin zəhməti nə dövlətimiz, nə də hazırda çalışdığı Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən unudulub. 2011-ci ildə Azərbaycan Prezidentinin sərəncamları ilə o, müstəqilliyimizin bərpasının 20 illiyi münasibətilə “Tərəqqi”medalı, 2023-cü ildə isə “Heydər Əliyevin 100 illiyi” yubiley medalı ilə təltif edilib.

Veteranlar Təşkilatı isə Hidayət müəllimi “General Həzi Aslanov”, “General Səməd bəy Mehmandarov”, “General Əliağa Şıxlinski” yubiley medalları, 2020-ci ildə isə Rusiya Federasiyası Prezidentinin sərəncamı ilə “Qələbənin 75 illiyi” medalı ilə təltif edilib. Bu qismdən olan təltiflərə Hidayət müəllim hələ cavan yaşlardan layiq görülürdü. Məsələn, SSRİ DTK-sı tərəfindən o, 1-ci dərəcəli “Sərhəd əlaçısı”, Zaqafqaziya Sərhəd Qoşunlarının Komandanlığı tərəfindən isə 2-ci dərəcəli “Sərhəd əlaçısı” döş nişanları ilə mükafatlandırılıb.

Bütün bunlara baxmayaraq, Hidayət müəllim deyir ki, bu gün onun üçün xüsusilə əziz olan mükafat Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə təltif edildiyim “Heydər Əliyevin 100 illiyi” yubiley medalıdır. Hidayət müəllim uzun müddətli səmərəli fəaliyyətini qiymətləndirdiyinə görə Möhtərəm Prezidentimiz İlham Əliyevə dərin təşəkkürünü bildirdi və dövlətçiliyimizin möhkəmləndirilməsi yolunda həyata keçirtdiyi bu şərəfli işində ona uğurlar azuladı.

Hər bir Azərbaycan vətəndaşı kimi Hidayət müəllim də Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə 44 günlük Vətən savaşında uzun müddət işğal altında olan torpaqlarımızın azad olmunmasını və həyata keçirilmiş antiterror əməliyatı nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunmasını böyük sevinc və qürur hissi ilə qarşılamışdı. İkinci Dünya müharibəsi kimi uzun müddət davam edən ağrılı bir dövrü canlı yaşayan Hidayət müəllim qısa zamanda minimum itki ilə torpaqlarımızın azad olunmasını müasir tarixdə misli görünməmiş böyük nailiyyət hesab edir.

Hidayət Bəşirovun 6 oğlu və 3 qızı var. Övladlarını Vətənə sevgi və layiqli xidmət, elmə bağlılıq prinsipləri əsasında böyütmüşdür. Bunun nəticəsidir ki, bu gün övladları sahibkarlıq sahəsində, həmçinin elmi-tədqiqat və elmi-pediqoji işlərdə uğurla fəaliyyət göstərirlər. Övladlarından biri, texnika üzrə fəlsəfə doktoru və dünya üzrə patentləşdirilmiş bir neçə ixtiranın müəllifi Elxan Bəşirov ölkəmizdə və regionda tanınmış “MətanətA” şirkətinin qurucusudur, eyni zamanda, Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının (ATMİA) sədridir. Hidayət müəllimin həyat məktəbinə vəsiqə verdiyi təkcə öz övladları deyil. Bu müdrik kişinin, zəngin həyat təcrübəsi olan pedaqoqun yetişdirdiyi neçə-neçə şagirdinin bu gün ən müxtəlif regionlardan xoş sorağı gəlir. Söhbət əsnasında üzümü ona tutub övladlarının hamısının ali təhsil almasını, Vətənə xeyirli övlad kimi yetişmələrində əvəzsiz xidməti olduğunu deyəndə, gülümsəyərək bunun ancaq bircə şərti olduğunu bildirdi və əlavə etdi:

– Əsas şərtlərdən biri Şövkət xanımın tərbiyəsi olub. Çünki mən vaxtımın çoxunu dövlət işinə həsr etdiyimdən uşaqların taleyi ananın ümidinə qalıb. O da bu işi şərəflə yerinə yetirib.

Hidayət müəllim yarızarafat, yarıgerçək bildirdi ki, elə onun öz uğurlarının, nailiyyətlərinin də əsas ilhamvericilərindən biri ömür-gün yoldaşı Şövkət xanım olub.

Şübhəsiz, bu ailədə ərsəyə gələn qiymətli nə varsa, bunda valideynlərin hər ikisinin payı var. Amma bu xidmət hələ davam edir. İndi Hidayət müəllim də, Şövkət xanım da nəvələrinin, nəticələrinin Vətənə xeyirli övlad olmalarında yaxından iştirak edirlər. Biz də redaksiyamız adından deyirik: Ömrünüz yetərli olsun ki, onları da özünüz, övladlarınız kimi Azərbaycana layiqli vətəndaş yetişdirəsiniz.

***İlqar RÜSTƏMOV***
***XQ***

# Türkiyə şirkəti ilə əməkdaşlıq

**Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini Abbas İsmayılov Türkiyə Moda və Hazır Geyim Federasiyasının prezidenti və “Rapsodi çorap” şirkətinin rəhbəri Hüseyin Öztürk ilə görüşüb.**



Görüşdə Türkiyənin Naxçıvanda Baş Konsulu Asip Kaya, ticarət atteşesi Engin Iğdır iştirak ediblər.

Abbas İsmayılov Azərbaycan və Türkiyə arasında iqtisadi əlaqələrdən danışıb, Naxçıvanda əlverişli biznes mühiti və investorlar üçün yaradılan imkanlar barədə məlumat verib.

Söhbət zamanı Naxçıvanda investisiya layihələrinin həyata keçirilməsi imkanları və əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

***XQ***

XQ-nin araşdırması

**Son illərdə gənclərin xaricdə təhsilə maraq və tələbatı artıb. Amma xarici universitetləri sevinclə bitirdikdən sonra bir çox məzunlar diplomunun tanınmaması problemi ilə qarşılaşırlar. Tanınma xarici dövlətlərin universitetlərində təhsil almış və uğurla bitirməsini təsdiq edən diplomun və ya şəhadətnamənin ölkə ərazisində qüvvədə olmasının təsdiqidir. Bəs bu prosesdə çətinlik yaşanmaması üçün nələrə diqqət edilməlidir?**

Əvvəlcə qeyd edək ki, xarici diplomların tanınması məcburi deyil. Əgər işəgötürən tanınma haqqında şəhadətnamə tələb edirsə, məzunlar Azərbaycanda ali təhsillərini davam etdirmək və ya peşə istiqamətlərinə uyğun əmək fəaliyyəti ilə məşğul olmaq hüququ əldə etmək arzusundadırlarsa, o zaman diplomun tanınması vacib hala çevrilir.

Bu da var ki, bəzi xaricdə təhsil şirkətlərinin xidmətindən yararlanan tələbələr yalançı vədlərin və bəzəkli reklamların qurbanına çevrilirlər. Xüsusən də gənclər “kustar üsulla” yaradılmış belə şirkətlərin vədlərinə uyaraq ölkəmizdə tanınmayan xarici ali məktəblərdə mənasız yerə vaxt sərf edir və sonda lazımsız, keçərsiz diploma sahib olurlar. Belə şirkətlərin çoxu dövlət qurumu heç bir şirkət və ya fiziki şəxslə əməkdaşlıq etmədiyini dəfələrlə bildirib.

Hazırda ən çox imtina alan universitetlər Ukrayna, Rusiya və Gürcüstana aiddir. TKTA-nın ən çox imtina alan universitetlərin siyahısına baxanda bunu aydın görmək olur. Tanınmama faizi 30-100 arasında yerləşən 54 universitet məhz bu 3 ölkədə yerləşir.

Agentlik mövzu ilə bağlı ünvanladığımız suallarımızı cavablandıraraq bildirdi ki, diplomların tanınmasından imtinanın əsas səbəbi şəxsin təhsil müddətində xarici ölkənin ərazisində kifayət qədər olmaması, tədris dili üzrə aşağı bilik səviyyəsi, təhsil aldığı universitetin akkreditasiyasız olması və s. ilə bağlıdır.

# Xarici diplomların “tanınmama” problemi



mövsümidir. Əsas hədəfləri nəticəsi zəif olan abituriyentlər, xüsusilə də müddətli hərbi xidmətə getmə yaşı çatmış şəxslərdir. Düzgün işləyən xaricdə təhsil şirkətinin üstünlüyü odur ki, gənclərə bələdçilik edir, birbaşa konsultasiya aparır, bilik və bacarıqlarına uyğun ixtisasa yönləndirir, vaxtında müraciət edilməsini, sənədlərin düzgün toplanılmasını və digər prosedur qaydalarını izah edir, müəyyən sənədləri toplamaqda yardım göstərir. Xaricdə təhsil şirkəti ilə müqavilə bağlayarkən onların öhdəlikləri diqqətlə təhlil edilməlidir.

Azərbaycan dövlətində xarici ölkələrin ali məktəb ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) Lissabon Konvensiyası və Nazirlər Kabinetinin 13 may 2003-cü il qərarı ilə tənzimlənir. Xarici diplomların tanınması prosedurunu isə Elm və Təhsil Nazirliyi yanında Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) həyata keçirir. Tanınma proseduru ödənişlidir. Nazirlər Kabinetinin 24 dekabr 2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş “Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması xidmətləri ilə əlaqədar digər xidmətlərin siyahısı və göstərilən xidmətlərə görə ödəniləcək haqların məbləği”nə əsasən ərizəçilər sənədlərin qəbulu üçün 250 manat xidmət haqqı ödəməlidirlər. Tanınma barəsində verilən şəhadətnamənin itirilməsi və ya korlanması hallarında isə 20 manat xidmət haqqı ödənməlidir.

Nazirlər Kabinetinin 2023-cü il 3 fevral tarixli Qərarı ilə təsdiq edilmiş “Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları”nın 6.2-ci bəndinə əsasən müəllimlik, mühəndislik, hüquq və digər ixtisaslar üzrə TKTA-nın sifarişi ilə Dövlət İmtahan Mərkəzi tərəfindən imtahan keçirilir. Burada tanınmanın xüsusilə iki növü barəsində söz açmaq yerinə düşərdi. Birincisi, kvalifikasiyanın akademik tanınmasıdır ki, burada xarici dövlətin səlahiyyətli orqanları tərəfindən verilmiş ali təhsilə aid kvalifikasiyanın sahibinə Azərbaycanda təhsilin növbəti pilləsində təhsilini davam etdirmək hüququ verir. İkincisi, kvalifikasiyanın peşə tanınmasıdır ki, burada xarici dövlətin səlahiyyətli orqanları tərəfindən verilmiş ali təhsilə aid kvalifikasiyanın sahibinə Azərbaycanın Əmək Məcəlləsinə əsasən əmək müqaviləsi bağlanılarkən onun əmək funksiyasının xüsusiyyətlərinə uyğun olan peşə hazırlığının və ya təhsilin olması zəruri sayılan hallarda işə götürənə təqdim edilən təhsil sənədində qeyd olunan müvafiq peşə fəaliyyəti göstərmək hüququnun verilməsidir.

Bəzi hallarda özəl sektorlar gənclərin xarici diplomunu tanınma olmadan belə qəbul edirlər. Bu mövzuda xarici diplomunu almış tələbə özü qərar verməlidir. Lakin tələbə dövlətlə bağlı qurum və ya nazirlikdə işləməyi planlayırsa bu məsələyə çox ciddi yanaşmalıdır. Sadəcə, bir-iki özəl şirkətin ümidinə qalıb tanınma prosedurunu ciddiyə almamaq diplomçunun ziyanınadır.

Fevralın 6-da Elm və təhsil naziri Emin Əmrullayev media nümayəndələri üçün təşkil etdiyi brifinqdə xaricdə təhsil almış şəxslərin diplomlarının tanınıb-tanınmaması məsələsinə də aydınlıq gətirdi. Nazir bildirdi ki, işimiz ədalətliliyi təmin etməkdir. Bal toplamadan xaricdə hansısa universitetdən adını yazdırıb, formal bitirib diplom alan şəxsin sənədini təsdiq edə bilmirik.

Təhsildə Keyfiyyət Təminatı Agentliyi xarici diplomların tanınması ilə bağlı əhaliyə dəfələrlə xəbərdarlıq edib. Hətta bu

TKTA təhsil almaq üçün xarici dövlətlərə üz tutan tələbələrə tövsiyə edir ki, universitetin təhsil alınan ölkədə dövlət akkreditasiyasına, yəni lisenziyaya sahib olması, təhsilalma formasının ölkəmizin təhsil qanunvericiliyində nəzərdə tutulmuş formalara uyğun olması, təhsil alınan ölkədə davamiyyətə riayət edilməsi, tədris dili üzrə bilik səviyyəsinin qənaətbəxş olması məqamlarına diqqət yetirsinlər.

Agentlik rəsmisi bu ilin yanvar ayı üzrə 402 müraciətçinin 300-ü barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edildiyini, 102 nəfərin müraciətinin isə mənfi qərarla yekunlaşdığını da bildirdi: “Tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olması səbəbi ilə 78, dövlət nümunəli olmayan diplom səbəbilə 6, akkreditasiyasız ali təhsil müəssisəsi səbəbilə 5, təhsil forması səbəbilə 4, akkreditasiyasız ali təhsil müəssisəsi və tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olması səbəbilə 2, ekvivalenti olmayan ixtisas səbəbilə 2, tədris yükü səbəbilə 2, əczaçılıq ixtisası üzrə qiyabi formada təhsil alınması səbəbilə 1, bakalavr diplomu üzrə imtina verilmə səbəbilə 1, dövlət nümunəli olmayan diplom və tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olması səbəbilə 1 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb”.

Bildirildi ki, ölkələr üzrə təhsil alanların müraciətlərinin sayına nəzər saldıqda Türkiyədən 146, Rusiyadan 102, Ukraynadan 51, Birləşmiş Krallıqdan 23, Gürcüstandan 17, Polşadan 10, Macarıstandan 9, İtaliyadan 8, Belarusdan 6, Almaniyadan 5, Amerika Birləşmiş Ştatlarından 4, İsveç və Niderland Krallıqlarından 2, Qazaxıstandan 2, Avstraliya, Belçika, Çexiya, Estoniya, İndoneziya, İran, İsveçrə, Koreya, Latviya, Litva, Misir, Özbəkistan, Pakistan, Qırğızıstan və Türkmənistanın hərəsindən 1 müraciət olunub. Ən çox müraciət olunan ixtisaslara gəlincə, biznesin idarə edilməsi üzrə 38, iqtisadiyyat üzrə 27, maliyyə üzrə 26, menecment üzrə 26, hüquqşünaslıq üzrə 20 müraciət qeydə alınıb.

**Məsələyə münasibət bildirən təhsil eksperti Vüsət Əzizov** bildirdi ki, abituriyentlər diplomları tanınmayan universitetlərin siyahısını TKTA-nın rəsmi internet saytından da öyrənə bilərlər. Təhsilalan “https://apply.enic.edu.az” sistemi vasitəsilə də akreditasiyadan keçmiş və lisenziyası olan ali təhsil müəssisələri barəsində məlumat ala bilər.

**Təhsil eksperti Elçin Murad** XQ-yə dedi ki, nüfuz xatirinə, “təki xaricdə oxuyum” deyənlər çox vaxt nəticəni düşünmürlər: “Bəzən məzunlar müəyyən vasitəçi şirkətlərin vədlərinə aldanaraq, nüfuz xatirinə xarici ölkələrə üz tuturlar. İstənilən halda, hər hansı xarici ali məktəbə oxumağa gedən abituriyent TKTA vasitəsilə diplomları Azərbaycanda tanınan universitetlərin siyahısı ilə tanış olmalıdır.

Bir sözlə, aldanmamaq üçün oxumaq istədiyiniz universiteti yaxşı araşdırmalı, həmin təhsil ocağının Azərbaycanda tanınıb-tanınmamasını əvvəlcədən öyrənməlisiniz. Əgər hansısa xaricdə təhsil şirkətinin xidmətlərindən yararlanırsınızsa, həmin şirkəti də araşdırmalı və qəbul olan digər tələbələrin sənədlərini təqdim etmələrini istəməlisiniz”.

Əbəs yerə deyilməyib ki, sonrakı peşmançılıq fayda verməz.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Günün sənət söhbəti

# Dəyişən fəsillər və ədəbi nəsillər

**"Dostunu söylə, sənin kim olduğunu deyim"də olduğu kimi, "Ədəbiyyatını göstər, sənin kim olduğunu deyim"də də həqiqət payı umduğumuzdan daha çoxdur.**

Xalqın yaşam boyu azadlıq mübarizəsi hardasa həyat müstəvisində vəznlər qovğasıyla paralel getmişdir. Ortaq ədəbiyyatlarımızın başlanğıc örnəklərini üstündə barındıran yeddinci yüz ilin bəngü daşlarındakı Göktürk ədəbi örnəklərinin heca vəznində yazıldığını bilməyən yoxdur. Belə baxıldığında dünyadakı çox şeylər kimi, ədəbi vəznlərin də öz tarixi yaşamı missiyasını başa çatdıra bilmək haqqı var. Heca vəzni hələ öz tarixi missiyasını başa çatdıra bilməmiş, başının üstünü əruz kəsdi və hardasa hecanın ifadə imkanları yarımçıq qaldı. Ərəb istilası özüylə bərabər əruz vəznini də gətirdi. Əruzun ahəngə və gücə dayanan əzici üstünlüyü ilə heca vəzni ikinci plana çəkilib, yalnız aşıqların və el şairlərinin çabaları ilə yaşamını sürdürməyə çalışdı (Bunu demək lazım gəlir ki, heca hər zaman milli oyanışın və dərkin gərəkli olduğu zamanlarda ədəbiyyat meydanında yerini alır).

On səkkizinci əsrdə, qumsalda batan su kimi, hecanın yenidən gün üzünə çıxışı, geri dönüşüylə ədəbiyyatımızda əruzun təkbaşına hegemonluğuna yavaş-yavaş son verilir. Bu ikili vəzn paraleli hardasa iyirminci əsrin əvvəllərinə qədər davam edir.

Sonra vəznlər hardasa yer dəyişdirir və birincilik hecaya keçir. Bu dönəmə qədər bir çox klassiklərimizin əzmiylə əruz vəzni, demək olar ki, özünün bütün ifadə imkanlarını tükətmiş durumda idi. Çünki bu vəzn, başqa dillərdə demirəm, türkcəmizdə Nəsiminin, Füzulinin, son yüzilliklərdə Şirvaninin, M.Sabirin, H.Cavidin, Şəhriyarın, qismən də olsa Vahidin şəxsində özünü hər yönüylə təsdiqləmiş və tükətmişdi. Yaşı çox olsa da, eyni şeyi heca vəzni üçün söyləmək yanlış olardı. Çünki aradan keçən bunca zaman ərzində heca vəzni özünüifadə imkanlarını hələ tam anlamıyla açmamış, aça bilməmişdi. Bütün bu açılmamış imkanlar qala-qala bu dəfə də Rusiya və Türkiyə üzərindən keçib gələn Avropa ədəbi rüzgarlarının təsiri ilə Azərbaycan şeirinə yeni bir vəzn – sərbəst – calaq edilməyə başladı. Buradaca F.Dostoyevskinin bir məlum fikrini xatırlatmaq yerinə düşərdi. Dostoyevski ədəbiyyatda, mədəniyyətdə, dövlətçilikdə hər yönü ilə Avropanı yamsılayıb onun arxasınca sürünən məmləkətinin halına acıyaraq belə yazırdı: "Mən bilmirəm, biz niyə Avropanın quyruğundan yapışıb Avropada sonuncu dövlət olmağa çalışırıq. Bu quyruğu buraxsaq, Asiyada birinci dövlət olarıq..."

Bu fikri yazmaq məqsədim özlüyündə aydındır: Qərbdən gələn nə varsa kor-koranə təqlid etmək haçandan yenilik yaratmaq olub? Tarixdə bu gedişatın əksini isbatlayacaq o qədər örnəklər var ki: Makedoniyalı İskəndər hərbi qənimət adına Hindistandan qızıl, gümüş yerinə filosofları Avropaya gətirməklə tarix səhifələrində yerini almışdır. Yunan və Alman fəlsəfəsinin təməlində Şərq düşüncəsi, Hind təfəkkürünün bəhrələri dayandığını bilməyən varmı? Hələ mən Avropa renesansının başlanğıcı olan Əndəlüs İslam kültürünü demirəm. Ya da "Dünya ədəbiyyatı" qavramını dünya ədəbiyyatına qazandıran Hötenin sonralar ustadı kimi qəbul etdiyi Hafizi ana dilində oxumaq üçün fars dilini öyrəndiyini xatırlatmaq yerinə düşərdi. Onun dünyaca ünlü "Şərq-Qərb" əsəri Avropada Şərq düşüncəsinin necə yansımasına həsr olunub.

Adamlar kimi, beləcə bəzən mədəniyyətlərin, vəznlərin də bəxti gətirmir. Bunu bir baxımdan, ədəbi nəsillərə də aid etmək olar. Çox vaxt belə nəsillərin imzalarını tanımaları və sevdirmələri tarixin "başını itirdiyi", böhranlı dövrünə düşür. Halbuki ya on il əvvəl, ya da on il sonra doğulsaydılar, bəlkə ədəbi taleləri beləcə laqeydlik burulğanına düşüb burulmazdı. Bunun günahını harada axtarsaq da, onların özlərində axtarmağa haqqımız yoxdur.

Dünya ədəbiyyatına, xüsusilə də Rus ədəbiyyatı tarixinə nəzər salsaq, hər əsrin başarılı "altmışıncılar" nəslinin olduğunu görürük. Bizim ədəbiyyatda da altmışıncı illər nəslinin yaratdığı ədəbi məhsullar hələ də ədəbi tənqidin araşdırma hədəfindədir. Bəlkə sonrakı ədəbi nəsillərin "altmışıncılara" qısqanclığı da bu maraq dairəsinə görədir. Qısqanclıq sadəcə sonrakı nəsillərdə deyil, elə "altmışıncılar"ın öz içində də var. İş o yerə çatıb ki, bu nəsildən olanların bəziləri "altmışıncılar" nəslinin siyahısını tutarkən kəndi simsarlarını, işlərinə yarayanları ön plana çəkməkdən belə, çəkinmirlər. Sanki "altmışıncılar" nəslinə mənsub olmaq əbədiyyətə "putyovka" almaq kimi bir şeymiş. Belə siyahıyaalmaların ədəbi tarix qarşısında bir qara qəpiyə dəymədiyini, ən azından, yaxın tariximizə nəzər salaraq görmək olar. Bir zamanlar adı ədəbi siyahılara əsla salınmayan, süni yollarla unutdurulmağa çalışılan M.Müşfiqlər, Ə.Cavadlar, xüsusilə Abbas İldırım kimi sənətkarlarımız mənsub olduqları nəslin "döşü ordenli ədəbiyyatçılar"ının önünə keçib ilk sıralarda haqlı yerlərini aldılar. Həm də bunu insanlar yox, anası ölmüş tarixin özü yerbəyer elədi. Bu acı təcrübə, nə yazıq ki, tez unudulur.



Yuxarıda da dediyim kimi, ədəbiyyata altmışıncı illərdə gələnlər mənsub olduqları ədəbiyyatın "Altın çağ"ına şahidlik edirlər. Əsrin "yorulmuş" səksən-doxsanıncı illərində ədəbiyyata gələnlərin qismətinə ya ədəbiyyatın "gümüş çağ"ı, ya da unudulmuşluq düşür. Əsrin əvvəlində ədəbiyyata gələnlər isə bir öncəki nəsillərdən daha şanslıdırlar, yeni doğulmuş uşaq dünya və həyat növbəsində necə ildırım sürətiylə böyüyüb özlərini təsdiqə can atırsa, yenicə yaşamağa başlayan əsrin özü kimi bu çağın ədəbi nəsilləri də eyni missiyanı həyata keçirirlər. Bugündəki Azərbaycan ədəbi mənzərəsinə baxsaq, XXI əsrin əvvəlində ədəbiyyata gələnlərin nə qədər ədəbi tale baxımdan şanslı olduqlarını görərik. Halbuki "ara ədəbi nəsillər" adlandırdığımz ədəbiyyat adamlarından onları, olsa-olsa, 15–20 il ayırır.

Çağımızda bir-birinin boynunun ardını isidə-isidə ədəbi üfüqlərin zəbtinə doğru yol gedən nəsillərin hamısının bir ortaq düşməni var, o da şeirə, sənətə qarşı kütləvi laqeydlik sindromudur! Amma belə baxanda bu bəla ədəbiyyatın insanlığın həyatına daxil olduğu aşağı-yuxarı bütün zamanların bəlasıdır.

XIX yüz ilin qırxıncı illərində Belinski təəssüflə yazırdı ki, poeziya publikanın nəzərində bütün dəyərlərini itirib, jurnallar şeiri könülsüz çap edir, bəzən də heç çap etmir, çünki şeir kitablarına həvəs sıfıra enib.

Bütün bu gəzişmələri etməkdə məqsədim nədir? Şeirə, sənətə laqeydliyin bir səbəbi dünyanın paraya-pula, maddiyyata bağlı gedişatı, məqsədli şəkildə sənətin kütləviləşdirilməsinə canatımdırsa, o bir tərəfi isə birbaşa yazı-pozu əhlinin özü və sözü ilə bağlıdır.

İmkanım çatdığı qədər Türkiyə, Rusiya, Azərbaycan mətbuatını izlədiyimdən deyə bilərəm ki, Azərbaycandakı qədər, haqqı oldu-olmadı, vəzifəli, imkanlı, paralı-pullu "qələm sahiblərinə" "bəy tərifi"ni heç yerdə görmək mümkün deyil.

Son illərdə Azərbaycandan Türkiyəyə, heç Azərbaycanda düz-əməlli tanınmayan, "şair", "jurnalist" qadınların axını başlayıb. Hansı televiziya kanalını açırsan, ekrandan oturana-durana aman verməyən süslü-püslü bir xanıməfəndi başını çıxarır, hansı şeir şöləninə gedirsən, orada da eyni bəla keçərlidir. Şüar söyləyib əl çaldırmaq yarışına girən bu xanımlar ölkəmizin imicinə vurduğu zərərin bəlkə də fərqində deyillər. Bu yaxınlarda Kayseri şəhərində keçirilən şeir şöləninə dəvət almışdım, içimdə tək bircə istəyim vardı, kaş orada yenə bizim "şair" xanıməfəndilərlə qarşılaşmayım. Amma qorxan gözə çöp düşdüyünü bilməliydim. Çoxdan tanıdığım və yaşının səksən ikisində belə, yazılarından yenilik ehtirası fışqıran Bahəddin Qaraqoç da şeir şöləninə gəlmişdi. Kayserideki radio verilişlərinə və jurnal redaksiyalarına birlikdə gedəcəkdik. Arada, Azərbaycandan gələn şairlərdən giley edəcəkdi: "Sizinkilərə söz verildimi, iki saat səhnədən düşmək bilməzlər, sizinkilərdə bu nə xəstəlikdi bilmiyorum yahu!"

Bahəddin bəyə etiraz etmək istəsəm də, etmədim, qarşıda şeir gecəsi vardı və bu şeir gecəsində şair olmayan xanıməfəndimizə də söz veriləcəkdi və inanırdım ki, o da B.Qaraqoçun ümidin "doğruldacaqdı". Düşündüyüm kimi də oldu. Gecənin aparıcısı şeir şöləninin qatılanların sayının çox olduğunu nəzərə alıb vaxtı uzatmamağı, bir, ya da iki şer oxumağımızı söyləmişdi. Amma kimə deyirsən, məclisin şıdırğı yerində söz verilən bizim bir xanıməfəndi özü boyda bir çanta ilə tribunaya çıxıb səsinə ayrıca bir artist məlahəti qataraq, suvenirlər paylamağa, sonra da nitq irad etməyə başladı. Əlbəttə, bu rəzalətin davamını yazmayacağam. Sadəcə onu deyim ki, az qala, bir saata qədər uzanan, içində sənət adına heç nə olmayan bu "nitqin" məclisdəki şairlərə necə təsir etdiyini görməmək üçün başımı aşağı salmaqdan başqa bir əlacım qalmamışdı. Amma xeyri nəydi, başını kola soxan "qırqovul"un "quyruğu" tribunada meydan sulayırdı. Qanımın qaraldığını görən yanımdakı şairlərdən biri: – "Hocam, hiç canını sıkma, – dedi, – biz bu "xanıməfəndinin" bu tür nutuklarına alışığız. Hər yerdə aynı şeyləri söylər, aynı sloqanları atar".

Bu yazımda uzun-uzun belə can sıxan hadisələrə yer ayırmağımın səbəbi nədir? İlk baxışda xırda şey kimi görünən belə hadisələr vurdumduymazdan gəldiyimizə görə ədəbiyyatımıza, mədəniyyətimizə vurulan zərbələrdir. Bir dəfə demişdim, bir də təkrarlayım ki, millət fərdlərinin sayı ilə deyil, mərdlərinin sayı ilə millət olur. Azərbaycanı xaricdə təmsil məsələsində çox diqqətli davranılmalıdır, çünki bir adamın yanlışlığı bütün bir xalqın ünvanına yazılır, bir adam az deyil, milyon adam çox! Və bir də var olmaqla deyil ki, gərək varis də olsun!

(ardı var)

*Məmməd İSMAYIL*

# Tərcüməçi-jurnalistin ömür hesabatı




**Dünən Azərbaycan Mətbuat Şurasında tanınmış tərcüməçi- jurnalist, şair-publisist, uzun illər müxtəlif media qurumlarında səmərəli fəaliyyəti ilə milli jurnalistikamıza layiqli xidmət göstərmiş Firidun Ağazadənin 75 illik yubileyi həmkarlarının, dostlarının və yaxınlarının iştirakı ilə keçirilən məclisdə sevgi-sayğı ilə qeyd edildi.**

Şuranın sədri Rəşad Məcid tərcüməçi-redaktoru ölkənin media ictimaiyyəti adından səmimi təbrik təbrik edərək, tanınmış ziyalıya ömrünün yetkinlik çağında yeni uğurlar arzuladı, ona qurumun yubiley diplomunu təqdim etdi. Şura sədri yubiliyarın zəngin və mənalı ömür yolundan, ölkəmizdə ingilis dili üzrə tərcümə sənətinin inkişafında xidmətlərindən söz açdı. O, Firudin Ağazadənin Azərdaycan Dövlət İnformasiya Agentliyində çoxillik səmərəli fəaliyyətinin müstəqilliyin ilk illərində ölkəmizin ətrafında yaradılmış informasiya blokadasının yararılmasında önəmli rolunu vurğuladı.

Bildirildi ki, istedaddlı və məhsuldar tərcüməçi kimi Firidun müəllim ali məktəblərdə, çalışdığı qurumlarda davamçılarını da yetişdirib. Peşəkar tərcüməçi, istedadlı şair dünya ədəbiyyatından bir çox nümunələri dilimizə, milli ədəbiyyat incilərimizi isə ingilis dilinə çevirməklə, şeir yaradıcılığını da davam etdirməklə 40-dək kitabın müəllifidir. Taleyini jurnalistikaya möhkəm bağlamış soydaşımız Mətbuat Şurasının beynəlxalq məclislərinin və Dövlət İmtahan Mərkəzinin jurnalistika üzrə qabiliyyət imtahanlarının keçirilməsinə təcrübəli tərcüməçi və ekspert kimi yaxından kömək göstərib.

Mətbuat Şurasının ilk sədri, İdarə Heyətinin üzvü, "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov Firidun Ağazadənin ustad tərcüməçi, qayğıkeş pedaqoq, yetkin publisit və şair kimi çoxcəhətli fəaliyyətinin milli mediamızın və ədəbiyyatımızın uğurlar qazanmasına samballı töhfələr qazandırdığını vurğuladı. O, Mətbuat Şurasının fəaliyyətə başladığı ilk illəri yada salaraq bildirdi ki, yubilyar həmin məhdud imkanlı dönəmdə AMŞ-nin beynəlxalq media qurumlarına ünvanladığı yüzlərlə sənədin, media ilə bağlı beynəlxalq əhəmiyyətli sənədlərin Azərbaycan dilinə peşəkar tərcüməsini həyata keçirib. Bu, demokratik jurnalistikamızın formalaşmasına təmənnasız xidmət nümunəsidir.




Azərbaycan Dövlət İnformasiya Agentliyinin İdarə Heyəti sədrinin müavini Dağbəyi İsmayılov qeyd etdi ki, Firidun Ağazadə AZƏRTAC-da xarici dillərdə informasiya redaksiyasının təməlini qoyanlardan olub. O, keçmiş tərcümə redaktorunun rəsmi materiallarını xarici dillərə çevrilməsi işini yüksək peşəkarlıqla icra etdiyini, çalışdığı sahədə əsl məktəb yaratdığını qeyd etdi.

AMŞ-nin Ahıl Jurnalistlər Məclisinin sədri Tahir Aydınoğlu veteran jurnalistlərimizin nüfuzlu nümayəndəsi olan Firidun Ağazadənin müstəqillik illərində Azərbaycan gerçəkliyinin dünyaya çatdırılması missiyasını həyata keçirən fədakar qələm sahibi olduğunu söylədi. "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarov isə dostu Firidun müəlimi yaradıcılığı ilə şəxsiyyəti üst-üstə düşən insan kimi xarakterizə edərək əlavə etdi ki, yubiliyarın yüksək peşəkarlığı və zəhmətkeşliyi tərcümə sənətində mükəmməllik etalonudur.

Veteran jurnalist İttifaq Mirzəbəyli, MŞ-nin keçmiş icra katibi Rəhim Hüseynzadə, şair-publisist Ağacəfər Həsənli, şair-folklorşünas İslam Sadiq, şair-publisist Hafiz Rüstəm, Audiovizual Şuranın sektor müdiri Taleh Quliyev, "Qanun" nəşriyyatının tərcüməçisi Aygün Əziz, yazıçı Vüqar Babazadə, yubiliyarın yetirmələrindən Orxan Muradov, İlhamə Məmmədova, Ziya Ağazadə Firidun müəllimin yurd sevgisindən, yüksək insanlıq və peşə dəyərləri örnəyi yaratmasından danışdılar, ona möhkəm cansağlığ, yeni uğurlar arzuladılar.

Sonda çıxış edən Firidun Ağazadə əməyinə və ömür yoluna verilən yüksək qiymətə, xoş sözlərə və arzulara görə iştirakçılara təşəkkürünü bildirdi.

**T.RÜSTƏMLİ,**
**Elşən AĞALAR (foto)**
**XQ**

# Şuşada STEAM Mərkəzi

**Ötən ilin noyabrında Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açılışı olmuş Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin nəzdində Şuşa STEAM Mərkəzi fəaliyyətə başlayıb.**



Qarabağın incisi Şuşada elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın vəhdətini özündə birləşdirən STEAM ilə gənclərimiz innovativ bilik və bacarıqlar qazanacaqlar.

Qeyd edək ki, STEAM Elm və Təhsil Nazirliyinin layihəsidir və 2019–2020 tədris ilindən start götürüb. STEAM elm, texnologiya, mühəndislik, sənət və riyaziyyat sözlərinin baş hərflərindən yaranan qısaltmadır və bu fənləri inteqrasiya edərək tədris etməyi hədəfləyən disiplinlərarası və tətbiqi yanaşmanı əsas götürən təhsil fəlsəfəsinin adıdır. Ölkəmiz STEAM əsaslı təhsilin geniş yayılmasını milli strateji hədəf kimi görür və STEAM əsaslı təhsil müəssisələrinin sayı sürətlə artır.

***R.ABİŞOV***
***XQ***

# Daşkənddə Türk Dövlətləri Universiteti yaradılacaq



**Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Daşkənddə özəl təhsil müəssisəsi – "Beynəlxalq Türk Dövlətləri Universitetinin yaradılması haqqında" sərəncam imzalayıb.**

Sənədə əsasən, universitetdə beynəlxalq standartlara uyğun mühəndislik, tikinti, logistika, informasiya texnologiyaları və proqramlaşdırma, səhiyyə, kənd təsərrüfatı, qida sənayesi, eləcə də iqtisadi və sosial sahələr üzrə kadrlar hazırlanacaq. Universitetdə bütün Türk dövlətlərindən tələbələrin təhsil alması mümkün olacaq.

Müəssisənin əsas məqsədi yüksək ixtisaslı kadrların hazırlanması, xarici ölkələrin, o cümlədən Türkiyənin aparıcı ali təhsil müəssisələri ilə birgə proqramların həyata keçirilməsi və elmi tədqiqatların aparılması, elmi-tədqiqat təşkilatları ilə əlaqələrin qurulması, professor-müəllim heyətinin xaricdə təcrübə və ixtisaslarının artırılmasının təşkili və elmi-pedaqoji potensialın təkmilləşdirilməsindən ibarətdir.

2025–2026-cı tədris ilində universitetdə təhsil prosesi Türkiyənin 1000 ən yaxşı beynəlxalq reytinq siyahısına daxil edilən və öz sahələri üzrə lider kimi tanınan aparıcı universitetlərin proqramları əsasında təşkil olunacaq.

Universiteti təşkil etmək və fəaliyyətini əlaqələndirmək üçün idarə heyəti yaradılacaq. Qəbul parametrləri müəyyən ediləcək.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

# Təkqütblü dünya düzəninin iflası

## *ABŞ–Rusiya–Çin üçbucağında çoxqütblü dünya çəkişməsi*

**Son illərdə təkqütblü, yoxsa çoxqütblü dünya düzəninin formalaşdırılması ətrafında inadlı mübarizə gedir. Bu, ABŞ-da Co Baydenin hakimiyyəti dövründə, xüsusilə, amansız şəkil aldı. Ukraynada müharibənin başlaması isə mübarizənin pik nöqtəsi oldu. Amma Qərb, ABŞ, NATO bu mübarizəni qələbə ilə başa çatdıra bilmədi. Bayden hakimiyyəti başa çatdı, amma təkqütblü dünya formalaşdırmaqla bağlı arzular elə arzu olaraq qaldı.**



Donald Trampın ABŞ-da yeni prezident seçilməsi ilə təkqütblü dünya ətrafında illüziyalar da aradan qalxmağa başlayıb. İndi bir çox siyasi dairələrdə bunun açıq etiraf edildiyini görürük. Bu günlərdə “The Guardian” kimi dünya şöhrətli bir qəzet də belə bir etirafda bulunub. Burada dərc olunmuş yazının məntiqi belədir: Tramp çoxqütblü dünyada Rusiya və Çinin rolu ilə barışmalıdır.

Gəlin, bu yerdə əvvəlcə dünyanın qütblərə bölünməsi tarixinə nəzər salaq. Yəni bu gün hamımızın ümumi evi olan dünyanı qan gölünə döndərmiş təkqütblü dünya düzəni dediyimiz nəsnə odur ki, bütün dövlətlər vahid bir hakim ölkəyə tabe olur, onun qayda-qanunları ilə idarə olunur. Bu ideya, əslində, son illərdə ABŞ-da irəli sürüldü və dünya ölkələrinə təqdim olundu. Amma bununla hamı razılaşmadı. Təbii ki, razılaşmayanlara qarşı müvafiq addımlar atıldı, müharibələr törədildi, iqtisadi sanksiyalar və s. işə salındı.

Tarixin gedişi göstərir ki, faktiki olaraq bugünədək dünya çoxqütblü olub. Təxminən, XIX əsrə qədər dünyada 4 böyük dövlət əsas güc mərkəzi rolunda çıxış edib. Bunlar İngiltərə, Fransa, Rusiya və Osmanlı dövlətləri olub. Yəni çoxqütblü dünya mövcud olub. Bir qədər sonrakı mərhələdə Osmanlı öz dövrünü başa vuraraq sıradan çıxıb və getdikcə Rusiya yeni imperiya olaraq öz mövqelərini möhkəmlədib.

Həmin əsrdə baş vermis müstəmləkəçilik meylləri, inqilablar, sənaye çevrilişləri İngiltərə və Fransanı qlobal dominantlığa çıxarsa da, Napoleonun məğlubiyyətindən sonra Rusiyanın öz hüdudlarını genişləndirməsi ilə nəticələndi. Cənubi Qafqaz, bütövlükdə, Qafqaz regionu da Rusiya imperiyasının ərazisinə daxil edildi.

Birinci Dünya müharibəsindən sonra imzalanan Versal müqaviləsi (1919) o vaxtadək güclənməkdə olan Almaniyanın məğlubiyyəti, eləcə də onunla birlikdə Osmanlı və Avstriya–Macarıstan imperiyalarının tarixə qovuşması ilə nəticələndi.

Beləliklə, dünya böyük güc mərkəzinə çevrilmiş Böyük Britaniya və ABŞ tərəfindən yenidən bölüşdürüldü. XX əsrin əvvəllərində Rusiyada baş vermis sosialist inqilabı bu ölkəni yeni böyük dövlətə və təbii ki, nəhəng güc mərkəzinə çevirdi.

İkinci Dünya müharibəsində Almaniyanın məğlubiyyətindən sonra isə dünyada SSRİ və ABŞ kimi iki bir-birinə zidd ideologiyalı qlobal güclər formalaşdı. Bu iki rəqib, daha doğrusu, düşmən güc arasında rəqabət ikiqütblü dünyanı “soyuq müharibə” dövrünə, nəhayət, SSRİ-nin dağılmasına gətirib çıxardı. Bununla da Rusiyanın qara günləri başladı. ABŞ nəzarətində olan Avropa ölkələri ilə birgə Rusiyaya qarşı sərt təzyiqləri davam etdirdilər. Və Ukrayna müharibəsi başlandı.

Amma birqütblü dünya ideyasının qarşısına bu dəfə özünün iqtisadi gücü ilə Çin çıxdı. O da ABŞ üçün əsas qlobal təhdidlərdən biri oldu. Rusiya və Çin, əslində, çoxqütblü dünya uğrunda əlbir mübarizəyə qoşulmuş oldular.

Nəhayət, ABŞ-ın təkqütblü dünya ilə bağlı SSRİ-nin dağılmasından sonrakı bütün dövr ərzində apardığı siyasət iflasa uğradı. Beləliklə, bu gün artıq istər rəsmi dairələrdə, istərsə siyasi analitiklər tərəfindən təkqütblü dünya ideyasının baş tutmadığı etiraf olunur. Budur, “The Guardian” qəzeti açıq-aydın bəyan edir ki, ABŞ Prezidenti Donald Trampın administrasiyası birqütblü dünya dövrünün bitməsini qeyd edə bilər və Amerika lideri bundan sonra Rusiya və Çinin maraqlarını nəzərə almağa məcbur olacaq.

Nəşr xatırladıb ki, bundan əvvəl dövlət katibi Marko Rubio da amerikalı jurnalist Meqan Kelliyə müsahibə verib və təkqütblülük ideyasının anomaliya olduğunu, soyuq müharibənin başa çatması nəticəsində meydana gəldiyini bildirib. Dövlət katibi qeyd edib ki, dünya Rusiya və Çin də daxil olmaqla “planetin müxtəlif yerlərində bir neçə böyük dövlətin” olduğu çoxqütblü quruluşa qayıdır.

“The Guardian” yazır ki, “Rubio izah etdi: “Biz dünyada yeganə güc idik, ona görə də hər problemi həll etməyə çalışan bir növ dünya hökuməti olduq”. Məqalədə deyilir ki, dövlət katibi demək istəyir ki, artıq “o dövr bitdi”. Qəzet daha sonra bildirir ki, Tramp bundan belə vədinə əməl edəcək və Çinə sülhsevər yanaşma nümayiş etdirəcək, təhlükəsizliklə bağlı məsuliyyəti isə daha çox NATO müttəfiqlərinə həvalə edəcək. Yazıda o da vurğulanır ki, Rubio ABŞ-ın yeni münaqişələrə qarışmaması barədə vəd verdiyini desə də, ABŞ siyasi elitası Donald Trampın Vaşinqton, Moskva və Pekin arasında nüfuz dairələrini bölüşdürəcəyinə çox da inanmır.

Qeyd edək ki, fevralın 5-də Kreml sözçüsü Dmitri Peskov Rubionun çoxqütblülüklə bağlı mövqeyinin Moskvanın baxışı ilə üst-üstə düşdüyünü bəyan edib. Demək, dünya binə olandan bəri çoxqütblü olduğu kimi, yenə də eyni olaraq qalır.

***Paşa ƏMİRCANOV***
***XQ***

İnsanlar və talelər

**Cənub bölgəsində, Cəlilabaddan tutmuş Masallı, Yardımlı, Lerik, Lənkəran və Astara rayonlarına qədər yaşlı nəsil indi də onu hörmətlə yad edir, ruhuna dualar oxuyurlar. Bir zaman Lerikdə rəhbər partiya vəzifələrində çalışmış, sonralar Astara rayon milis şöbəsinin rəisi işləmiş polkovnik - leytenant Əbdülhüseyn Abdullayevi deyirəm.**



# Ot kökü üstə bitər

Orta boylu, dolu bədənli, qarabuğdayı bu ağayana kişinin çöhrəsindən xeyirxahlıq, nəciblik, bir sözlə nur yağırdı.

Əbdülhüseyn Abdullayevin oğlunu isə təkcə respublikamızın cənub bölgəsində deyil, bütün Azərbaycanda yaxşı tanıyırlar. Adı Rövşən olan bu igid Birinci Qarabağ müharibəsinin qəhrəmanlarından biridir.

Torpaqlarımızın erməni işğalından müdafiəsi uğrunda döyüşlərdə şəhid olan polis zabiti oğlu Rövşən Abdullayev Vətənin ən yüksək mükafatına Milli Qəhrəman adına layiq görülüb. Lənkəran şəhərində onun büstü ucaldılıb.

Rövşənlə – o qəhrəman oğlumuzla bağlı qəfil yadıma düşənləri indi kövrələ-kövrələ xatırlayıram.

...İnstitutu yenicə bitirmişdim.1974-cü ilin sentyabr ayının ilk günləri idi. Təyinatımı Lerik rayonuna vermişdilər. Dəvəçi–Bakı, Bakı–Dəvəçi marşrutundan kənar çıxmayan 22 yaşlı bir gənc...O zaman qohumlarımızdan biri atamın bu narahatlığından-nigarançılığından xəbər tutub:

– Astaranın milis şöbəsinin rəisi ərkim çatan insandır, özü də əslən Lerikdəndir. O tərəflərdə xətir-hörmət yiyəsidir. Telefon açaram, məsələdən onu agah edərəm. Vəzifə sahibi olsa da, vaxt - macal tapıb Aydını özü ilə aparıb Lerikdə yerləşdirər, darıxma – deyə atamı arxayın saldı.

Bir gün sonra isə, qohumumuz “dostumla danışdım”, – deyə xəbər verdi. – Astarada yolunu gözləyir. Bu da ünvan ...

Beləcə, Lerikdən əvvəl Astaraya, deyilən ünvana yollandım.

Ev sahibi – Əbdülhüseyn müəllim məni çox mehriban, ağlıma gəlməyən bir qonaqpərvərliklə qarşıladı. “Əmi”nin bir neçə gün müsafiri oldum, halal duz-çörəyini kəsdim. Amma təyinat aldığım ünvana – Lerikə tələsirdim.

Onlarda qaldığım günlərdə “Əmi”nin ailəsi ilə də tanış oldum. Ailənin ərköyün olduğu qədər də dərrakəli, söhbətçil yaşca balaca oğlu Rövşənlə isə əməlli-başlı dostlaşdıq. Elə Rövşəndən öyrəndim ki, böyük “qaqaşı” Tofiq Bakıda həkimlik oxuyur, universitetdə oxuyan bacısı isə müəllim olacaq.

Üçüncü günün tamamında Əbdülhüseyn müəllimlə sağollaşıb Lerikə yola düşdük. Bizə öyüd-nəsihət, xeyir-dua verdi.

...İllər keçəcək, zaman-dövran dəyişəcək və mən sonralar biləcəkdim ki, həmin Rövşən böyüyüb ali hərbi məktəbdə oxuyacaq, zabit kimi doğma torpaqlarımızın ərazi bütövlüyü uğrunda erməni qəsbkarları ilə müharibədə şəhid olub Vətənin ən yüksək təltifinə – Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüləcək.

Əbdülhüseyn müəllimlə tanışlığımdan xəbərdar olan, bir vaxt elə özü də Lerikdə müxtəlif rəhbər vəzifələr tutmuş dostum Novruz Nəcəfoğlu ilə görüşlərimizin birində “Əmi”dən söz düşəndə təəssüflə onun bir müddət əvvəl vəfat etdiyini söylədi. Gözlərim önündə Əbdülhüseyn əminin nurlu çöhrəsi, oğlu Rövşənin şirin söhbətləri canlandı.

***Aydın TAĞIYEV***
***yazıçı-publisist***

# Türk Mədəniyyəti və İrsi Fondunun ikinci Şura toplantısı



**Fevralın 7-də Astanadakı Milli Muzeydə Qazaxıstanın sədrliyi və Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Mədəniyyət nazirliklərinin, eləcə də türk ölkələrinin dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə Türk Mədəniyyəti və İrsi Fondunun ikinci Şura toplantısı keçirilib.**

İclasda Fondun prezidenti Aktotı Raimkulova türk dövlətləri başçılarının göstərişinə əsasən, “Türk dünyasına baxış 2040” sənədi və TURKTIME təşəbbüsünün rəhbərliyi ilə Türk mədəni irsinin beynəlxalq aləmdə qorunması, inkişafı və gələcək nəsillərə ötürülməsi sahəsində təşkilatın strateji istiqamətləri barədə məlumat verib. Həmçinin 2024-cü il üzrə Fondun fəaliyyətinə dair ətraflı hesabat təqdim olunub.

İclasın yekunlarına əsasən təşkilata üzv ölkələrin nümayəndələri tərəfindən Fondun 2024-cü il üzrə fəaliyyətinin yüksək qiymətləndirilməsi, 2025-2026-cı illər üçün Fəaliyyət Planının təsdiq edilməsi barədə Protokol imzalanıb.

Tədbirdə Qazaxıstanın mədəniyyət və informasiya naziri Aida Balayevanın sədrliyi ilə keçirilən şura toplantısında Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, Qırğızıstanın mədəniyyət, informasiya, idman və gənclər siyasəti nazirinin müavini Gülbara Abdıkalıkova və Türkiyənin Qazaxıstandakı səfiri Mustafa Kapucu, eləcə də türk ölkələri dövlət orqanlarının nümayəndələri iştirak ediblər.

Yaşıl adalar

# Zümrüd libaslı Qarayazı meşələri

**Azərbaycan təbiətini tanıdaraq sevdirmək məqsədilə “Yaşıl adalar” rubrikası altında silsilə yazılardan növbəti reportajımız Qarayazı Dövlət Təbiət Qoruğuna həsr olunub. Dərhal qeyd edək ki, “Qarayazı” toponiminin mənası “Böyük düz”, “Böyük çöl” deməkdir. “Qara” böyük, “yazı” isə qədim türk dillərində düzənlik, çöllük mənalarında işlədilib.**



İndi isə keçək əsas mətləbə. Qarayazı Dövlət Təbiət Qoruğu Azərbaycan hökumətinin 1978-ci il 2 mart tarixli qərarına əsasən, Qazax rayonu ərazisində Ağstafa meşə təsərrüfatının Kürətrafı meşələrində 6 min hektara yaxın ərazidə yaradılmışdır. Lakin sonra qoruğun meşəli və meşəsiz ərazisindən 1.119 hektar sahə Qazax rayonunun Sadıqlı üzümçülük sovxozuna verilmiş və qoruğun sahəsi 4855 hektara qədər azalmışdır. Lakin 2003-cü ilin iyun ayında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə qoruğun ərazisi genişləndirilərək 9.658 hektara çatdırılmışdır.

Qoruqda füsunkar Qarayazı meşələri qorunur. Qeyd etmək lazımdır ki, ölkəmizin düzən meşələrinin xeyli hissəsi Kür çayı boyunca yerləşmişdir. Bu meşələr uzun müddət ciddi mühafizə edilməmiş, qırılma, otarılma və Kürün hidroloji rejiminin dəyişməsilə əlaqədar olaraq sahələri azalmış, seyrəlmiş, ağacların növ tərkibi xeyli dəyişilmişdir.

Qarayazı Dövlət Təbiət Qoruğu Kür çayının yatağının sol sahillərini və Qarayazı düzünün xeyli hissəsini əhatə edir. Qoruğun şərqə davamı Qarayazı–Ağstafa Dövlət Yasaqlığıdır. Qərbdə Gürcüstan, şimalda Bakı–Tbilisi dəmir yolu, cənubda Kür çayı ilə sərhədlənir.

Qoruğun ərazisi, əsasən, meşəlikdən ibarətdir, bunun çox hissəsini meşə ilə örtülü, az hissəsini isə meşə ilə örtülü olmayan sahələr təşkil edir. Meşəsiz sahələr, əsasən, qumluqlardan, su sahələrindən, bataqlıqlardan və s. ibarətdir.

Ərazidə qışı quraq keçən mülayim-isti yarımsəhra və quru bozqır iqlim tipi hakimdir. Bura qışın quraq və mülayim, yayın isə quraq və isti keçməsi ilə fərqlənir. Havanın orta illik temperaturu 12.2 dərəcədir, yanvarın orta temperaturu sıfır dərəcədən aşağı (-0,1 dərəcə) düşür. İllik yağıntının miqdarı 400 millimetr olduğu halda, illik buxarlanma bundan 2,3 dəfə artıqdır.

Qoruğun ərazisinin mikrorelyefi, geomorfoloji xüsusiyyətləri, Kür çayının təsiri, qrunt suyunun səthə yaxın olması, bitki örtüyünün müxtəlifliyi və s. burada allüvial-bataqlıq, allüvial-çəmən, allüvial-çəmən-meşə və çəmən-şabalıdı torpaqların əmələ gəlməsinə şərait yaratmışdır.

Kürün sahilindən uzaqlaşdıqca bitki örtüyünün dəyişməsi nəzərə çarpır: çay yatağının sahili boyunca söyüd, böyürtkən, iydə, zirinc kolları inkişaf etmişdir, onların əmələ gətirdiyi kolluqların eni bir neçə metrə çatır. Sahildən bir qədər aralandıqdan sonra ilə kolluqları tipik tuqay meşələri əvəz edir. Bu meşələr çoxyarusludur. Birinci yarusu ağyarpaq qovaq, ikinci yarusu isə palıd və qızılağac təşkil edir. Burada tuqay meşələrinə xüsusi görkəm verən lianlara da rast gəlinir. Meşəaltı kollar, cavan ağaclar meşənin nisbətən seyrək yerlərində daha çox təsadüf edilir.

Yeri gəlmişkən, heyvanlar aləminin zənginliyi cəhətdən də Qarayazı meşələri xüsusi əhəmiyyətə malikdir. Burada maral, qunduz, dələ, gəlincik, dovşan, çöl donuzu, tülkü, çaqqal, porsuq, çöl pişiyi, süleysin və s. məməlilər məskunlaşmışdır. Ərazi daimi yaşayan və köçəri quşlarla da zəngindir. Onlar sıx meşələrdə və müxtəlif kolluqlarda daha çox məskən salmışlar. Quşlardan qırqovul, göyərçin, alabaxta, qaratoyuq, ağacdələn, sığırçın daha çoxdur. Onların sayı 500-dən 2 minə qədərdir. Ördək, su fərəsi və s. suya maraq göstərən quşlar da az deyildir, burada bülbül də qorunur. Suda-quruda yaşayanlardan isə göl və quru qurbağaları, batalıq tısbağası, sürünənlərdən müxtəlif ilanlar və kərtənkələlər vardır. Kürün qoruq ərazisində şəmayı, çapaq, naxa, şirbit və s. balıqlar mövcuddur.

Burada söhbətə bəlkə də son nöqtə qoymaq olardı, amma bu məqamda Qarayazı meşələrini şeirlərində dəfələrlə vəsf edən sevimli Xalq şairi Səməd Vurğunun adını çəkməmək insafsızlıq olardı. Şair bu qənirsiz sərvətin diqqətsizlik və baxımsızlıq səbəbindən məhv olacağından narahat idi və ona görə bir vaxtlar yazmışdı:

**Kür qırağı, Qarayazı, göy çəmən,**
**Qoşa palıd... Tüstülənən od-ocaq...**
**Saç ağardı, unutmadım sizi mən**
**Hansı şair sizi bir də yazacaq!**

P.S. Xoşbəxtlikdən bənzərsiz Qarayazı meşələri yuxarıda qeyd etdiyimiz kimi, dövlətimiz tərəfindən etibarlı şəkildə qorunur və ümid edirik ki, böyük şairin də ruhu şaddır!

***M.HACIXANLI***
***XQ***

# Mobil rabitə xərçəngə səbəb olurmu?

**Son zamanlar mobil telefonların zərərləri haqqında çox danışılır. Bəzi insanlar hətta xərçəngə səbəb ola biləcəyindən qorxurlar. Bunun həqiqətən, belə olub-olmadığı Avstraliya Radiasiyadan Mühafizə və Nüvə Təhlükəsizliyi Agentliyindən (ARPANSA) Ken Kapridis və onun 8 ölkədən olan həmkarları tərəfindən araşdırılıb.**

Onlar cib telefonları və xərçəngin inkişaf riski arasındakı əlaqəyə dair tədqiqatların sistematik icmalının ikinci hissəsini təqdim ediblər. Alimlər təkcə qadcetlərin sağlamlığa necə təsir etdiyini deyil, həm də təkrarlayıcıların (retrotranslyasiya) yaxınlığında yaşamağın oynadığı rolu, həmçinin radiotezliklərlə peşəkar əlaqəni təhlil ediblər. Nəticələr “Environment International” jurnalında dərc olunub.

Alimlər 1988–2019-cu illərdə nəşr olunan 26 elmi nəşri təhlil ediblər. Tədqiqata 10 ölkədən iştirakçı qatılıb. Alimlər telefonların leykemiya, qalxanabənzər vəzi xərçəngi, boğaz xərçəngi və digər xəstəliklərə təsir etdiyini araşdırıblar. Tədqiqatçılar mobil rabitənin kanserogen olduğuna dair heç bir dəlil tapmayıblar. Mütəxəssislərin fikrincə, hazırda mobil rabitənin xərçəng xəstəliyinə səbəb olduğunu düşünməyə əsas yoxdur.

"Cib telefonlarından uzun müddət (10 ildən çox) istifadə də leykemiya, qeyri-Hodgkin lenfoma və ya qalxanabənzər vəz xərçəngi riski ilə əlaqəli deyil", – ekspertlər əlavə ediblər.

***FİDAN***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 28 (30722) 8 fevral 2025-ci il, şənbə

İdman

# “Qarabağ” Juninyonun ayağını açdı

## *“Köhlən atlar”ın özü isə geriyə sayır*



**“Qarabağ”dakı ilk mövsümü ilə müqayisədə son aylar məhsuldar oyun nümayiş etdirməyən Juninyonun “Sevilya” və “Flamenqo” kimi klubların maraq dairəsinə düşməsi hər nə qədər təəccüb doğursa da, futbolçunun Azərbaycandan gedişi reallaşıb və o, artıq Vətənində kubok da qazanıb.**

“Flamenqo”nun heyətində 3 oyun keçirən 28 yaşlı hücumçu hələ fərqlənə bilməsə də, komanda ilə Braziliya super kubokunun qalibi olub. Şübhəsiz, Juninyo ötən Avropa Liqasındakı çıxışı ilə diqqətləri cəlb edə bilib. “Qarabağ”ın Portuqaliyada “Braqa”ya 4:2 hesabı ilə qalib gəldiyi matçda qələbə qolunun müəllifi olan braziliyalı sonra 1/8 finalın hər iki qarşılaşmasında məğlubedilməz “Bayer”in qapısına da yol tapmışdı (2:2, 2:3). Amma bu mövsüm o, Avropa Liqasının liqa mərhələsində yalnız “Malmö” (1:2) ilə oyunda fərqlənib və bu qol da təsəllidən başqa bir şey olmayıb.

Futbolçu CV-si deyir ki, “Qarabağ”dan əvvəl Avropada tanınmayan Juninyo Braziliyadakı ilk klubu “Atletiko Paranaense” onu hər mövsüm digər komandalara “icarə”yə verib, necə deyərlər, o heç cür öz oyununu tapa bilməyib. Nəhayət, Portuqaliyaya gəlib çıxıb. 2020/21 mövsümündə “Şaveş”in heyətində aşağı liqada 8 qol vurmaqla “Qarabağ”dan əvvəlki futbol həyatında ən məhsuldar göstəriciyə nail olub. Sonra klubla Primeyra Liqaya çıxaraq orada da “Sportinq” və “Braqa” kimi komandaları məyus edib, nəticədə, Azərbaycan çempionunun diqqətini cəlb edib.

“Qarabağ”a gəlməsi ilə ayağı açılıb – 2023/24 mövsümündə 20 qolla Azərbaycan çempionatının bombardiri olub. Ölkə kuboku və avrokubokları da nəzərə alsaq, ümumilikdə, rəqib qapılarından keçirdiyi 31 topla karyerasının ən uğurlu mövsümünə imza atıb.

Hazırkı mövsümə də “Linkoln” ilə matçlarda qollarla başlayıb, karyerasında ilk dəfə het-trik etsə də, Azərbaycan çempionatında qış fasiləsinədək 3 qol vurması əvvəlki formasından uzaq olmasının göstəricisidir. Düzdür, avrokuboklarda təsnifat mərhələləri də nəzərə alınmaqla daha 7 dəfə fərqlənib, amma ümumilikdə 10 qol belə böyük göstərici deyil.

Braziliyalı olmasına baxmayaraq, texnikada monteneqrolu Marko Veşoviç və ya Mərakeş əsilli fransalı Abdullah Zubir kimi oyunçulardan geri qalan, “Qarabağ”ın sürətli əks hücumları zamanı özünü dəryada balıq kimi hiss edən Juninyonun şöhrət qazandıqdan sonra yenidən qayıtdığı Braziliyada ümidləri necə doğrulda biləcəyini zaman göstərəcək.

Yaşı 30-a yaxınlaşan futbolçu “Flamenqo” ilə 2028-ci ilə kimi müqavilə bağlayıb. Bu komanda ötən mövsüm Braziliya çempionatında üçüncü yeri tutub, Libertadores kubokunda dörddəbir finalda büdrəsə də, “2022 Copa Libertadores”in qalibi kimi 2025-ci il klubların dünya çempionatına da vəsiqə qazanıb. Qrupdakı rəqibləri isə “Çelsi”, Meksika “Leon”u və Tunis “Esperans”ıdır. Juninyonun özünü göstərmək üçün yayda əla fürsəti olacaq. O, Braziliya millisində oynamayıb. Yeniyetmələr və gənclər komandalarına düşə bilməyib, əsas yığmadan isə danışmağına dəyməz. Amma “Flamenqo”dakı yeni oyundaşı, millidə oyun sayı hələ sıfır olan müdafiəçi Leo Ortizin 29 yaşında ölkənin əsas komandasına çağırılması Juninyo üçün də ümidverici məqamdır.

“Qarabağ”a gəlincə, bundan əvvəl İbrahima Vadjini 1 milyon avroya “Sent-Etyenn”ə və Kadi Borgesi 2 milyon avroya “Krasnodar”a satmasını da xatırlamaqla, komandanın son illərdə transfer bazarında fəallaşmasını qeyd edə bilərik. “Transfermarkt”ın ötən ay açıqladığı göstəricilərdə dəyəri 2 milyon avro qiymətləndirilən Juninyonu 5 milyon avroya “Flamenqo”ya verilməsi isə Azərbaycan çempionunun meydandankənar qələbəsi deməkdir.

Bəs meydanda? “Qarabağ”ın ardıcıl son 4 oyunda – beynəlxalq arenada və ölkə çempionatında məğlub olması həm hücumda, həm də, ümumiyyətlə, komandada böhranın olması barədə düşünməyə əsas verir. Ötən mövsüm Avropa Liqasında dörddəbir finalın bir addımlığında olan “Qarabağ”ın bu dəfə liqa mərhələsində 3 xalla sonuncu – 36-cı yeri tutması Zəfər ünvanlı bölgənin komandasına yaraşarmı?.

***Rasim MÖVSÜMZADƏ,***
***idman icmalçısı***

## İtaliyada bürünc medal



**Azərbaycanı beynəlxalq fiqurlu konkisürmə üzrə yarışlarda təmsil edən Anna Sofia Obrien İtaliyada keçirilən “Egna Dance Trophy” adlı yarışda uğurla çıxış edib.**

Qış İdman Növləri Federasiyasından verilən məlumata görə, ritm və sərbəst proqram üzrə ölkəmizi təmsil edən idmançımız 129.35 xalla 3-cü yeri tutub.

Qeyd edək ki, yarışda 15 ölkədən, ümumilikdə, 18 idmançı mübarizə aparıb.

## Gimnastika hakimlərimiz dərəcələrini artırırlar

**Macarıstanın Budapeşt şəhərində Beynəlxalq Gimnastika Federasiyası (FIG) tərəfindən 2025–2028-ci illər üçün beynəlxalq hakimlik kursları keçirilib.**




Gimnastika Federasiyasından verilən məlumata görə, kurslarda Azərbaycanın kişi idman gimnastikası üzrə hakimləri Zəkəriyyə Muradlı və Eldar Səfərov iştirak ediblər.

Onlar kurs üzrə yekun imtahanla müxtəlif kateqoriyaya sahib olublar. Belə ki, Z.Muradlı 3-cü, E.Səfərov isə 4-cü kateqoriyaya layiq görülüb.

## Futbol tarixinin 100 ən yaxşısı

**Böyük Britaniyanın məşhur FourFourTwo nəşri futbol tarixinin 100 ən yaxşı futbolçusunun siyahısını dərc edib.**



Siyahının ilk pilləsində Lionel Messi yer alıb. Argentinalı ulduz braziliyalı məşhur Pele və həmyerlisi Dieqo Maradonanı qabaqlayıb. Kriştiano Ronaldu 4-cü olub.

***L.QURBANOVA***
***XQ***

## Azərbaycan Türkiyə turizm sərgisində

**Azərbaycanın turizm imkanları Türkiyənin İstanbul şəhərində keçirilən Şərqi Aralıq dənizi Beynəlxalq Səyahət və Turizm Sərgisində təbliğ edilir. Dünyanın 5 böyük sərgisindən biri hesab edilən Şərqi Aralıq dənizi Beynəlxalq Səyahət və Turizm ekspozisiyasında 95 ölkə təmsil olunur.**




Sərginin milli stenddə 10 yerli turizm sənayesi nümayəndəsi və “Azərbaycan Hava Yolları” QSC təmsil olunur. Ziyarətçilərə Azərbaycan turizm imkanları, o cümlədən qastroturizm, şərabçılıq, qış turizmi və dağ-xizək mərkəzləri, UNESCO-nun Ümumdünya İrs Siyahısında yer alan maddi mədəni irs nümunələri barədə ətraflı məlumat verilir. Türkiyə və digər ölkələri təmsil edən turizm nümayəndələri ilə B2B formatında görüşlər də təşkil edilir.

Qeyd edək ki, 2024-cü ildə Türkiyə Azərbaycana səfər edən xarici ölkə vətəndaşlarının sayına görə, ikinci yerdə qərarlaşıb. Ötən il ölkəmizə Türkiyədən 426 min 241 nəfər turist gəlib ki, bu da 2023-cü illə müqayisədə 13 faiz çoxdur.

***Qəzənfər QASIMOV***
***XQ***




**Şimal bölgəsinə axşam saatlarından qar yağmaqda davam edir. Ən çox qar Quba rayonunun Qırız kəndinə yağıb. Kənddə qarın hündürlüyü 20 santimetrə çatır.**

Qubada yerləşən Şimal-Şərq Regional Hidrometeorologiya Mərkəzindən bildirilib ki, fevralın 6-dan başlayaraq, Quba, Qusar və Xızı rayonlarının dağlıq ərazilərinə qar yağıb.

Qusar şəhərində 3 santimer, Xızının Altıağac qəsəbəsində 9 santimer, Qubanın Xaltan kəndində isə 10 santimer qar qeydə alınıb.

Qarın yağması ilə əlaqədar temperatur mənfi 8 dərəcəyədək düşüb. Ən aşağı temperatur Quba Qırız kəndinə qeydə alınıb.

***XQ***

Sağlamlıq

## *Çaylar çəkini necə azaldır?*



**Arıqlama məqsədilə bitki çaylarından tez-tez istifadə edilir. Lakin bu çaylar sağlam qidalanma və müntəzəm idmanla birlikdə daha təsirli olur.**

Fitoterapevtlər bildirirlər ki, arıqlamaq üçün istifadə edilən çayların bir çoxunun tərkibində maddələr mübadiləsini sürətləndirməyə, bədəndən toksinləri çıxarmağa, həzmi dəstəkləməyə və şişkinlik kimi problemləri aradan qaldırmağa yönəlmiş maddələr var. Ona görə də çəki azaltmaq istəyənlər belə çaylardan istifadəyə üstünlük verirlər.

Bəs arıqlama çayları nə dərəcədə təsirlidir? Alternativ tibb mütəxəssislərinin fikrincə, mütəmadi olaraq idman etmək, sağlam və düzgün qidalanma rejimi yaratmaq və kifayət qədər su içmək arıqlama prosesinə daha çox təsir edən amillərdir. Təcrübələr göstərir ki, arıqlama çaylarının bu prosesə kömək etməsi mümkündür, lakin onların qida əlavəsi kimi istehsal edildiyi unudulmamalıdır.

Bundan əlavə, çəkini azaltmaq üçün istifadə edilən elə çaylar var ki, bəzi insanlarda yan təsirlərə səbəb olur. Qan təzyiqi, ürək və mədə xəstələri bu çaylardan istifadə etməzdən əvvəl həkimlə məsləhətləşməlidirlər.

***Z.HÜSEYNLİ***
***XQ***

HAVA

## *Yenə külək, yağış, qar və duman*

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 8-də Bakıda və Abşeron yarımadasında havanın arabir yağıntılı olacağı gözlənilir. Səhərdən yarımadanın bəzi yerlərində sulu qar yağacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək. Gecə 2°-dək isti, gündüz 3°-dək isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 773 mm civə sütunu,nisbi rütubət 70-75 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-4°, gündüz 5-8° isti, dağlarda gecə 5-10°, yüksək dağlıq ərazilərdə 10-15°, gündüz 2-6° şaxta olacaq. Bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.**

***Q.QASIMOV***
***XQ***



## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev və bölmənin kollektivi AMEA Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədliyə həyat yoldaşı

**NƏZAKƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova və professor-müəllim heyəti kino-televiziya sənətləri kafedrasının professoru, Xalq artisti Oktay Mirqasımova qardaşı, professor

**RÜFƏT MİRQASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3074
SİFARİŞ 243
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00